**Vüqar Dadaşov**

# MƏNİM DÜŞÜNCƏM

BAKI - 2019

Vüqar Dadaşov "Mənim Düşüncəm"
( Azərbaycan dilində )
Bakı, "Zərdabi Nəşr MMC" – 2019, 152 səhifə.

Redaktor və ön sözün müəllifi: Tural İrfan
Azərbaycan Yazıçılar Birliyinin üzvü,
AMEA-nın dissertantı

Məsləhətçi: Seyfəddin Qəniyev
Filologiya elmləri doktoru, professor

Korrektor: Faizə Sadiyeva

Tarixi, elmi-fəlsəfi, milli-ideoloji, siyasi əsərdə müəllif Azərbaycan xalqının identik quruluşu, tarixi kökləri, problemləri, problemlərdən qurtuluş yolları, həmçinin digər əhəmiyyətli məsələlər haqqında etibarlı mənbə və məxəzlərə əsaslanaraq habelə şəxsi mülahizələrini də qeyd etməklə dolğun şəkildə fikirlərini təqdim etmişdir. Kitab yeni nəslin maariflənməsində və vətənpərvərlik hisslərinin aşılanmasında xüsusi əhəmiyyət kəsb etməsi baxımından geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978 – 9952 – 526 – 37 - 0**

# Ön söz

Azərbaycan adlı böyük bir dövlətin düşmən istilaları, işğalları nəticəsində qəsb olunaraq parça-parça edilmiş torpaqlarından, xalqımızın başına gətirilən soyqırımlardan, əsasən də erməni daşnaklarının türk millətinə qarşı xəyanətindən, ulu-şanlı soykökümüzdən, həmçinin digər mühüm milli məsələlərdən, Qarabağ və digər problemlərimizdən bəhs edən bu tarixi, elmi-publisistik əsəri redaktə məqsədi ilə oxuyarkən həqiqətən müəlliflə - dəyərli dostum, əsl ziyalı, 1-ci Qarabağ müharibəsi veteranı - qazi, hüquqşünas-polittexnoloq, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Vüqar Dadaşovla bir daha qürur duydum, onunla fəxr etdim. Çünki o yüksək vətənpərvərlik, milli köklərimizə bağlılıq və insani dəyərlərlə sintez olunmuş müasirliyin, zamanın siyasi tələbinin, həmçinin beynəlxalq dəyərlərin ortaq mahiyyətinə vararaq türk milli kimliyimizi dərk edib problemlərdən çıxış yollarını izah etmiş, öz təkliflərini irəli sürmüş, hüquqi-siyasi, elmi-tarixi faktlar, mənbələrlə əsaslandırmışdır. Vüqar Dadaşovun Yardımlı rayonunun Bozərən kəndinə mənsubluğu onun türk milli varlığının ilkin sübutu olmaqla yanaşı, ata-babalarının öz dövrünün tanınmış, sayılıb-seçilmiş nüfuzlu simalarından, hətta ulu babasının Lənkəran xanına çatan əqrabalıq zəncirinin mövcudluğu, ana babasının da cənub zonasının inam-pənah yerlərindən olan seyyid ocaqlarından - Mir Qasım ağa olması belə bir kitabın ərsəyə gətirilməsini labüdləşdirir. Müəllif uzun müddət Qarabağ uğrunda gedən savaşlarda Zəngilan istiqamətində qızğın döyüş yolları keçərək odun-alovun içindən çıxmış, yaralanmış, erməni xislətinin əsl mahiyyətinə əyani şəkildə varmış, daxildəki xəyanəti də, sədaqəti də canlı olaraq görmüş, Rusiyada hüquqi təhsil aldıqdan sonra da oranın hüquq orqanları-məhkəmə sistemində çalışmışdır. Vətənə dön-

dükdən sonra da həm tariximiz, problemlərimiz, işğalda olan torpaqlarımız, həm də dünya siyasəti, beynəlxalq hüquq,istilaçı dövlətlərin apardığı məkrli siyasət və digər mövzularda mətbuatda, televiziyalarda çıxışlar etmişdir. Onun yazmış olduğu "Mənim düşüncəm" adlı bu kitab maraqlı araşdırmalarla zəngin elmi-publisistik janrda yazılmış, qeyd olunan mövzulara aid əsaslı dəlillər-mənbələrlə işlənmiş, müəllifin öz şəxsi mülahizə və düşüncələri ilə zənginləşdirilmişdir. Türk millətinin zəngin tarixi köklərindən, indiki bir çox xalqların da kökünün türk millətindən olmasından, zaman-zaman xarici düşmənlərin bu millət arasında parçalanma yaratmasından, Sovet İttifaqı dövründə Azərbaycan xalqına qarşı icra edilmiş, misli görünməyən məxfi cinayətlərdən-əhalinin süni yolla mutasiya edilərək milli kimliyinin dəyişdirilməsindən, qonşu dövlətlərin ata-baba torpaqlarımızı hissə-hissə qəsb etməsindən, ən əsası isə bu yaşanmış və yaşanan problemlərdən çıxış yollarından bəhs edən "Mənim düşümcəm" kitabı həqiqətən də son zamanlarda az-az müraciət edilən vacib mövzuda yazılmışdır. Belə lazımlı mövzularda son zamanlar kitablar demək olar ki, yazılmır. Çünki bayağılıq və dayazlıq artır, elmə-fəlsəfəyə, milli dəyərlərə, dərin düşünənlərə dəyər verilmir, bu cür əsərlər öz layiqli qiymətini almır, nəticədə də belə mövzulara maraq azalır. Həmçinin səbrini basıb belə dəyərli araşdırmalar aparan, əziyyətə qatlanan, vətənə-xalqa dərindən-ürəkdən canı yanan ziyalılarımız da artıq yox dərəcəsindədir. Vüqar Dadaşovun bu araşdırması zamanın tələbi baxımından da, həqiqi, qərəzdən, subyektivlikdən kənar, əsaslandırılmış olması sarıdan da, gələcək nəsillərin əsl həqiqətlərdən halı olması yönündən də müsbət dəyərləndirilməlidir. Müəllif kifayət qədər araşdırma aparmış, hədəfinə götürdüyü mövzuları milli və xarici ədəbiyyatdan, mənbələrdən incələmiş, istifadə etdiyi mənbələri də mətn daxilində qeyd etmişdir. Öz

fikirlərini əsaslandırmaq üçün lazımi elmi vasitələrdən istifadə etmişdir. Hərtərəfli, çoxşaxəli mövzular və hadisələr haqqında oxucu üçün təəccüb doğuracaq yeni fikirlər də mətndə mövcuddur. Lakin müəllif bu kimi hissələri tarixi mənbə və özünə məxsus hüquqi faktlarla əsaslandırır... Mətn müəllifin nisbətən fərqli və özünəməxsus yazı üslubu ilə işlənib, yalnız müəllifə məxsus olan "qiymə-demokratiya" kimi terminlərlə yazılıb, redaktə zamanı da müəllifin öz üslubu, məna-məfhumun itməməsi naminə qorunub-saxlanmağa çalışılmışdır. Ermənilərin mənfur xisləti, türk millətinə qarşı tarixən törətdikləri cinayətlər silsilə şəklində, xronoloji ardıcıllıqla sadalanmış, o təcavüzlərin səbəbi, mahiyyəti araşdırılmış, siyasi cəhətdən qiymətləndirilmiş, hüquqi məsuliyyəti izah edilmişdir. Ümumiyyətlə, kitabda bəhs olunan çoxşaxəli, maraqlı mövzuları oxuyaraq qiymət verməyi dəyərli oxuculara həvalə etməyi daha uyğun sayıram. Sovet istilası səbəbi ilə, əsl tariximizdən, arxiv həqiqətlərindən uzaq salınaraq yanlış məlumatlanmış yaşlı nəslin və hazırki bayağı, dayaz mühit nəticəsində belə vacib bilgilərdən uzaq salınmış gənc nəslin səhih, sabitqədəm şəkildə maariflənməsində əvəzsiz rol oynayacağı ümidi ilə əsəri təqdirəlayiq hesab edirəm. Müəllifə də bu cür gərəkli mövzuların araşdırılmasında uğurlar arzulayıram.

**Tural İRFAN**

**Yazıçı-publisist: Azərbaycan Yazıçılar, Jurnalistlər, Aşıqlar Birliyinin, "Dünya Gənc Türk Yazarlar Birliyi"nin Məsləhət Şurasının, Ziyalılar Klubunun İH-nin üzvü, Prezident təqaüdçüsü**

"Ziyalı, nə təhsil səviyyəsi nə də tutulan
mövqe deyil, ziyalı düşüncə tərzidir."
**Vüqar Dadaşov**

# 1-ci fəsil
# İnsan və siyasət

## İlk ibtidai cəmiyyətlərdə dövlət anlayışı

İlk insan cəmiyyətinin quruluşundan başlayaraq hər bir qrupun idarə edilməsi təbii proses şəklində baş verən təbii və texnogen hadisələrdə qərar vermə qabiliyyətinin formalaşması idarə edənin və ya liderin meydana gəlməsi, məhz təbii dəyişikliklərin nəticəsi kimi qiymətləndirilməlidir. Eyni zamanda ibtidai insanın özünü müdafiə refleksi, qidalanması və cinsi tələbatı insan cəmiyyətlərində irarxiyanın formalaşmasına səbəbdir və bu birbaşa liderin yaranması və buna ehtiyacın olması idi. Təbii ki, ilk insan cəmiyyətində bərabər bölgü və irarxiya bölgüsü həmin qrupun inkişafına və daha geniş əraziyə malik olmasına səbəb olan prosesdir. Həmin ərazilərə nəzarət funksiyasının bölüşdürülməsi ilk dövlət anlayışının ibtidai əlamətidir.

# Hər bir dövlət-idarə üsulu, insan azadlıqlarını məhdudlaşdıran sistemdir

Ümumilikdə cəmiyyətin davranış qaydalarının və münasibətlərinin sərhədlərini müəyyən edən quruluş sistemlərini bütövlükdə teorik olsa da diktatura adlandırmaq olar.

Nəzərimcə diktatura, dövlət idarə üsulunun hər hansı forması kimi mövcud hakimiyyətin həm cəmiyyətdə həm də məişətdə davranış qaydalarını müəyyən etməklə, insanın hərəkətlərinə sərhəd, təbliğat və informasiya şəklində insan düşüncəsinə və onun nəyi necə anlamasına istiqamət verən hər hansı bir idarə üsuludur. Hər bir idarə üsulu müəyyən bir qrup idarəedici şəxslərin qəbul və tətbiq etdiyi qaydalar insanları həmin qaydalara tabe olmaqla hərəkət və düşüncələrinə məhdudiyyət yaradır.

Mükəmməl insan azadlığı olan cəmiyyət əlbət ki, ilk ibtidai insan quruluşunun tərkib hissəsi olub və həmin ibtidai insan cəmiyyətləri yaranmış adət, ənənə, əxlaq anlayışları ilə idarə olunurdu. Belə bir cəmiyyətdə hər bir fərd adət, ənənə, əxlaq hissi daxilində özü-özünə idarəçi idi. Fərdi qayda pozuntusu isə mövcud adət, ənənə və əxlaq çərçivəsində cəzalanır və bu cəza təbii qəbul edilirdi. İnsan cəmiyyətinin inkişafı ilk dövlətçilik əlamətlərinin yaranması ilə müşahidə olunan proseslər fonunda qaydalar müəyyən olunurdu. Həmin qaydalar adətən tək idarəçinin(liderin) düşüncə tərzindən asılı olaraq anladığı kimi tətbiq etdiyi qaydalar idi. Həmin qaydaların ədalətli və yararlı olub olmamasından asılı olaraq, ilk insan cəmiyyətlərində parçalanmaların qarşısını almaq məqsədi ilə artıq tək idarəçidən deyil, bir neçə nəfərdən ibarət şura təşkil olunmağa başladı. Şura yəni birgə düşünmək adətinin formalaşması fərdin idarəsindən daha effektli olurdu. Əgər fikir versək müasir dövrümüzdə ədalətli və azad cəmiyyət əksər hallarda parlament üsullu idarə sistemli dövlətlərdir. Əslində parlament və bu tipli idarə usulu ibtidai insan cəmiyyətinin təbii inkişaf prosesində yaratdığı ən mükəmməl dövlət idarə üsuludur.

## Demokratiya və insan azadlığı məhz xalqların, millətlərin müxtəlifliyidir

Şəxsi düşüncəmə görə demokratiya və insan azadlığı məhz xalqların, millətlərin müxtəlifliyidir. Yəni, həmin xalqlar və millətlər özləri üçün adət-ənənə, dini inanc və məişətdə yaşayış tərzi müəyyən etməklə tarixi seçimlərini etmiş və bununla da özlərinin digərlərindən fərqləndirən əlamətlərini özlərində cəmləşdirməklə müxtəlif xalqlara və millətlərə çevrilməklə min illiklərə söykənən öz müstəqil seçimlərini etmişlər. Məhz buna görə də fərqli xalq və millətlərin  mental dəyərlərinə uyğun olan dövləti və dövlətinin idarə üsulu var.  Həmin fərqli millət və  xalqların  dövlətinin güclü olub olmamasından və idarə üsulundan asılı  olmayaraq həmin quruluş fərqli xalqın seçimidir və həmin seçimin digər xalqlar tərəfindən zorla və ya təbliğat vasitəsi ilə dəyişdirilməsi fərqli xalqların müstəqil seçiminə müdaxilədir və bu müdaxilə  perspektivdə hər iki tərəfə ancaq və ancaq  ziyanlıdır. Millətlərin və xalqların müxtəlifliyi və müxtəlifliyinə uyğun yaşam tərzi insan cəmiyyətinin tarixi seçimi deyilsə bəs nədir?! Hesab edirəm ki, digər xalqların dövlət idarə üsuluna müdaxilə etmək, yabançı yaşayış tərzini zorla tətbiq etmək nəticə etibarı ilə bütün xalqlar üçün təhlükəlidir.

Xalqların demokratik azadlıqları onların adət ənənəsi, məişəti, dini, mental dəyərləri və onların özünə məxsus quruluş və idarə sisteminin olmasıdır.

Belə müdaxilə ilk növbədə siyasi idarəçiliyi pozur, nəticədə ictimai və sosial gərginlik genişlənir, insan miqrasiyası sürətlənir, etnik və dini zəmində qarşıdurma yaranır. Miqrasiya nəticəsində xalqların genetik tərkibi dəyişir, xalqlar arasında assimilyasiya baş verir, nəticə etibarı ilə xalqların tarixdən silinməsi prosesi sürətlənir.

Təbii olaraq bir xalq və bir mədəniyyət başqa xalqı və mədəniyyəti udaraq məhv edir. Odur ki, digər xalqların və dövlətlərin daxili işlərinə müdaxilə etmək, siyasi sistemi dəyişmək cəhdi "yabançı demokratiya"nın zorla tətbiqi bütövlükdə insan sivilizasiyasına zərbədir.

## İnqilab və ya müharibə

İslamın sürətlə yayılması və əsasən də qoca qitənin islamlaşması prosesini dayandırmaq məqsədi ilə dünya xristian dövlətlərinin gizli razılaşmasına səbəb olub. Əfqanıstanda, İraqda, Əlcəzairdə, Suriyada, Yəməndə, Misirdə, Somalidə və sair islam ölkələrində baş verən vətəndaş qarşıdurmaları daxili proseslərin nəticəsi deyil və süni yaradılmış idarə olunan xaosdur. Bildiyimiz kimi "xaos"un özünün də parametrləri və prosessual qaydaları var, bu parametrlər prosesə xaos görünüşü verir. Xaosun yaranmasında əsasən istifadə olunan vasitə isə böhran və ya sosial problemin süni şişirdilməsinin və demokratiyanın tərkib hissələrindən hesab olunan azad toplaşmanın simbiozunun aqressiv şəkildə istifadəsidir. Xaosu inqilab adlandırmaq olar ancaq, tam şəkildə yox! Xaos dağıdıcı və silahlı qarşıdurma əlamətlərinə görə əsasən "üsyan" kimi xarakterizə oluna bilər. Məsələ ondadır ki, xaos nəticəsində hakimiyyət və sistem dəyişikliyi baş verir və bu dəyişiklik xalq gücünə baş verir-bu eyni zamanda da inqilabdır. İnqilabın əsas nəticələrindən biri də budur ki, inqilaba liderlik edən şəxslər adətən yeni hakimiyyətdə təmsil olunmur və ya qısa müddətli təmsil olunurlar. İnqilab, onu inqilab edənləri məhv edir. Belə bir deyim də var: inqilab öz balalarını yeyir. İnqilab-zorakı ictimai çevriliş, dövlət hakimiyyətinin hakim sinfindən başqa sinfin əlinə keçməsi deməkdir. Əslində inqilab xaotik proses deyil.

"Ərəb baharı" kimi adlanan qanlı hadisələri ümumi nəticəsinə görə islam dünyasında, yaxın şərqdə inqilab deyil, "vətəndaş müharibəsi" adı ilə "kollektiv qərb"in apardığı müharibə adlandırmaq lazımdır. Qərb yeni olmayan, ancaq yeni qaydalarla yerli xalqın sosial narazılıqlarını bir silah kimi özünə qarşı istifadə etdi. Ərəb dünyası bu bəlaya 2011-ci ildə Tunisdə ölkənin prezidentinin istefasına gətirən proseslə başladı, sonra proses digər qonşu ərəb ölkələrinə keçdi. Sözsüz ki, ərəb dünyasında yaranmış sosial narazılıqlardan "kollektiv qərb" məharətlə istifadə etdi. "Ərəb baharı"na düçar ölkələrin dövlət idarə etmə sistemi və bütün infrastrukturu, ən başlıcası isə əhalisi məhv edildi. İlkin hesablamalara görə "ərəb baharı" adlanan proseslərdə yerli əhalidən 100000 dən çox insan məhv olub. Bu prosesdən udan ancaq qərb oldu, ərəb dövlətləri faktiki suverenliyini, milli mədəniyyət abidələrini, tarixi izlərini, iqtisadiyyatını, infrastrukturunu və əhalisini itirdi. Ərəb baharı kimi yaddaşlara və tarixə düşən prosesin ən ağır tərəfi mənəvi tərəfdir: artıq müsəlman müsəlmanın qardaşı yox-düşmənidir, artıq hər kəsin özünün "şəxsi islamı" var. "Kollektiv qərb" , "ərəb baharı" ilə ərəb dünyasının və islamın ruhunu dağıtdı, mənimsədi.

Bununla "kollektiv qərb" böyük planın bir hissəsini həyata keçirərək, yaxın şərqdə ərəb ölkələrinin dövlətçiliyini və milli kimliyini məhv edərək, hər zaman təkrarlana biləcək qırğınlar üçün toxum, xarici hərbi müdaxilə üçün əsas yaratdı. Fikrimcə, "ərəb baharı" prosesi inqilab deyil, əsl həqiqətdə bu, qərb sivilizasiyasının islam dünyası üzərinə təcavüzü və soyqırımıdır.

## Qərb demokratiyası

Demokratiya bir siyasi sistem və elm kimi konkret sərhədlər müəyyən edə bilməz. Hər bir xalqın özünə məxsus demokratiya anlayışı var  və həmin demokratiya anlayışı, qərb modelindən fərqli yerli xalqların mental dəyərlərinə, tarixinə, dini inancına və məişətinə uyğun formalaşmalıdır. Qərb demokratiyası bir standart kimi məsələn,  islam dünyası üçün qəbul edilməsi mümkünsüzdür. Xüsusi ilə vurğulamaq istəyirəm ki,"qərb demokratiyası" qərb mədəniyyətinin siyasi nümunəsidir. Qərb mədəniyyəti dinindən, ailə və məişət həyat tərzindən,  dövlət və dövlətçilik anlayışından qaynaqlanan özünə məxsus forma almış qərb sivilizasiyasının tərkib hissəsidir. Ona görə də  "qərb demokratiyası" islam dəyərlərinə zidd olduğu üçün islam sivilizasiyasının dövlət idarə sisteminə və cəmiyyətinə qəbul edilmir. Qərbin zorla Əfqanıstana, Misirə, Suriyaya, İraqa, Əlcəzairə, Liviyaya və sair islam ölkələrinə tətbiq etmək istədiyi "qərb demokratiyası" əks effekt verir.

Artıq qeyd etdiyim kimi,  demokratiya və insan azadlığı məhz xalqların, millətlərin müxtəlifliyidir. Bu müxtəlifliyin zorla eyniləşdirilməsi təbii və ağrısız keçə bilməz, deqradasiya, özünü məhv etmə, assimilyasiya kimi ağır nəticələr verə bilər. Əslində qərb modelli demokratiyanın zorla və ya təbliğatla xalqlara qəbul etdirilməsinin elə əsl mahiyyəti budur.

Əminliklə demək olar ki,  qərb sivilizasiyası belə yersiz müdaxilələri məqsədyönlü  edir. Məqsəd, qərb sivilizasiyası "islamlaşma təhlükəsi" qarşısında özünü yaşatmaqdır...

## “Qiymə demokratiya”nın fəsadları

Keçmiş Sovetlər ittifaqı ölkələri müstəqillik əldə edəndən sonra demokratik inkişaf yolu tutsalar da bu istiqamətlə gözlənilən nəticələr əldə edə bilməyiblər. Baltik yanı dövlətlər istisna olmaqla keçmiş sovetlər birliyinin əksər dövlətlərində siyasi rejim faktiki olaraq müəyyənləşməyib, baxmayaraq ki, SSRİ dağıldıqdan sonra keçmiş bütün respublikalar öz müstəqilliyini demokratik əsaslar üzərində qurdular.

Əvvəlcə siyasi sistem haqqında bildiklərimizi xatırlatsaq yaxşı olar. Siyasi sistem onun əsasını təşkil edən fundamental prinsiplər üzərində qurulur. Elmi baxımdan siyasi sistemlər açıq, qapalı və yarıaçıq tiplərə bölünür.

Qısaca olaraq qeyd edim ki, qapalı siyasi sistemlər xarici mühitlə ünsiyyətə meylli deyil, digər xarici siyasi mədəniyyət və siyasi dəyərləri qəbul etmir və ancaq özünü daxili resursları hesabına təmin edən sistemdir.

Açıq siyasi sistemlər, həm daxili dəyərlərə, həm digər ictimai və siyasi dəyərlərlə əlaqəli, mübadiləli, siyasi və ictimai proqressiv sistemdir.

Yarımaçıq sistemlər qəbul etdiyi bütün siyasi qərarlar xarici mühitlə əlaqəsiz qurulsa da, daxili, siyasi, milli iqtisadi faydalı qərarlar qəbul edilir və cəmiyyətə elan olunur.

Siyasi sistemlər əsasən 3 tipə bölünür: avtoritar, totalitar və demokratik.

Avtoritar rejim- hakimiyyətin özünün hakimiyyətə haqqı olduğunu elan etdiyi bir hakimiyyət formasıdır. Belə bir hakimiyyət güc və qorxu üzərində qurulmuş və hakimiyyət səlahiyyətinin bölüşdürülmədiyi hakimiyyətdir. Ən vacib göstəricisi isə əhalidən hakimiyyətə iddialı olanın hakimiyyətə gəlmək mexanizminin olmamasıdır.

Totalitar rejim- dövlətin cəmiyyətin bütün sahələrinə tam nəzarət etməsini istəyən siyasi bir rejimdir. Vətəndaşların həyatına və onların fəaliyyətinə güclü dövlət nəzarəti və müdaxiləsi totalitar rejimin ayrılmaz tərkib hissəsidir.

Demokratiya isə, ümumxalq hakimiyyəti ilə idarə olunan, hakimiyyət səlahiyyətləri bölüşdürülmüş, insanların hüquq və azadlıqları tam təmin edilmiş bir siyasi sistemdir.

Bəli, keçmiş sovet respublikalarının indiki idarə sistemi və institutları demokratik prinsipləri özündə əks etdirir və belə bir görüntü yaradır. Ancaq ki, faktiki olaraq avtoritar və totalitar rejimlə idarə olunur. Maraqlısı isə odur ki, bu dövlətlərdə idarə etmədə və siyasi sistemdə hər üç rejimin avtoritar, totalitar və demokratiya əlamətləri qabarıq şəkildə özünü büruzə verir. Demokratiyanın əsas amilləri və göstəriciləri olan azad seçki, azad söz, bazar iqtisadiyyatı olan bir cəmiyyətdə avtoritar, totalitar rejim uyğunlaşaraq unikal bir sistem yaranıb, azad seçki-ömürlük seçilmiş rəhbərlər, azad söz-ömürlük seçilmişlərin təbliği, bazar iqtisadiyyatı-iqtisadiyyatın rəhbər ailələrin əlində cəmləşməsi və monopoliyası. Həqiqətən unikal siyasi rejim müşahidə olunur, bəziləri bunu keçid dövrünün əlamətləri adlandırır, mən isə bunu “qiymə demokratiya” kimi dəyərləndirirəm. Keçmiş sovetlər birliyinin Baltikyanı Latviya, Litviya və Estoniya dövlətləri qısa bir müddətdə avtoritar və totalitar rejimdən yaxalarını qurtara bildilər.

Əslində məni, məsələnin siyasi tərəfi deyil, məhz mənəvi və psixoloji tərəfi daha çox narahat edir. Daha doğrusu, bu üç Baltikyanı dövlətin və xalqların qərb sivilizasiyasının nümayəndələri olması fikrimcə suala cavabın elə özüdür. Yəni bu xalqların milli mental dəyərləri, məişət yaşayış tərzləri, ən əsası isə düşüncə tərzi imkan verdi ki, bu xalqlar öz dövlətlərində demokratiya qursunlar. Ümumiyyətlə, dəfələrlə qeyd etmişəm ki, hər

bir xalqın öz inkişaf yolu, qəbul etdiyi demokratiya anlayışı var və qərb demokratiyası kimi tanıdığımız demokratiya anlayışı hər bir xalq tərəfindən qəbul edilə bilməz. Məhz buna görə də dövrümüzdə müşahidə etdiyimiz "qiymə demokratiya" əslində xalqların qərb modelli demokratiyanı qəbul etməməsinin sübutudur. Əlbəttə ki, bu şəraitdə qərb modelli demokratiyanın süni şəkildə yaşamasına çalışmaq nəticədə "qiymə demokratiya" ilə nəticələnməli idi.

Bu məsələnin görünən tərəfidir, görünməyən tərəf isə odur ki, qərb modelli demokratiyanın yaşadığı görüntüsünü yaratmaq üçün xalqların milli, mənəvi, əxlaqi dəyərlərinə məcburən xələl gətirilir. Bununla da xalq əsrlərlə qoruyub saxladığı dəyərlərdən və özü özündən uzaqlaşır. Sözsüz, hakim klan "demokratik və leqal hakimiyyətini" davam etdirmək üçün "səhnə demokratik oyunlar" aparmalıdı, bunun üçün hakimiyyət "səhnə demokratik oyunlarına" müxtəlif vasitələrlə xalqın özünü cəlb edir (seçki, təbliğat). Müəyyən müddətdən sonra bu proses adiləşir, qəbul edilən bir anlayışa çevrilir və prosesin ən təhlükəli tərəfi də məhz budur-xalqın mənəvi cəhətdən məhv olması.

Qərb demokratiyasının zorla yeridilməsi nəticəsində yaranmış "Qiymə demokratiya"nın keçmiş sovetlər ittifaqı dövlətlərinə bəxş etdiyi mənfi siyasi, iqtisadi, ictimai nəticələrdən ən təhlükəlisi xalqların milli mənəviyyatının məhv edilməsidir. Yalan və riyakarlığın təbii qəbul edilməsi artıq xalqların məhv olmaqda olan milli mənəviyyatının sübutudur.

Ancaq, bu da o demək deyil ki, postsovet respublikalarına demokratiya anlayışı yaddır, söhbət məhz qərb modelli demokratiyadan gedir. Fikrimcə hər bir xalqın öz mental dəyərlərini, adət ənənələrini, dini və milli identikliyini özündə cəmləşdirən və nəticə etibarı ilə xalqın düşüncə tərzinə uyğun olan özünə məxsus demokratiya modeli olmalıdır.

## Yalan və riyakarlıq xalqın izni ilə yaşayır

Həqiqət budur ki, cəmiyyətimizdə yalan, riyakarlıq adi bir hala çevrilib. Dəhşətlisi odur ki, yalan və riyakarlıq hakimiyyətin, məmurların özünü qoruma mexanizminə çevrilib və bu bir alət kimi özünü təsdiqləyib. Ziqmund Freydə görə mədəni riyakarlıq cəmiyyətin özünə inamsızlığının, özünün sadiqliyinin davamlı görünüşünü saxlamaq hissinin təzahürü kimi cəmiyyətin xüsusi bir halıdır. Əlbəttə ki, riyakarlıq özünü daha çox qapalı cəmiyyətdə göstərir. Siyasi baxımdan riyakarlıq qapalı cəmiyyətin xüsusi halı kimi irarxiya sistemində mövcud olma hissinə xidmət edən mənfi mənəvi hissdir.

İqor Kona görə də "riyakarlıq-mənfi mənəvi xüsusiyyətdir..." Sözsüz ki riyakarlıq əxlaqsızlıq, mənəviyyatsızlıq qaranlıq məqsədə xidmət edən göstəricidir.

Bütün aparıcı dinlərdə olduğu kimi islam dinində riyakarlıq ən böyük günah sayılır, hətta, Allaha inamsızlıqdan da artıq günahdır və riyakarlar cəhənnəmin ən əzablı alt qatında cəzalanacaqlar. İslamda riyakarlığın geniş izahı verilib, riyakarlığı nifaq, riyakarları isə münafiq adlandırırlar.

Əlbəttə ki, siyasətdə yalan, yaltaqlıq, riyakarlıq dünyanın hər yerində mövcud haldır. Yalan o cəmiyyətdə mövcuddur ki, həmin yalana güzəşt edilir və həmin yalan unudulur. Siyasəti yalansız hesab etmək sadəlövhlükdür. Ancaq ki, elə siyasətçilər olub ki, nə xalqı nə də hakim elitanı aldatmayıb, məsələn, İngiltərənin sabiq baş naziri Çörçil.

Yalançı və riyakarlar qorxaq hissli, satqın təbiətli, acgöz xüsusiyyətli insanlara xas əsas əlamətdir. Belə "insanlar" hər şeyi hər yerdə, hər kəsi hər zaman qurban verməyə hazırdırlar və bununla da əxlaqsız mənəviyyatsız insanların ən qorxulusudurlar. Riyakarlığı, yalanı sədaqət göstəricisi kimi qəbul edənlər

riyakarların qurbanlığına çevriləcək. Bu tarixi aksiomadır. Yalana, yaltaqlığa, riyakarlığa göz yummaq cəmiyyətin axır nəticədə əxlaqsızlığı, mənəviyyatsızlığı ilə razılaşmaq deməkdir.

İctimai qınağı və reaksiyası olmayan cəmiyyət məmur cəzasızlığının əsasında durur və bu hal idarə edənin daha da özbaşınalığına, azğınlığına səbəb olur. Yəni ki, idarə olunan, idarə edənə verdiyi "səlahiyyətlər" çərçivəsində alçalmalara məruz qalır.

Bütün münasibətlərdə olduğu kimi eyni hal hakimiyyətə də aiddir. Səlahiyyət və məsuliyyət anlamları idarə etmə sistemini tarazlaşdırır. Əgər bu qarşılıqlıların tarazlığı pozulursa dövlət xalq vəhdəti pozulur, xalqın dövlətə inamsızlığı yaranır, dövlətçilik zəifləyir, ictimai sabitlik pozulur, sosial gərginlik yaranır və artır. Nəticədə hakimiyyət zəifləyir və yalan danışmaqla öz mövqeyini qorumaq istəyir.

Ümumiyyətlə, hakimiyyət iki halda yalan danışır. 1: hakimiyyət o halda yalan danışır, hansı ki, xalqı özünə yaxın, dost saymır və yalanlarla xalqı azdırmağa çalışır. 2: hakimiyyət xalqı axmaq və ağılsız hesab edəndə. Hər iki hal cəmiyyətin idarə olunmasına, mövqeyinin qorunub saxlanılmasına hesablanıb və görünən də odur ki, hər iki halda da yalana, riyakarlığa göz yuman xalq nəticədə həm təqsirli həm də zərərçəkəndir.

## Qloballaşma-dövlətləri məhv edəcək, dünya hegemonluğunu yaradacaq

İnkişaf etmiş ölkələr əsasən də ABŞ, Almaniya, Yaponiya, Fransa, Böyük Britaniya dünyanın qloballaşmasında xüsusən maraqlıdır. Ümumiyyətlə qloballaşma nədir?

Qloballaşma ümumi, vahid xüsusiyyətə malik bütün dünyanın ümumi bir sistemlə idarə olunmasıdır. Bu proses milli xüsu-

siyyətlərə malik ölkələrin iqtisadi, sosial, mədəni normalarının, adət-ənənələrinin yaxınlaşması, birləşməsi və qarışmasıdır. Əlbəttə ki, qloballaşma subyektiv və idarə olunan prosesdir. Bu prosesi heç bir halda təbii adlandırmaq olmaz. Qloballaşma əslində dövrümüzün bir siyasi vasitəsi kim başqa ölkələri "zəbt etmək", iqtisadi və siyasi dünya hökmranlığına hesablanmış və həyata keçməkdə olan ideyadır. Bu məqsəd üçün yaradılmış Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı (DB), Transmilli Kompaniya (TMK), Ümumdünya Ticarət Təşkilatı (UTT) və bu kimi beynəlxalq təşkilatlar əsl həqiqətdə başqa ölkələrin iqtisadi və siyasi suverenliyini məhv etməklə məşğuldur.

Amerika iqtisadçısı, Nobel mükafatı laureatı D. Stiqliç "Qloballaşma: Narahat tendensiyalar" kitabında qloballaşmanı dünya iqtisadiyyatı üçün ən əsası da kiçik dövlətlər üçün katastrofik nəticə olacağı barədə geniş bəhs edir. Rus alimi A. Çumakov qloballaşmanın nəticələri kimi xalqların öz milli dilindən imtina edəcəyini göstərir.

Həqiqətən qloballaşma dünya dövlətlərini və xalqlarını suverenliyindən məhrum edir, bu prosesdə ən çox itkiyə, təsirə məruz qalan kiçik dövlətlər, kiçik xalqlardır. Qloballaşma ABŞ-ın dirijorluğu ilə qərb inkişaf modelli dövlətlərin proqramı əsasında aparıldığı üçün, nəticə etibarı ilə böyük dövlətlərin kiçik dövlətləri "udması" ilə nəticələnməlidi. Böyük dövlətlər kiçik dövlətlərdən sosial, siyasi, iqtisadi, hərbi çağırışların təminat mənbəyi və şəxsi resursu kimi istifadə edir.

Qloballaşmanın ölkələrin iqtisadiyyatına və xalqlarına vurduğu zərər ölçüyə gəlməz dərəcədədir. Heç bir milli sərhəd tanımayan bu ideya tarixi prosesin məntiqini pozur. Qloballaşma milli dövlətləri həm iqtisadi, həm siyasi müstəqillikdən məhrum edir. Dövlətlərin yaranması insan cəmiyyətinin sıçrayışına

səbəb əsas prosesidir və hər bir xalqa siyasi xalq kimi dövlətinin olması vacib şərtdir. Məhz bu çərçivədə xalqlar öz milli, mədəni özünə məxsusluğunu qoruyub saxlaya bilər və sözsüz ki, ancaq müstəqil dövlət öz milli maraqlarını, identik özlüyünü, mədəniyyətini, dilini, mənəvi dəyərlərini adət-ənənəsini qorumaq, yaşatmaq iqtidarındadır. Müstəqil dövlət xalqların bəşər tarixində özünəməxsus yerini, tarixini, öz milliliyini, identik quruluşunu saxlamaq üçün yeganə imkandır.

Tanınmış ictimai siyasi xadim, politoloq, filosof, yazıçı A. Panarin "Qloballaşmanın cazibəsi" adlı kitabında qloballaşmanı "Qlobalistlərin səyləri ilə öz liberal ritoriklərinin əksinə normal rəqabət və tərəfdaşlıqda bölünmə prinsipi ilə bir iqtisadi və siyasi inhisar dünyası qurulur..." sözləri ilə xarakterizə etmişdir.

Professor K. Delokarov qloballaşmanı, təzadlı proses və güclülərin bu qloballaşmadan istifadə edərək dünya üzərində hegemonluğa nail olmaq istəyi kimi qiymətləndirmişdir. Əlbəttə qloballaşmanın əsl mahiyyəti və məqsədi dünya üzərində hegemonluqdur və o da məlumdur ki, qloballaşma açıq şəkildə sivilizasiyalar , xalqlar və dövlətlər arasında böhrana ən əsas səbəbdir.

Yeri gəlmişkən, ABŞ başda olmaqla qərb ölkələrinin islam ölkələrinə hərbi müdaxiləsinin ən əsas səbəbi iqtisadi resurslar, təbii ehtiyatlar və onların tranzitini nəzarətə götürməkdir. Bu hərbi müdaxilələr təhlükəsizlik və demokratiya adı ilə yerli dövlət və xalqların mənən məhvinə hesablanıb. Nəticə etibarı ilə hərbi müdaxilələrin əsl mahiyyəti qloballaşmaya və vahid hegemoniyaya nail olmaqdır. Liviyanın mərhum rəhbəri Muammar Kəddafi ölkəsini iqtisadi və sosial baxımdan inkişaf etdirməklə, Liviyanın hər baxımdan qərbdən asılılığını aradan qaldırmağa demək olar ki, tam nail olmuşdu, eyni zamanda da qloballaşmaya qarşı sərt mövqe tuturdu. Məhz bu səbəbə görə

Müəmmar Qəddafi və inkişaf yolunda olan Liviya məhv edildi. Suriya, İran və digər islam ölkələrinə də təzyiq və təhdidlər də bu qəbildəndir. Göründüyü kimi qərb ölkələri ABŞ başda olmaqla qloballaşmanı mümkün qeyri hərbi yolla bərabər, birbaşa hərbi müdaxilə ilə həyata keçirirlər. "Kollektiv qərb"in yaxın şərqdə islam ölkələri üzərində "ərəb baharı" adı ilə apardığı əməliyyat və hərbi təcavüz böyük "qloballaşma" planının tərkib hissəsidir.

"Ərəb baharı" adlanan əməliyyat həqiqətən qərb ölkələrinin təqdim etdiyi unikal bir forma kimi özündə milli, dini, informasiya, psixoloji, provokasiya, sosial, humanitar, demokratiya, hərbi təcavüz kimi elementləri birləşdirən bir əməliyyat idi. Əlbəttə ki, ərəb dünyası ona qarşı hazırlanmış məkrli plan qarşısında aciz idi. Bu, məsələnin müəyyən qədər elmi və siyasi tərəfidir.

Məsələnin mənəvi tərəfi daha acınacaqlı görünür. Qloballaşma insanların mənəviyyatına , əxlaqına, düşüncə tərzinə, etik normalarına bir başa təsir edir. Qloballaşma insanların qrup şəklində hər hansı bir ideya, ailə, qohumluq, etnik mənşə, dövlətçilik, inanc ətraflında birləşmə hissini məhv edir, insanlar fərdi rifah üçün yaşayaraq sözün əsl mənasında istehlakçıya çevrilirlər. Ümumi dəyərləri olmayan insan kütləsi təbii ki, qruplaşmaya, təşkilatlanmağa meylli ola bilməz və belə bir cəmiyyət daha doğrusu kütlə çox asanlıqla idarə olunacaq.

Məhz bu səbəbdən də qloballaşmanın əleyhdarları artmaqdadır. Əgər Azərbaycan bu qloballaşmanın qurbanı olmaq istəmirsə biz öz milli dövlətçilik ideyamıza sadiq qalmalı, onu qorumalı və suveren iqtisadiyyatımızı daxili resurslar hesabına təmin etməliyik. Ölkəmizin BVF, DB, TMK, ÜTT kimi beynəlxalq qlobal təşkilatlarla əlaqələrdə mümkün qədər distansiya saxlaması iqtisadi və siyasi maraqlarımızın təmin edilməsidi.

## 2-ci fəsil
## İslam və cəmiyyət

### İslamın mahiyyəti

İslam VII əsrin əvvəllərində, təqribən 610-cu ildə Qərbi Ərəbistanda Allah tərəfindən bir din olaraq insanların hidayəti üçün göndərilib. İslamın peyğəmbəri və təbliğatçısı bütün müsəlmanlar tərəfindən Allahın sonuncu elçisi kimi qəbul olunan qüreyşilər qəbiləsi, haşimilər tayfasının nümayəndəsi Məhəmməd peyğəmbərdir. İslam kəlməsi "sülh", "Allaha boyun əymək, itaət etmək" və ya "təslimolma" mənasındadır. İslamın əsas ehkamı "töhvid", "nübuvvət" və "məad"dır.

Töhvid-Allahı ibadətə layiq olan yeganə haqq məbud bilməkdir.

Nübuvvət- sonuncusu Məhəmməd peyğəmbər olmaqla 124 000 peyğəmbərin Allah tərəfindən insanları haqqa dəvət etmək üçün seçdiyinə, eləcə də mələklərə və onların peyğəmbərlərə gətirdiyi vəhyə və bu kitablara iman gətirməkdir. İslamın şiə məzhəbinə görə hər bir peyğəmbər kimi, Məhəmməd peyğəmbər üçün də Allah tərəfindən təyin olunan canişinlərin - 12 imamın haqq olduğuna iman gətirilməlidir.

Məad – hər bir insanın dünyasını dəyişməsinə və qiyamət günü dirildilərək Allah qarşısında hesab verməsinə iman gətirmək.

Quran isə İslam dininin müqəddəs və ən əsas kitabıdır. Quran eyni zamanda "Qurani-Kərim, Qurani-Şərif" kimi də təqdim olunur. "Quran" kəliməsinin mənası oxumaq, qiraət etmək deməkdir. Quran "Fatihə surəsi" ilə başlayıb "Nas surəsi" ilə bitir. Quran ərəbcə nazil olunmuşdur. Quranın ərəb-dilində nazil olunması Qurani-Kərimin təxminən 50 ayəsində öz əksini

tapmışdır: "Ərəbcə olan Quran" kəlməsi 7 yerdə; "Ərəb dilində" - kəlməsi 42 yerdə; "Ərəbcə hökm" - kəlməsi isə bir dəfə gəlmişdir ki, hamısının mənası Quranın ərəbcə nazil olunduğunu bildirir.

**"Biz hər bir peyğəmbəri yalnız öz qövmünün dilində göndərdik ki, onlara (həqiqətləri) bəyan etsin"**. ("İbrahim" surəsi, ayə 4).

Odur ki, Quran ərəb dilində nazil olması Peyğəmbər (s) və onun qövmü ərəb olduğuna görə, təbii bir haldır.

**Həqiqətən, biz onu ərəbcə bir Quran (oxunan və ərəb dilində olan kəlmələr) şəklində nazil etdik ki, bəlkə, (onun uca maarifi barəsində) düşünəsiniz və dərk edəsiniz.**

("Yusif" surəsi, ayə 2).

**Bunu (Quranı, yuxarı aləmdə tənzimləməklə) sənin dilində yalnız ona görə asanlaşdırdıq ki, onun vasitəsilə təqvalılara müjdə verəsən və inadkar düşmənləri qorxudasan.**

("Məryəm" surəsi, ayə 97)

Bu mənada "asanlaşdırmaq" ki, Quran əvvəlki vəziyyətindən xəbər verir. Belə ki, "Zuxruf" surəsinin 3-4-cü ayələrində xəbər verildiyi kimi, Quran "Lövhi-Məhfuz"da olduğu zaman bəşər övladı üçün oxunmaz və başa düşülməz olaraq saxlanılmışdır.

Göründüyü kimi Quranın ərəb dilində Məhəmməd peyğəmbərin tayfasının dialektində nazil olması bir daha sübut edir ki, İslam dini ərəblərin hidayəti üçün Allah tərəfindən nazil olmuşdur. İslamın belə geniş yayılma səbəbi isə təkcə təbii proses deyil, məhz silah gücü ilə, hərb yolu ilə yayılmasıdır. Daha doğrusu digər əksər xalqlar islamı könüllü deyil məhz zorla qəbul etmişlər. Bu səbəbdən də islam müxtəlif ölkələrdə və xalqlarda yerli dinin, adət ənənəsi ilə simbioz şəkildə formalaşmış və deformasiyaya uğramışdır. Bir nümunə: Azərbaycanda islamla birlikdə

zərdüşt dininin, atəşpərəstliyin atributlarını özündə cəmləşdirməklə əslində bununla millətimiz milli kimliyimizi, irsimizi saxlamağa cəhd etmişdir və nəticədə fərqli baxışlı islam modeli formalaşmışdır. Qeyd edilən hal islamı zorla qəbul etmiş xalqlar üçün xarakterikdir. Məhz buna görə də indiyə kimi islam dünyasını müharibələr, daxili çəkişmələr, konfliktlər ağuşuna almışdır. İraq, Suriya, Əlcəzair, Fələstin, Yəmən, Əfqanıstan, Pakistan, Somali o cümlədən Afrika qitəsinin digər müsəlman ölkələri və sair, ancaq müxtəlif siyasi bəhanələrlə özlərinin məhv etməkdədirlər. Müsəlman ölkələrinin əksəriyyətində müxtəlif islam dini cərəyanları bir birlərini dinsizlikdə ittiham etməklə bir birlərinə qənim kəsilməklə nəticədə kütləvi qırğınlar törədirlər. Bəzi "siyasətçilər", "dinşünaslar" bunun səbəbini qərb ölkələrinin müdaxiləsi ilə izah edirlər. O halda əsaslı bir sual ortaya çıxır. Bəs onda müsəlmanlar əgər həqiqi müsəlmandırlarsa niyə qərbin fitnə fəsadlarına uyurlar? Deməli Allaha, islama qəlbən bağlı deyillər ki, "şeytan" onlara hakim ola bilir. Yeri düşmüşkən qeyd edim ki, dahi Mirzə Ələkbər Sabirin "Qərbə getdim, müsəlman görmədim İslam gördüm , şərqə getdim müsəlman gördüm , islam görmədim" fikirləri indiki dövrümüzdə daha aktualdır.

## Allah sözü

Allah sözü ərəb mənşəli iki söz birləşməsindən yəni, "əl" və "illah" sözlərinin birləşməsindən yaranıb. "Əl" sözünün mənası "bəlli" deməkdir. "İllah" sözü isə misir ərəblərindən gəlmiş sözdür, qədim Misirdə hələ islamdan qat-qat öncə Aya sitayiş edənlər onu "hilal" adlandırırmışlar. Misir ərəb təqvimində məhz ay dövriyyəsinə uyğun olaraq təşkil edilmişdir.

Odur ki Allah sözü islamdan qat qat əvvəl işlədilib. Allah sözünün ərəb dilindən tam məna tərcüməsi bəlli olan tək ilahi

deməkdir. İslam peyğəmbəri Məhəmməd Peyğəmbərin atasının adı Abdullah idi, göründüyü kimi, Allah sözü ərəblərdə islamdan öncə istifadə olunmuş və belə söz birləşmələri “ Seyfulla”, “Qeybulla” ərəblərdə isim adlar kimi geniş yayılmışdı.

## Dini radikalizmin islamla bağlılığı yoxdur

Ümumiyyətlə “radikalizm” bir termin kimi “kəskin mövqe və ya barışmaz mövqe” mənası verir. Radikalizm müəyyən bir hədəfə çatmaq üçün başqalarının hüquqlarına hörmət göstərməyən; başqalarının hüquqlarını pozmaq bahasına məqsədə çatma fəaliyyətinə deyilir. Dini radikalizm də bu mənada, özündən olmayan dini qruplara qarşı, cəmiyyətə qarşı digər din nümayəndələrinə qarşı barışmaz mövqe göstərməklə, başqalarına qarşı fiziki və ya mənəvi güc tətbiq edən fəaliyyət növüdür. Radikalizm-ağlın, düşüncənin, şüurumuzun işğalıdır.

Birmənalı olaraq radikalizmi İslam dini ilə əlaqələndirmək olmaz. Radikalizm dünyanın əsas aparıcı dinlərində, yəni xristianlıqda, buddizmdə islam tarixindən qat-qat əvvəl yaranmışdır. Dünyanın əsas aparıcı ənənəvi sayılan dinlərindən biri olan xristian dininin inkişaf tarixini qısa da olsa təhlil etsək görərik ki, xristianlıqda dövlət səviyyəsində hələ 316-cı ildən başlayaraq Roma imperiyasının imperatoru 1-ci Konstantin donatizm (imperiya hakimiyyəti ilə kilsənin əlaqəsinə görə kilsə ayrılığı-kilsənin parçalanması) dini hərəkatın nümayəndələrini təqib etməklə mülkiyyətini alaraq xristian din nümayəndələrinə verilməsi barədə qərar vermişdi.

Sonra isə Roma imperiyasında 382-ci ildən başlayaraq digər din nümayəndələrinə qarşı ölüm cəzasının tətbiqinə başlanılıb. Sasani dövlətinin indiki İraq ərazisində yaranmış monarxizm (zoraastrizm-buddizm-xristian dini inancının simbioz

şəklinin təlimi) dini hərəkatına qarşı radikal mövqe sərgilənirdi. Hətta xristian yazıçı-Prisçiliana dini baxışlarına görə İmperator Maksimin gözü qarşısında işgəncə ilə edam edilmişdi.

XII əsrdən başlayaraq Katolik kilsələrinin dini təqibləri gücləndi. Katolik Lateran kilsələrin 3 dekreti ilə başqa din nümayəndələrinə əsasən də eretiklərə (hər hansı bir dini təlimləri qəbul etməyənlər) qarşı inkvizisiya (dini məhkəmə) və cəza tədbirləri genişləndi. İnkvizisiyanı Alman imperatoru II-ci Fridrix, Fransız imperatoru VIII-Lüdovik dövlət səviyyəsində qəbul edərək, ocaqda yandırılma praktikası tətbiq olunmağa başlandı. İspaniyada isə inkvizisiya görünməz həddə çatdı, hətta insanlar bir-biri ilə bir başa ünsiyyətdən yayınmağa və İspaniyanı tərk etməyə başladılar. 1492-ci ildə mart ayının 31-də İspan Karolu Ferdinand qəbul etdiyi "Alham dekreti" adlı qanun əsasında 40 min yəhudi İspaniyadan çıxarıldı.

1493-cü ildə manax Tomas Torkvemada bütün İspaniyanın baş inkvizitoru təyin edildikdən sonra ölkə ərazisində təşkil edilmiş dini məhkəmələr kütləvi şəkildə dəhşətli dərəcədə edamlar təşkil etməyə başlamışdılar. Təkcə katolik Torkvemada tərəfindən 2000-dən çox müsəlman və yəhudilər ocaqda diri-diri yandırılmışdır. İnkvizisiyanın məqsədi "Konversos" yəni İspaniyanı tam və təkcə katolik inanclı insanların vətəninə çevirmək idi.

Pravoslav kilsəsi "Malakanlar" adlı dini hərəkatının nümayəndələrinin elə Rusiyadan Şimali Azərbaycana köçürülməsi dini radikalizmin təzahürüdür. Rus çarı 1-ci Nikalayın fərmanı əsasında Malakanlar (malakanları "staroverçı" (Köhnəinanclılar) kimi də adlandırırlar) 1830-cu ildən Rusiya ərazisindən çıxarılmağa başlanılmışdır.

Buddizm radikalizmi barədə də geniş tarixi mənbələr vardır. Qısa olaraq qeyd etmək lazımdır ki, ilk tarixi mənbələrə görə buddist missionerləri bütün dünyaya, o cümlədən Asiyaya I əs-

rdə cənubi Hindistandan yayılmağa başlayıblar. Buddizmin geniş yayılmış ərazilərdə buddist məbədlərin manaxlarından təşkil edilmiş müasir dillə desək xüsusi biliklərə yiyələnmiş qrupun üzvləri fərdi qaydada digər din nümayəndələrinin, aparıcı şəxslərin, din xadimlərinin öldürülməsi ilə məşğul olublar. Belə hadisələr Hindistan, Çin (indiyə kimi hələ də çin uyğurları başqa çin ərazilərində öz dini ayinlərini keçirə bilmirlər) ərazisində IV-VI əsrlərdə daha geniş yayılmışdı.

Dövrümüzdə isə 2012-ci ildən daha da geniş və kəskin şəkildə Birmada, indi Myanma adlanan ölkə də başda olmaqla müsəlmanlara qarşı-islama qarşı buddist manax Viratu tərəfindən Mandalay məbədində buddist manaxlarından təşkil edilmiş radikal, ekstremist və ölkənin ordusu və ordu rəhbərliyi tərəfindən bir başa dəstəklənən "969"hərəkatı yaradılmışdı. (969-yəni Buddanın 9-xasiyəti və ya keyfiyyəti, 6 elmi istiqaməti, 9-sanqhi keyfiyyəti).

Məsələ bundadır ki, Cənubi Asiya müsəlmanları 786 rəqəmlərindən geniş istifadə etdiyindən (bu rəqəmlərin mənası-əbcəd hesabı ilə Bismillahi-r-Rəhmani-r-Rəhim) buddistlər bu rəqəmlərin cəmi 21 olduğundan buddistlər hesab edirlər ki, guya Myanma (Birma) müsəlmanları XXI-əsrdə Birmanı tam müsəlmanlaşdırmaq, yəni Birmanı islam dövlətinə çevirmək niyyətindədirlər. Buddistlər bu əsassız iddialara (islamlaşma təhlükəsi) bu kimi təbliğatı ilə 969 hərəkatı müsəlmanlara qarşı qəti, radikal və barışmaz mövqe tutulması dövlət səviyyəsində dəstəklənməsinə nail olmuşlar. Amerikanın 1857-ci ildən çıxan nüfuzlu "The Atlantik" jurnalı hələ 2013-cü ildə 969-un hərəkatının faşist, millətçi, rasist başlıcası isə aparteid ideologiyası üzərində qurulmasını bəyan etmişdi. Birmənalı olaraq bu təşkilat hər bir vasitə ilə Myanmadan (Birmadan) İslamın silinməsinə yönəldilmiş terror təşkilatıdır.

Bu illərdə buddistlər tərəfindən müsəlmanların soyqırımı, radikalizmin kəskin forması olan terror, buddistlərin məqsədə çatmaq vasitəsidir.

Dünyanın əsas aparıcı ənənəvi dinlərinin: xristianlıqda, buddizmdə radikalizmin tarixi islam radikalizmindən qat-qat öncə yaranmışdır və radikalizmin islamla əlaqələndirilməsi antiislam təbliğatıdır və islamla heç bir elmi, mənəvi bağlılığı yoxdur.

## Ərəb milli geyimlərinin İslamla heç bir bağlılığı yoxdur

İslamın atributları kimi qəbul etdiyimiz həm geyim formasının, həm də sünnət və sair kimi tələblərin islamla heç bir bağlılığı yoxdur. Əvvəla geyim forması ilə bağlı Quran ayələrində konkret olaraq heç bir qadağa qoyulmayıb. İslam dininin yarandığı Ərəbistan yarımadasında coğrafi mühit və təbii şəraitə uyğun olaraq orada yaşayan əhali öz geyim formaları ilə iqlim şəraitinə uyğunlaşıb. Daha doğrusu həm qadın, həm kişi geyimləri forma etibarı ilə bir birlərini demək olar ki təkrarlayır. Həmin geyim formaları örtük və qapalı şəkildədir. Bu geyim formalarının yerli iqlim şəraitinə uyğunlaşdırılması əlbəttə təbiidir.

Ərəbistan yarımadasının çox sahəsi səhralıq, qumluq olduğundan bu ərazilərdə tez-tez qum fırtınaları baş verir, yerli əhali qapalı və örtüklü geyim formalarını məcburən iqlim şəraitinə uyğun olaraq istifadə etməli olur, yəni, geyimləri qum fırtınalarından qorunmağa uyğunlaşdırılıb. Həm qadın həm kişi geyimləri təbii fəlakətdən, iqlim şəraitindən qorunmaq məqsədi daşıyır və belə geyim formaları bütün Ərəbistan yarımadasında praktik istifadə olunur. İslama qədər dövrlərdə də Ərəbistan ya-

rımadasında yaşayan yerli əhali qeyd edilən geyim formasından istifadə edib. Odur ki, həmin geyim forması yerli əhalinin milli geyim formasıdır.

Ənənəvi ərəb geyimləri ümumiyyətlə uzun və bədənin demək olar ki, bütün hissələrini əhatə edir. Bu, bölgənin mədəni və iqlim xüsusiyyətlərinə görədir. İnsan vücudunu Günəşdən, küləkdən, qumdan qoruyur. Ümumiyyətlə, bütün fars körfəzində ənənəvi paltarlar çox oxşardır. Uzun paltar (kandura), kufiya, gutra kimi qadın geyimləri və abaya və hicab kimi qadın geyimləri ən çox ərəb ölkələrinə xasdır. Odur ki, ərəb yarımadasından gələn və islam geyim forması kimi təbliğ edilən belə geyimlər islam geyimləri deyil və islamla heç bir bağlılığı yoxdur.

## İslamda sünnətin gizli məqsədi

İslamda sünnət ilə bağlı fərqli fikirlərin olması əslində islam tarixinin, Qurani-Kərimin düzgün şəkildə izah edilməməsindən irəli gəlir. Sünnətin islamla bağlılığı məsələsinə aydınlıq gətirmək üçün islamdan əvvəlki dövrün tarixi ilə maraqlanmaq lazımdır. Əlbəttə ki, tarixi mənbələr bir mənalı olaraq sübut edir ki, sünnət olunma yaxın şərq xalqları arasında geniş yayılmış adət olub. Tarix elmləri doktoru, professor S. A Tokaryevin fikrincə sünnət olunma islamdan xeyli öncə bütpərəstlərin dini ayini olmuşdur. Hələ 2500 il əvvəl qədim Misirdə sünnət həyata keçirilib, bunu əyani olaraq qədim Misirə aid qəbir daşlarının üzərinə həkk edilmiş rəsmlər sübut edir. Bu fikirlərin doğruluğunu yunan tarixçisi və filosofu Heredot Afrikada, Ərəbistan yarımadasında, yaxın şərqdə sünnət olunmanın geniş yayıldığını qeyd etməklə təsdiq edir.

Yaşca islamdan daha qədim xristianların müqəddəs kitabında sünnətdən bəhs edilir, Allahdan İbrahim peyğəmbərə sünnət olunması vəhy gəlmiş və İbrahim peyğəmbər özü-özünü 99 yaşında sünnət etmişdir. Hətta yəhudilərin müqəddəs kitabı Tövratda yəhudilərin əcdadları hesab etdikləri İshaqın da sünnət olunması barədə qeyd olunub. İudaizmə görə sünnət adəti Allahın yəhudilərlə razılaşmasının simvoludur. Göründüyü kimi islama qədər sünnət adəti qədim xalqlarda o cümlədən ərəb mənşəli xalqlarda həm adət, həm də dini ayin kimi mövcud olmuşdur. İslama qədər dövrdə ərəblərdə həm kişi həm qadın sünnəti mövcud olub, ərəbcə bu kişilər üçün "xitan", qadınlar üçün "hafd" adlanıb. Həqiqət budur ki, bu adət başqa yaxın qonşu xalqlarda olduğu kimi sağlamlıq, təmizlik və gözəllik əlaməti kimi qəbul edilib.

Maraqlısı isə odur ki, sünnətin islamın atributlarından olması təsəvvürümüz Qurani-Kərimdə öz əksini tapmır, belə ki, Qurani-Kərimdə sünnət olma haqqında heç bir ayə və ya tələb yoxdur. Ancaq ki, sünnət olunma haqqında Məhəmməd peyğəmbərimizin hədislərində digər gigiyenik təmizlik qaydaları kimi göstərilir.

Qurani-Kərimə görə şübhəsiz Allah insanı mükəmməl və qüsursuz yaradıb. İnsan orqanizminin mükəmməl mexanizm şəkildə işləməsi, idarə olunması, təchizatı Allah tərəfindən o qədər mükəmməl yaradılıb ki, o mükəmməlliyi heç bir sözlə ifadə etmək olmur. Bəzi mənbələrdə Məhəmməd peyğəmbərimizin sünnət olunmuş halda yəni qüsurlu dünyaya gəlməsindən bəhs edilir. Ancaq ki, normal insanın gəldiyi məntiqi nəticə budur ki, Allahın öz sevimlisi və əzizi Məhəmməd peyğəmbərimizi qüsurlu yaratmaz. Məhəmməd peyğəmbərə İslam dini haqda ilk vəhy 40 yaşında gəldiyi məlumdur və sözsüz ki, islama qədərki dövrdə yerli əhali arasında sünnətin geniş yayıldığı bir əra-

zidə Məhəmməd peyğəmbərin uşaqlığında sünnət olunmaması mümkünsüz idi. Odur ki, fikrimcə Məhəmməd peyğəmbərimiz uşaqlığı dövründə, yəni isalamaqədərki yerli adət-ənənəyə uyğun olaraq sünnət olunub.

Əlbəttə ki, Məhəmməd peyğəmbərin sünnət olunmuş halda dünyaya gəlməsinin təbliği sünnətin islamla bağlılığını yaratmaqdır. Hərçənd ki, sünnət olma insanın təmizliyinə, sağlamlığına xidmət edir. Həm də müsəlmanların sünnət olmasının vacibliyinin təbliğinin əslində gizli məqsədləri var. Bu məqsədi izah etmək üçün qeyd etmək lazımdır ki, tibbi müşahidələr və araşdırmalar göstərir ki, sünnət olunanların cinsi ehtirası və cinsi aktivliyi sünnət olunmayanların ehtiras və cinsi aktivliyindən çox yüksək olur, eyni zamanda qeyri müsəlman ölkələrinin əhaliləri arasında müəyyən edilib ki, cinsi əlaqə üçün qadınlar sünnət olunanlara daha çox meyllidirlər.

Yeri gəlmişkən qeyd edim ki, qədim yunan tarixçisi və filosofu Strabon öz əsərlərində göstərir ki, onun dövründə ilk vaxtlar sünnət vəhşilik, sünnət olunanlar pozğun adamlar hesab edilsələr də sonradan sünnət olunma bir adət kimi imperator sarayları da daxil olmaqla bütün cəmiyyətə yayılıb. Qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olur ki, islamda sünnət olunma ilə çox arvadlılığın təbliği əslində müsəlmanların sayının artmasına xidmət etmək məqsədi daşıyır. İslamda və Qurani-Kərimdə islamın və müsəlmanların yer üzünə hakim olacaqları barədə verilən məlumatlar digər səbəblərlə yanaşı eyni zamanda da sünnət olunmaya, çoxarvadlılığa əsaslanması şübhəsizdir.

## İmam Əli ibn Hüseynin anası Şəhrəbanu xanım Cərcəmildən idi

Azərbaycanın türk kökünə, tarix boyu tariximizə və dövlətçiliyimizə şərik olmuş indiki İran, biz türklərlə bağlı tarixin vacib faktlarını  farslaşdırması sistem halında olub və olmaqdadır. İndiki Şimali Azərbaycan, eləcə də Cənubi (Güney) Azərbaycan və İran islamın şiə qoluna aid edilir. Farsların şiəliklə bağlı faktları özününkiləşdirməsi əslində biz azəri türklərini dini məzhəb altında əsarətdə saxlamaq məqsədi daşıyır. Uşaqlıqdan elimdən və obamdan yaddaşıma hopmuş və sonradan tarixi əsaslara söykənən bir faktı nəzərinizə çatdırmaq istəyirəm.

III Yezdəgirdin qızı islam qaynaqlarına görə Hüseyn ibn Əlinin arvadı, imam Əli ibn Hüseynin anası Şəhrəbanu xanım haqqında olan məlumat farslar tərəfindən saxtalaşdırılmış və məqsəd isə farsları dində önə çəkməklə digər xalqların ən başlıcası isə azəri türklərinin farslara tabeçiliyini təmin etmək idi.

Əvvəla qeyd edim ki, III Yezdəgird 226-651-ci illərdə mövcud olmuş Fars Sasani imperiyasının sonuncu hökmdarı idi  və bu fakta görə də etnik mənşəyi fars hesab olunur. Farsların Şiəliyin sütunu olan imamları farslara aid etməsi və bununla da farslarla imamların qan qohumluğunu sübut etmək istəyi ilə özlərini ilahiləşdirilmis və din pərdəsi adı altında  biz azəri türklərinin farsların təsir dairəsindən uşaqlaşmağına maneə və bir sədd yaratmışlar.

Gizlədilən isə odur ki, Hüseyn ibn Əlinin arvadı, imam Əli ibn Hüseynin anası Şəhrəbanu xanım heç də fars olmamışdır. Belə ki, Fars sasani imperiyasının tərkibinə qatılan bütöv Azərbaycanın  Cərcəmil əyalətindən Cərcəmil xanın qızı Şəhrəbanu xanım mənşəcə azəri (oğuz)  türkü idi. Bu faktları İslam alimi Şeyx Hacı Güləli Cəfərzadə öz araşdırmalarında elmi əsaslarla

sübut edir. Cərcəmil əyaləti indiki Şimali Azərbaycanın Yardımlı rayonu ərazisində ən aşağısı 15 kənddən ibarət olan böyük bir əraziyə malik yaşayış məntəqəsi idi. Cərcəmil əyaləti Yardımlı rayonunun indiki Cerimbel, Perimbel kəndləri olan ərazilərdir. Cərcəmil-Cerimbel adlarının uyğunluğu isə göz qabağındadır. Maraqlısı odur ki, bu günümüzə kimi bütöv Azərbaycanda Cerimbel, Perimbel kəndləri, seyidlər eli kimi sayılıb-seçilmiş sayılır və onlara xüsusi ehtiram göstərilir.

Xüsusi ilə qeyd edim ki, Şəhrəbanu adı mənşəcə türk adıdır, azəri türklərində rəhbər və tanınmış ailələrdə doğulan qız uşaqlarına verilirdi.

## İranın dövlət siyasəti azəri türklərini farslaşdırmaqdır

İran Prezidenti Həsən Ruhaninin köməkçisi Əli Yunisinin "azərilər türkcə danışan farslardır" kəlməsinə İran parlamentinin Cənubi Azərbaycandan olan əslən etnik Azərbaycanlı olan 50 millət vəkilləri Həsən Ruhaniyə ünvanladığı məktubda tutarlı cavablar versələr də, bu məsələyə geniş yanaşmaq və lazımı nəticə çıxarmaq lazımdır.

Eyni zamanda da İran Prezidenti Həsən Ruhaninin köməkçisi Əli Yunisinin azəri türklər barəsində dediklərinə Şimali Azərbaycan Respublikasının rəsmiləri, millət vəkilləri, ziyalılar sərt reaksiya verməli idilər ona görə ki, Əli Yunisi İran Prezidenti Həsən Ruhaninin köməkçisi olmaqla rəsmi şəxsdir və Əli Yunisinin dedikləri rəsmi dövlət mövqeyi hesab edilir.

Farslar bizi həmişə alçaltmağa çalışıb, bununla onlar bir neçə məqsədə nail olmaq istəyirlər, yeni İran dövlətinin əhalisinin 60%-ni təşkil edən azəri türklərinin düşüncəsində fikir ayrılığı yaratmaqla parçalanmağımızı genişləndirmək istəyirlər!

İran Prezidenti Həsən Ruhaninin köməkçisi Əli Yunisinin "azərilər türkcə danışan farslardır" kəlməsi həm elmi, həm də siyasi baxımdan qəti yolverilməz idi və İran rəsmiləri o cümlədən Əli Yunisi Azərbaycan xalqından üzr istəməli idi, ancaq ki, bunu etmədilər, əksinə bu fikri əsaslandırmağa çalışdılar.

Yeri düşmüşkən qeyd edim ki, Cənubi Azərbaycan əhalisinin İranda etnik azlıq kimi göstərilməsi həqiqəti əks etdirmir, belə ki, indiki İran əhalisinin ümumi sayı 75 milyon insan olduğu halda Azərbaycan türklərinin sayı 40 milyon təşkil edir. Bu halda İran Azərbaycanlıları İran dövlətinin etnik çoxluğunu təşkil etməklə dövlət qurucu xalqdır.

O ki, qaldı etnik mənsubiyyət məsələsinə: antropoloji baxımdan Azərbaycan türklərinin antropologiyası - Azərbaycan türkləri avropoid irqinin kaspi yarımtipinə aiddir. Bu yarımtipi bəzən Oğuz irqi belə adlandırılır. Farsların antropologiyası –hindiran irqinin aralıq dənizi qrupuna aiddir. Eyni zamanda da qeyd edim ki, Azərbaycan türklərinin baş 78.1, almacıq sümüklərinin diametri 165.9 olmaqla Qafqaz xalqları qrupuna aid edilir. Farslarda isə baş göstəricisi 86.1, almacıq sümüklərinin diametri 143.2 olmaqla ermənilərlə eynilik təşkil edir. Bu faktlar müasir elmlər və alimlər tərəfindən aksioma şəklində qəbul edilir.

Nizami Gəncəvinin, Firdovsinin əsərlərində indiki İraq ərazisi iki hissədə göstərilir: fars iraqı və ərəb iraqı. Bu faktların özü sübut edir ki, indiki İran ərazisində yaşayan farslar cənubdan, yəni indiki İraqdan şimala doğru, yəni Azərbaycan türklərinin daimi yaşayış yerlərinə köç etmiş və məskunlaşmışlar, hal-hazırda da bu ərazilər İran dövlətinin ərazisi kimi tanınmaqdadır.

Qeyd etmək yerinə düşər ki, indiki Bolqarıstan, Ukrayna, Ermənistan və sair, bir neçə dövlətlər kimi İran da (farslar) tarixi xəritə və mənbələrə əsasən sürüşmüş ərazili dövlətlərdir.

# 3-cü fəsil
# Tanrı və Türkçülük

## Tanrı dağı

Yüksək zirvələrə malik və bizə Tyan- şan kimi təqdim edilən dağ silsiləsi ancaq türk mənşəli xalqların arealına aiddir. Əgər fikir versək görərik ki, bu dağ silsiləsi dünyada möhtəşəmliyi ilə fərqlənən və dünyanın yüksək zirvələrinin də məhz bu dağ silsiləsində olması heç də təsadüfi deyil.

Əvvəla Tyan-şan dağ silsiləsinin adı çin sözü kimi təqdim edilsə də əslində türk mənşəli iki söz birləşməsidir. Çinlilər bu areala aid deyil ancaq ki, Çin tərkibinə aid edilmiş Türk Uyğur Muxtar rayonu Tyan-şan ərazisində yerləşir. Çinlilər bu dağ silsiləsini ilahi dağ adlandırır. Türk dilindən «tyan» tan-tanrı və «şan» isə nişan mənasındadır.

Beləliklə «Tyan-şan» tanrı nişanəsi, tanrı dağı deməkdir və türklərin məhz bu arealda məskunlaşması, buradan yayılması türk tarixinin qədimliyinin sübutu, möhtəşəmliyinin izahıdır.

## Tanrı və Türkçülük

Biz Türklərin, eləcədə bütün türk mənşəli xalqlar və etnosların inancı Tanrı, mavi səmalarda qərar tutmuş ilahi qüvvə və tək Allahlığı təbliğ edən ən qədim dini etiqaddır. Bu dini inancımızın ən aşağısı 7 min il tarixi elmi təsdiqini tapmışdır. Bu dinin mahiyyəti odur ki, Tanrı təkdir və bərabəri yoxdur, yer üzündə görünən və görünməyənlərin yaradıcısıdır və heç bir peyğəmbəri yoxdur. İnsan kosmik fəzadan və hər bir insan da Tanrının bir hissəsindən yaradılmışdır. Ümumiyyətlə Tanrıçılıq da tək Allahlıq, ruhların ölümsüzlüyü, daimi hərəkətdə olan dünyanın

sonsuzluğu prinsipləri üzərində qurulub. Maraqlısı odur ki, Tanrıçılığa görə insanın fiziki ölümündən 40 gün sonra insan ruhu başqa bir mərhələyə yəni ruhlar dünyasına keçir. Tanrıçılıqda cənnət- cəhənnəm olmasa da insan əməllərinə görə üç təbəqəyə bölünür: yaxşı əməlləri çox olanlar, yüngül ruhlar, mavi səmaya; bərabər əməlləri olanlar, yer-torpaq üzərinə; pis əməlləri çox olanlar, yeraltı əzablı, qaynar, ağır təbəqəyə yerləşdirilirlər.

Xüsusi ilə qeyd edilməli və vacib bir fakt budur ki, Tanrıçılıq bir dini təlim kimi kitab (kun, kin, kiniqa) şəklində yazılmayıb. Bu dini inancı türklər nəsildən-nəsilə ötürməklə , yaddaşlarda yaşatmaqla şüuraltı yaddaşa və genetik zəncirimizin dəyişməz halqasına çeviriblər. Bunu unutmayaq. Gələcəkdə bəzi məqamların izahı məhz genetik yaddaşımızla bağlıdır.

Biz türklərin qədim inancına görə dünya və həyat üç təbəqədən ibarətdir, yuxarı təbəqə - səma yəni ata, yaxud yaradıcı başlanğıc hesab olunur. Orta təbəqədə isə uşaq müdafiəçisi ana və sevgi mələyi Omayın nəzarətində olan həyat məişətinin özəyi, üçüncü təbəqə isə Yerlik adlı bir qüvvənin nəzarətində yeraltı dünyadır. Bu üç təbəqəni birləşdirən Tanrıdır. Beləliklə üçlük təşkil edən dünya ağac şəklində yuxarı hissəsi səma, ulduzlar kainat. Orta hissə yəni gövdə insanlar, heyvanlar, təbiət. Aşağı hissə isə kök və yeraltı yaşayış. Qədim inanca görə türklərin bu üçlüyün rəmzi həyat ağacı Altayda və Sibirdə daha çox yayılmış Ağcaqayın( rusca beryoza) ağacıdır. Bəzi mənbələrdə bu ağaca ağ (aq, ak) ağac da deyilir. Məhz bu səbəbə görə ağcaqayın ağacı rəmzi mənada ilahiləşdirilib. Bu günümüzə kimi də Altayda yaşayan türk mənşəli xalqlar ağcaqayın ağacına hörmət və ehtiram əlaməti olaraq onları rəngarəng parçalarla bəzəməsi və digər ritual hərəkətlər yaşamaqdadır.

Öz orbitindən çıxan yeri və kainatı Tanrı öz nizəsi ilə bərkitmiş və həyatı tənzimləmişdir. Yeri və kainatı orbitində saxlayan ilahi nizənin (bojee kopyo) görüntüsü isə şimal qütb ulduzu kimi tanıdığımız ulduzdur. Tanrıçılıq inancına görə həmin ulduz dünyanın mərkəzi həm də başqa dünyaya keçidin qapısıdır.

Türklərin təşkil etdiyi heyvanlardan ibarət 12 illik təqvim hər ili bir heyvan adı ilə adlandırılıb. Həmin Təqvim göstəriciləri ayın, günəşin, yupiterin orbiti üzrə fırlanmasına əsaslanır. Bəzi tük mənşəli xalqlarda, məsələn qazaxlarda qadın və kişi başlanğıc və onların harmoniyası əsasında həyat davamlıdır.

Tanrıçılığa görə insan Tanrının qulu deyil, insan Tanrının hissəsindəndir. İnsan təbiət və cəmiyyət qanunlarına uyğun harmonik şəkildə yaşamalı və yuxarı təbəqəyə keçmək üçün əsas yaratmalıdır. Tanrıçılığa görə səma 9 qatdan ibarətdir. İnsan isə mənəvi - əxlaqi haldan başlayaraq fiziki bədən quruluşuna kimi 7 (yeddi) cisimdən ibarətdir.

## Tanrıçılığın qeyri türk xalqlarına təsiri

Tanrıçılığın qısa izahını verməkdə məqsədim, fikirlərimi çatdırmaqdan ötrü sizi məlumatlı etməkdir. Əvvəla, göründüyü kimi təkallahlığı təbliğ edən ilk, ən qədim dini və fəlsəfi təlim Tanrıçılıq olmuşdur. Digər yeni yaranmış dünyanın əsas aparıcı dinləri, yəni Xristianlıq və İslam mənşəcə Tanrıçılıqdan qaynaqlanır. Bunun inkar edilməsinə heç bir əsas da yoxdur. Təkallahlıq, ruhun ölməməzliyi, əməllərə görə təbəqələrə yerləşdirmə islamın və yaxud xristianlığın əsas prinsipləri həmin dinlərdən 5000 (beş min) il öncə və elmi əsasını tapmış ən aşağısı 7000 (yeddi min) il tarixə malik Tanrıçılığın əsas prinsipləri deyilmi?!

## Həzrəti Məhəmməd Peyğəmbərimiz türkdür

İslam peyğəmbəri Həzrəti Məhəmmədin etnik mənşəyi və soykökü haqqında müxtəlif fikirlər olsa da, onun məhz türk olduğunu sübut edən mənbələr daha inandırıcı və əsaslı görünür. Məhəmməd peyğəmbərin Ərəbistan yarımadasında 570-ci ildə anadan olması bir fakt kimi qəbul edilir. Həzrəti Məhəmməd İslam dininin əsasını qoyub və onu yayıb. Həqiqətən Məhəmməd peyğəmbərin uşaqlıq dövrü barədə çox az məlumat var, ancaq ki, tarixi araşdırmaların məntiqi nəticəsi kimi Məhəmməd peyğəmbərin ərəb deyil türk olması əsaslı təsdiq olur. Məhəmməd peyğəmbərin uşaqlıq dövrü haqqında bəlli olan odur ki, o uşaq vaxtından yetim qalıb: atası Abdulla uşaq anadan olmazdan əvvəl vəfat etmiş, anası Aminə isə Həzrəti Məhəmməd altı yaşında olarkən ölmüşdür. Bundan iki il sonra babası Əbdül Mütalib də vəfat etmişdir. Anasının ölümündən sonra Həzrəti Məhəmmədə babası baxırdı, babasının ölümündən sonra ona əmisi Əbu Talib qayğı göstərmiş boya başa çatdırmışdır.

Dəclə və Fərat çaylarının arası ən qədim insan məskənlərindən olub, insan sivilizasiyasının beşiyi sayılır. İngilis alimləri S.Lloyd və Q.Çayldın fikrincə, bu yerlərdə türklər çox qədim dövrlərdən məskən salmış, qonşuların həsəd apardığı yüksək mədəniyyət yaratmışlar. Şumerlərin ilk dövləti Dəclə və Fərat çaylarının cənub axarı arasında yaranmışdı. Yunanlar Dəclə və Fərat çaylarının arası düzənlik əraziləri Mesopotamiya adlandırıblar. Ərəblər isə bu əraziləri eyni mənada yəni, “Beyn əl Nəhreyn”kimi adlandırıblar. **(В.И. Уколова, Л.П. Маринович. История Древнего Мира. Издательство «Просвящение» 2009. C. 301)** Həmin dövrlərdə həmin ərazilərdə və digər ərazilərdə yaşayan şumerdilli əhali özünüadlandırması olmadığından onlara “Ur adamı”, “Uruk adamı” deyilirdi. Həmin

ərazilərdə yaşayan yerli əhaliyə yalnız X əsrdə ərəb deyilməyə başlanıb.

Məhəmməd peyğəmbərin 11-ci babası Qüreyşin adından irəli gələrək, onun mənsub olduğu tayfa qureyşlər adlandırılmışdı. **(Michael Cook, Muhammad, Oxford University Press, 1983, s.12**)

Şumerlərin məlum olan iqtisadi-mədəni və hərbi baxımdan inkişaf etmiş iki böyük Ur və Uruk şəhərlərinin adları ilə bağlı Mesopotamiyada və qədim Misirdə çoxsaylı toponim, hidronimlər müasir dövrümüzə qədər gəlib çatmışdır. Afrikanı Asiya ilə ayıran Qırmızı dənizin şərq sahilində yerləşən Sina, Tur dağları Misirlə Mesopotamiyanın qədim sərhədləri olmuşdur. Misirlilər Tur dağını belə adlandırmaqla, yəni "Tu-Ur"- şərq tərəfdəki Ur dövlətini nəzərdə tutmuşlar: burada yaşayan əhalini də "tuureyş" - turlular adlandırmışlar. "Assuriya" sözü də misirlilər tərəfindən verilən ad olmaqla "as" , şumerlilərdə "az"-azman, cəsur, igid, "ur" - ərazi, dövlət, xalq: şumerlilər ölkələrini "Azuriya" adlandırırdılar.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, tayfa adlarının şəxs adlarına çevrilməsi də tarixi xüsusiyyətilə ənənəvi halda yayılmışdır. İndiki Uyğur türklərinin keçmiş tayfa adı "Türeyşi" olmuş və sonradan "uyğur" adlanması Bilgə xaqan tərəfindən yaradılmış dövlətin adı ilə bağlıdır: "uyğur-uyuşan-ittifaq" deməkdir. Məhəmməd peyğəmbərin babası Qüreyşə verilən ad da təsadüfi deyil, həmin ad mənsub olduğu tayfa şəcərəsi ilə bağlıdır. **(Abu'l-Farac Tarihi, c. 1, çev. Ömer Rıza Doğrul, TTK, Ankara 1999, s. 79)**

Müasir dövrümüzə qədər gəlib çatmış və türk dilli xalqların arealında "qureyş" adlı toponimlə bağlı yaşayış məntəqələri, tarixi abidələr və sair mövcuddur. Orta Asiyada, Azərbaycanda, Türkiyədə belə toponimlər çoxluq təşkil edir. Buxaranın yanın-

da Qüreyş adlı kənd və tayfa vardır. Türkiyədə Kureyşan Ocağı var ki, Xorasandan gələrək Anadoluya yerləşən On iki tayfanın bağlı olduğu bir ocaqdır.

**Namik Kemal Zeybek, "Halka ve Olaylara Tercüman" qəzetinin 6 fevral 2005 tarixli nömrəsində işıq üzü görmüş** "Hazreti İbrahim Sümerli mi?" adlı məqaləsində yazır: "Ərəb mənbələrində Həzrət Məhəmmədə və ailəsinə Arab-ı Müsta'ribe", ya da "Arab-ı Mütearribe" deyilir. Yəni "qərib ərəb, xarici ərəb, sonradan ərəbləşən" mənalarına gəlir. Bundan irəli gələrək ən ali insan olan Həzrəti Məhəmməd, Həzrəti İbrahimin oğlu Həzrəti İsmayılın nəslindəndir. Həzrəti İbrahim, bir Şumerdir. Şumerlər Türkdür. Elə isə, Həzrəti Məhəmməd nəsil olaraq Türkdür..."

Peyğəmbərimiz Məhəmmədin atası Abdülmuttalibin oğlu Abdullah, anası isə Sifətin qızı Amənədir. Atası Abdullah, Qüreyş qəbiləsinin Haşimoğulları qolundan, anası Amənə isə Zühreoğullarından idi. Hər ikisi də Məkkəlidir. Bu barədə Buxarı "Səhih Hədislər"də Peyğəmbərin dilindən ətraflı məlumat verərək yazır: "Allah, Həzrət İbrahimin oğullarından Həzrət İsmayılı, İsmailoğullarından Kənanoğullarını, Kənanoğullarından Qüreyşi, Haşimoğullarını, Haşimoğullarından da məni seçmişdir" **(Sahihi Buhari Muhtasarı Tecridi Sarih Tercemesi ve Şerhi, 6. C. s:16).**

Məhəmməd peyğəmbərin soyunun türk olduğunu Peyğəmbər Əfəndimiz "ərəb məndəndi, mən ərəbdən deyiləm" kəlməsi ilə onu əhatə edənlərə çatdırmışdı. XIII əsrdə yaşamış görkəmli islam filosofu Qutbuddin Ravəndi yazır: "O (peyğəmbər), … qıyıqgözlü bir türk idi…" **(Ravandi. Rahət al-sudur wa ayat al surur. Editor. Muhammad İqbal. G. M. S, London, 1921.**) Dəqiq olan faktlardan biri də budur ki, Məhəmməd Peyğəmbər dostu və qayınatası Əbu Bəkirlə ərəb dilində deyil, başqa bir dildə danışmasına onun səhabələri şahidlik etmişlər.

Həzrəti Məhəmmədin türklərlə genetik bağlılığını iddia edənlərin əsas dəlillərindən biri də onun türk damğalarından istifadə etməsidir. Peyğəmbərin qılıncı türk kökənli ustalar tərəfindən hazırlanmışdı.

Bütün ərəb mənbələrində Süreyc qəbiləsindən bəhs edilir. Süreyclilərin Orta Asiyadan gələn türklər olduğu ərəb tarixçilərinin əsərlərində də keçir. "Ubeydullah Türk" deyirlər. Ubeydullah Süreyc tayfasındandır. Bu sülalənin peşəsi qılınc ustalığıdır. Bu ailə Orta Asiyadan Anadoluya, oradan da Məkkəyə karvanlarla gediblər və Məkkəyə məskunlaşmışlar. **(Sıhhaül Arabia, Tali.a.attar.Mısır 1956 1.sh. 322) Göründüyü kimi Peyğəmbər Əfəndimizin türk olmasını ərblərin özləri belə təsdiq edirlər.**

Bu qılınc, hələ Osmanlı Dövləti qurulmazdan əvvəl, Həzrət Osman dövründən, Ərtoğrul Qazının əlinə Şeyx Ədəbali vasitəsilə "müqəddəs bir işarə" olaraq təslim edilmişdir. **(İbn Kəsir, əl-Bidayə vən-Nihayə, c.8,s.370; Dar Alam al-Kutub, ər-Riyad, 1424/2003)**

Həzrəti Məhəmmədin qılıncı üzərində Oğuzların Bozox qolundan boya məxsus Damğa var. Qayı kəlməsi; "möhkəm, qüvvət və qüdrət sahibi" deməkdir. Qayı boyunun simvolu, iki ox və bir yaydan ibarətdir. Oğuz boyundan Qayı boyunun damğası kimi tanıdığımız “IYI” damğası Erkən Tunc dövründən başlayaraq Avrasiya qitəsində qayalarda, saxsı və metal məmulatların üzərində həkk edilməkdədir. “Göy Tanrı” işarəsidir. Günümüzdə bu adət Qaşqay məzar daşları üzərində tayfa mənsubiyyətini bildirən damğa kimi yaşamını sürdürməkdədir.

Muzeylərdə saxlanılan Ağqoyunlu dönəminə aid olunan döyüş dəbilqələrinin üzərində həkk edilmiş qayı boyu damğası “IYI” və onunla bərabər ərəb yazısı ilə 6 (۶) rəqəminin yanaşı həkk olunması da maraqlı bir faktdır.

Oğuz Xan oğlu Gök Xan oğlu Qayının, bu boyun cəddi olduğu söylənilir. İyirmi il hökmdarlıq edən Qayının nəsli uzun illər bu məqamda qalmışdır. Bu səbəblə Qayı boyu Oğuz boyları arasında ilk sırada göstərilməkdədir. Dədə Qorqud gələcəkdə xanlığın yenidən Qayıya dönəcəyini bildirərək Osmanlılara xəbər vermişdi. (**Osman Turan. Doğu Anadolu türk devletleri tarihi. Türkiye, 1973, s.195.)**

Türk tarixçisi İhsan Oğuz "İslamda Mübarək Günlər və Gecələr" adlı kitabında yazır: "Peyğəmbərlərin sonuncusu olan şanlı Peyğəmbərimiz, anası cəhətdən saf ərəb, atası tərəfindən də saf türk nəslindən gəlmiş olurlar. Buna görə də bütün ərəblərin və türklərin Peyğəmbərimizlə öyünməyə və şərəf duymağa haqları vardır".

Həzrəti Peyğəmbəri Mədinəyə dəvət edən Evs və Hazreç qəbilələri Şumer əsilli idilər, Şumerin dağıldığı zamanlar Yəmənə köçmüşdülər. Mədinəyə sonra köçüblər. Əqəbədə "Məhəmməd bizdəndir" deyiblər və buna cavab olaraq da Həzrəti Peyğəmbər onlara cavab verib: "Qanınız qanımdandır" **(Ali Bulaç, Medine Vesikası Üzerine Tartışmalar; I ve II, (Birikim Dergisi, Mart-1993, Sayı: 47, s. 40-46 ve Nisan-1993, Sayı: 48, s. 48-58)**

Bu qəbilələr barədə Məcma-ul Bəyan təfsirində İmam Sadiqin dilindən belə yazılır: "Bunun üzərinə Sad bin Muaz və Evs qəbiləsindən digərləri ayağa qalxaraq, belə dedilər: "Ya Rəsulullah, biz bütə tapınan müşrikkən heç bir ərəb bizə diş batırmağa cəhd etmədi. İndi sən aramızdaykən necə bizə diş batırmağa cəhd edə bilər? Xeyr! Mədinədən çıxıb üzərlərinə gedək və onlarla döyüşək. Hansımız ölsə, şəhid olarıq. Xilas olanlarımız isə Allah yolunda cihad etmiş olarlar". **(Təfsir-ul Ayyaşi, c. 1, s. 257, h: 194)**

Hazrəc və Evs qəbilələri iki qardaş və dost qəbilə olmalarına baxmayaraq, zaman-zaman aralarında müharibələr meydana gəlmişdir. Ən mühümlərindən biri Rasulullahın Mədinəyə hicrətindən əvvəl meydana gələn Buas döyüşüdür. Bu iki qəbilənin münasibətlərini yəhudilər pozsa da, biri digərinə qarşı güc qazanmaq üçün Mədinədəki digər yəhudi qəbilələri ilə ittifaq da qurmuşdular. Belə ki, Hazrəclilər Kaynukaoğulları, Evsliler isə Nadir və Kureyzaoğulları ilə müttəfiq idilər. Hazrəç qəbiləsi dörd ana qola ayrılır. Bunlar, Sahib, Adiyy, Keçmişin və Dinar oğullarıdır. Ancaq bunların hamısı Neccar oğulları adlandırılır. Hazrəç qəbiləsi Peyğəmbərin nəsli olan Haşimoğuları ilə qohum idilər. **(İsmail Hakkı Bursevi, Ruhu'l-Beyan Tefsiri, Fatih Yayınevi: 3/659-660.)**

Hazrəç qəbiləsi, Evs qəbiləsi ilə Rasulullah Mədinəyə hicrət etdikdən sonra müsəlmanları və Həzrət Peyğəmbəri qoruyublar, müsəlmanlarla kafir və müşriklər arasında meydana gələn bütün müharibələrə qatılmışlar.

Qüreyş qəbiləsi ilə Həzrət Əlinin atası və Həzrət Məhəmmədin əmisi Əbu Talib arasında keçən dialoqa nəzər salaq: "Ey Əbu Talib! Ya qardaşoğlunu susdurub iddiasından əl çəkdir! Ya da Türk yurdlarına çıxıb gedin".

Əbu Talib, bu təhdid dolu tələbə, 94 beytdən ibarət olan "Qəsidə Lamiyye" ilə cavab verdi. Qəsidədən bəzi hissələri təqdim edirik:

"Düşmən bizim gücümüzə boyun əyib, rədd olur. Halbuki onlar bizim türk və aftalitlər qapılarına aparmağımızı istəyirlər. Allahın evinə and olsun ki, sizlər yalan deyirsiz. İşləri yoluna qoymadan nə Məkkəni tərk edəcəyik, nə də buralardan türk yurdlarına gedəcəyik". **(Ebu Hafs Zeynüddin Ömer bin Muzaffer bin Ömer İbnü'l-Verdi "Feyz-i yezdan: "Kaside-i Lamiye tercümesi". İstanbul. Marmara Üniversitesi İlahiyat Fakültesi Vakfı, 2006, 167 s)**

Türk tədqiqatçısı Halit Durucan "Hz. Muhammed Türk mü? Arap mı? Hz. Muhammed Nereliydi?" adlı məqaləsində yazır: "Bir gün Peyğəmbərimiz əshabı oturarkən, məlum olmayan bir dillə "Nə gözəl üzüm" - dedi. Səhabə anlamayaraq, "Ya Məhəmməd, ərəb dilində danış" - dedilər. Uca Peyğəmbər: "Dayanın, mən köküm olan Həzrət İbrahimin dili ilə danışıram. Ərəb məndən, amma mən ərəb deyiləm" - deyə cavab verdi".

Yeri gəlmişkən qeyd edək ki, İbrahim peyğəmbərin də türk olması elmi-məntiqi əsaslarla təsdiqlənir. Bildiyimiz kimi ərəb, yəhudi və digər mənşəli xalqlarda "Azər " kişi adına rast gəlinmir. Qurani-Kərimdə İbrahim peyğəmbərin atasının adının Azər olmasının göstərilməsi və Məhəmməd Peyğəmbərin "Dayanın, mən köküm olan Həzrət İbrahimin dili ilə danışıram"deməsi bir daha təsdiq edir ki, həm İbrahim Peyğəmbərdə türk mənşəli olmuşdur.

Prof. Dr. Zekeriya Kitapçı "Peyğəmbərin Hədislərində Türklər və Türklərlə Bağlı Hədislərin Ortaya Qoyduğu Yeni Hekayələr" adlı əsərində yazır: "Ərəblərin arasında yaşadığı üçün ərəb dilində danışmaq məcburiyyətində qalan və ərəbcə gələn bir vəhyi ilk olaraq ərəblərə təbliğ etdiyi üçün Həzrət Məhəmmədə "ərəb" deyildiyi məlumdur. Belə olduqda; Şumer və Hitit arasında yaşadığı üçün Arami, İbrani və ya Süryani dilində danışmaq məcburiyyətində qalan və özünə yəqin ki, bu dillərdən birində gələn vəhyi, bu dillərdən birini istifadə edərək təbliğ edən Həzrət İbrahimi, "Şumer" və ya "Hitit" saymamaq nə qədər doğrudur?"

Həzrəti Məhəmmədin türklər haqqında dediklərini yadımıza salaq: "Mənim türk adlı bir ordum vardır", "türklər sizə toxunmayınca, siz də onlara toxunmayın", "Türk dilini öyrənin! Onların hakimiyyəti uzun sürəcək..."

Peyğəmbərin soykökünün və etnik mənşəyinin türk olması qənaətinə gələnlər haqlı olaraq belə bir  sual da qoyurlar: islam elçisi Ərəbistanda yaşayıbsa və türklərlə heç bir ünsiyyəti olmayıbsa, necə onlar haqqında belə sözlər deyə bilərdi? Bu sözlərdən aydın olur ki, Həzrət Peyğəmbər türklərin genetikasını və gücünü yaxşı bilir, onlarla ünsiyyətdə olurdu. Ticarəti türklərlə daha çox quran Həzrət Peyğəmbərin türklər haqqında dediyi başqa bir hədis isə belədir: "Qırmızı sifətli və üzləri sanki zindan üstündə döyülmüş və dəri örtüklü qalxanlar kimi (sağlam, geniş və heybətli) türkərə müjdələr olsun! Allaha and içirəm ki, insanlar qəzəb kasası daşsa da Allah onlara həm bu dünyada və həm də o biri dünyada nə istəsələr verəcək və onları mükafatlandıracaq". **(Ebu Osman Amr bin Bahr El-Câhiz, Hilâfet Ordusunun Menkıbeleri ve Türkler'in Faziletleri, s,28, Çev. Ramazan Şeşen, Türk Kültürünü Araştırma Enstitüsü Yayını, Ankara, 1967.)**

Tanınmış türk tarixçi Mustafa Asım Köksal "İslam Tarixi" adlı əsərində yazır: "627-ci ildə Xəndək döyüşündə peyğəmbərimizə qurulan çadıra Kubbetüttürki (Türk Çadırı) adı verilmişdir. Bu çadırı quranda peyğəmbərimiz də çalışmış, hətta İstanbulun fəth ediləcəyi xəbərini, İstanbulu fəth edən sərkərdəyə və əsgərlərinə tərifini bu çadırın kölgəsində söyləmişdir. Məşhur Hudeybiyə müqaviləsi bu çadırda imzalanmışdır. Məkkənin fəthi öncəsi mühasirədə Əbu Sufyanla bu çadırda görüşmüşdü Həzrət Peyğəmbər".

Səhabə (Peyğəmbərin dostları) arasında türk əsillilərin də olduğu söylənilir. Məsələn, Əbu Bəkrin anasının türk əsilli bir xanım olduğu deyilir. Peyğəmbərin səhabələri içərisində Səlim adlı Quran bilicisi və Həzrət Məhəmmədin "Quranı ancaq bu dörd şəxsdən öyrənin" dediyi adamlardan biri olduğu yazılır. **(Göde, Kemal, Hz. Peygamber Devrinde Göktürkler ve**

**Türk Kültürü, III. Kutlu doğum sempozyumu: tebliğler 295 s., 2000, s. 83)**

Burda bir haşiyə çıxaq: Məlumdur ki, İslam dini yaranandan sonra Həzrəti Peyğəmbər dinin yayılması üçün ətraf ölkələrə məktublar göndərirdi. Peyğəmbərin sağlığında Ərəb yarımadasında yerləşən bəzi qəbilə başçılarına, Həbəşistan başçısına, Misir hökmdarına, Bizansın o vaxtkı imperatoru Herakleosa və farslara da məktub və elçilər göndərdiyi məlumdur. Məktub gələndən sonra Bizans imperatoru daim rəqabətdə olduğu türklərlə oxşar inanc yayan şəxsi görmək istəyir. Lakin onun şəxsən getmək imkanı olmadığı üçün bir neçə şəxsi gizlin olaraq Məkkəyə göndərir və peyğəmbərin rəsmini çəkdirib gətizdirir. Həmin rəsm hazırda Vatikanda qapalı arxivdə mühafizə altında saxlanılır.

Vatikan özündə çox sirləri saxlayan qədim bir kitabxanaya sahibdir. Burada Həzrəti Peyğəmbərin türklərə yazdığı məktubla yanaşı, Kutbüddin İznik tərəfindən qələmə alınmış ibadətlə bağlı Müqəddimə, Həzrəti Məhəmmədin qızı Fatiməyə qadınların vəzifələri haqqındakı vəsiyyəti, Rəcəb və Şaban aylarının əhəmiyyəti haqqında yazılar da vardır. Ümumiyyətlə Vatikanda islamla, türk mənşəli xalqlarla bağlı məlumatların çoxu gizli saxlanılır.

628-ci ildə Həzrəti Məhəmməd türk xaqanlarına da məktub göndərir. O dövrə qədər Qərbi Göytürklərin başında Çəkinin kiçik nəvəsi Tong Yabgu Xaqan dururdu. Onun 628-ci ildə vəfatından sonra Göytürk parçalanıb zəifləməyə başlamışdılar, amma bu arada Türgişler və Karluklar güclənməyə başlamışdılar. Sasanilərin sərhəd qonşusu olan Qərbi Göytürk və onun yerini almaqda olan Türgişleri və Karlukları görməməzliyə vurması düşünülə bilməzdi! **(Hilmi, Aydın (2004). The Sacred Trusts. Somerset, New Jersey: The Light, Inc. p. 352 pages. ISBN 1-932099-72-7.)**

Hazırda Vatikanda saxlanılan və Həzrəti Peyğəmbərin türklərə yazdığı məktuba yazılanlardan bəzilərini qeyd edək: “Ənənəvi Türk dini içərisində yer alan məhəbbətin Allah inancı, ölümün Tanrının əlində olduğu inancı, bu dünya həyatının yanında başqa həyata inanma, cənnət-cəhənnəm, tale, qurban, dua, yoğ aşı kimi dini mərasimlər Allahın göndərdiyi İslamda vardır. Sizləri bu dinə dəvət edirəm, İslamın gözəlliklərini hiss etməyinizə inanıram”.

Bu məktubun Qərb Göy Türklərinin (bunlar Xəzər dənizin qərb tərəfində, Azərbaycan ərazisində yaşayan türklərdir. Xəzər türkləri olduğu qeyd edilir) anladığı dildə yazılması bir daha sübut edir ki, Həzrəti Peyğəmbər bunu qədim türk dilində yazmışdır. Əlbəttə, Peyğəmbərin “Hudeybiyə Müqaviləsi”nə imza atmasından sonra yazı yazması heç bir yerdə qeyd edilmir. Onun köməkçiləri yazırdılar. Çünki Peyğəmbər ərəb dilində yaza bilmirdi. Ancaq maraqlısı da odur ki, Məhəmməd peyğəmbər 40 yaşına qədər ticarətlə məşğul olub və xarici ölkələrə ticarət səfərlərinə gedib. Bu fakt onun ərəb dilindən başqa dili bilməsini və savadlı olmasını təsdilq edir.

Professor Kairat Zakiryanovun ingilis dilində çap olunan və İngiltərədə təqdimatı keçirilən “Türk rapsodiyası” adlı kitabında Məhəmməd peyğəmbərin də türk olduğunu yazır və bunun sübutu kimi Nizami Gəncəviyə məxsus olduğunu iddia etdiyi beytləri misal gətirir: “Alqış sənə, Türk xalqının böyük oğlu. Sən yeddi tayfaya rəhbərlik etdin, dənizdən dənizə yürüdün. Bütün dünyada şöhrətləndin”. Professor yazır ki, Məhəmməd peyğəmbər qüreyş adlanan türk tayfasının nümayəndəsi olduğu üçün və bu tayfanın islam dinini gətirdiyi üçün həmin din asanlıqla yerli türk tayfaları tərəfindən qəbul edilib.

Bağdadlı coğrafiyaçı və tarixçi Əbül-Fərəc Kudami "Türklərə toxunmayın, türklər sizə toxunmayana kimi" hədisini "Məhəmməd Peyğəmbərin müsəlmanların türklərlə müharibə aparmamlı olduğunu vəsiyyət etmişdi" kimi izah edirdi.

Əksər türk xalqları VII əsrə kimi türklərə məxsus "Tanrıçılıq" dininə sitayiş ediblər. Bununla yanaşı Məhəmməd peyğəmbər türklərin islamı qəbul edəcəyini, türklərin dünya xristian mərkəzi olan Vizantiya paytaxtı Konstantinapolu 800 il əvvəl fəth edəcəyi barədə hədislərin birində demişdi. Osmanlı türk imperiyasının hökmdarı Sultan Mehmet Fateh 1453-cü ildə Konstantinapolu fəth etdi, adı dəyişdirilib İstanbul adlandırıldı. Osmanlı Türk İmperiyası 1517-ci ildə islam mərkəzləri Məkkə və Mədinəni tutaraq Ərəb İslam Xəlifətini özünə tabe etdi və islam xəlifəsi funksiyasını 1923-cü ilə kimi yəni Osmanlı imperiyasının süqutuna kimi yerinə yetirdi.

Həzrəti Peyğəmbər hədislərin birində deyib: "Qiyamət günü müsəlmanların məhz türklərlə müharibəsindən sonra başlayacaq" Bu hədislə həzrəti Peyğəmbərimiz müsəlmanlara türklərlə müharibədən çəkinməyi tövsiyə edib. Əlbəttə bu hədis Məhəmməd Peyğəmbərin mənsub olduğu türklərə olan sevgisinin təzahürü və müsəlmanların isə mövcudluğunun qorumasını təmin etmək məqsədi daşıyır.

Əlbəttə ki, bütün göstərilən əsaslı və məntiqə sığan dəlil və tarixi faktlar Məhəmməd peyğəmbərin türk olmasını birmənalı olaraq sübut edir. Belə bir qənaətə təkcə türk mənşəli alimlərin gəldiyi nəticə deyil, qərb ölkələrinin aparıcı alim və şərqşünasları da bu qənaətdədirlər.

Sözsüz ki, Məhəmməd Peyğəmbərin etnik mənşəyi dini baxımdan heç bir əhəmiyyət kəsb etmir, ancaq ki, İslam Peyğəmbərin məhz türk mənşəli olması türkün böyüklüyünün sübutu kimi əlbəttə çoxlarını narahat edir. Odur ki, bu faktın islam dünyası, bəzi digər xalqlar və dövlətlər tərəfindən qəbul edilib-edilməməsi əslində türkün böyüklüyünün və əzəmətinin qəbulunda qısqanclıq yaradır. İnsan bəşəriyyətinin və insanlığın ən mükəmməl və əzəmətli türk tarixi insan sivilizayasının özəyi kimi qalmaqdadır, baxmayaraq ki, bu amilə müqavimət göstərilir. Bu da təbiidir, ancaq ki, bu təbiilik mütəmadi, sistematik şəkil alıbsa, artıq türkün türklüyünü digərlərinə xatırlatmaq vaxtı çatıb.

## İmadəddin Nəsiminin fəlsəfəsi Tanrıçılıq inancına əsaslanırdı

XIV əsrdə yaşamış Azərbaycan türkü dahi filosof İmadəddin Nəsimini Sufizm təliminin Hürufizm qolunun nümayəndəsi kimi tanıyırıq. İslam dininə görə dinsizlikdə, Allahsızlıqda günahlandırılan və nəticədə edam olunan İmadəddin Nəsimi haqda bildiklərimizin nə qədər əsaslı olduğu həmişə sual doğurur. Əslində İmadəddin Nəsiminin İslamla heç bir bağlılığı yox idi.

Türkoloq, Filologiya üzrə fəlsəfə doktoru Aydın Mədətoğlu Qasımlı yazır: “Hürufilik” təriqətinin nəzəri əsasları Nəiminin “Cavidannamə” (“Əbədinamə”) əsərində izah edilmişdir. “Hüruf” ərəbcə “hərf” sözünün cəmi olub “hərflər” deməkdir. Özlərini “Hürufi” adlandıran hürufi ideoloqları və onların tərəfdarları dünyanın yaranış sirlərinin “Quran”dakı dünya, Allahın: “Ol!, Yaran!” hökmündən yaranmışdır” fikrinin içində barındığını sübut etməyə çalışmış, hətta “Quran”a sığışmayan və “Quran”ın Allahı tam vəsf edə bilmədiyini irəli sürərək Fəzlullah Nəiminin

"Cavidannamə" əsərini "Quran"dan üstün tutmuşlar. Onların fikrincə guya "Quran" 28 hərfdən ibarət olduğu üçün Allahın təcəllasını tam ifadə edə bilmir. "Cavidannamə" isə 32 hərfdən ibarət olduğu üçün Allahın bütün vəsflərini özündə əks etdirir".

Tanınmış hind alimi Məhəmməd İqbal Azərbaycanda sufizmi zoroastrizmlə islamın sintezi kimi qiymətləndirir. Hətta Azərbaycanın bəzi alimləri islamı zahirən qəbul etməklə sufizm ideyalarını yaşadıblar. Bəhmənyar əl-Azərbaycani, Şihabaddin Suhravardi belə alimlərimizdəndir. Şihabaddin Suhravardi Sufizmi Avesta ilə Quranın barışan mövqeyi kimi təsvir edir.

İslamda Allahın adının ritmik təkrarlanması-zikr sufizmin və türk şamanizminin əsas əlamətlərindən biri idi.

Azərbaycan türkləri dini inanclarını saxlamaq məqsədi ilə islamı qəbul etməklə xarici müsəlman görünüşü yaradıblar. Dahi Azərbaycan şairi, filosofu İmadəddin Nəsimi zahirən müsəlman, daxilən isə Tanrıçı idi və bu görüntü ilə də İmadəddin Nəsiminin məqsədi o dövrdə hakim olan islam dininin və hakimiyyətinin gözündən yayınmaq məqsədi ilə qədim Türk inancı Tanrıçılığın təbliği idi. Nəzərə alsaq ki, Nəsiminin fikrincə hər bir insan Tanrı hissəciyidir və bu isə Tanrıçılığın əsas prinsiplərindən biridir. Nəsimi tək Allahlığı inkar etmirdi, Nəsimi hər şeyin tək ilahi qüvvə tərəfindən yaradıldığını və hər bir insanı da ilahi qüvvə hissəciyindən hesab edirdi. Bildiyimiz kimi İmadəddin Nəsiminin aid edildiyi Hürufizmdə 7(yeddi) rəqəmi ilahiləşdirilmiş rəqəm hesab olunurdu. Yuxarıda qeyd etdiyim kimi Tanrıçılığa insan mənəvi əxlaqi haldan başlayaraq fiziki bədən quruluşuna kimi 7(yeddi) cisimdən ibarətdir. Hürufizmin 1376-1377-ci illərdə yaranmasını İmadəddin Nəsiminin müəllimi Fəzlullah Nəiminin indiki cənubi Azərbaycanda Təbriz şəhərində elan etməsi təsadüfü sayıla bilməz. Belə ki, türklərin elm və mədəniyyət mərkəzi Təbrizin aborigen və mütləq çoxluq təşkil edən

cənubi Azərbaycan əhalisi etnik türklərdən ibarət idi və Hürufizmin elan edilməsinin məhz Təbrizə salınması prinsipcə türklərin geninə ötürülmüş Tanrıçılıq inancının təkrarı kimi qəbul olunacağına Nəiminin inanması idi. Fərzullah Nəiminin bu təlimi elan edənə kimi daha çox türk dilli əyalətləri səyahət etməsi (Nəiminin türk dilini mükəmməl bilməsindən irəli gəlir) təsdiqini tapmış faktdır. Yeri gəlmişkən qeyd edim ki, İmadəddin Nəsiminin “Sığmazam” rədifli qəzəlində

“Gərçi bu gün Nəsimiyəm,
Haşimiyəm, qüreyşiyəm,
Məndən uludur ayətim,
Ayətə, şanə sığmazam”

Kəlmələri özünün türk mənşəyini, əzəmətini, tarixini, ucalığını və qürur duyduğunu göstərir. İnkaredilməz fakt budur ki, haşimilər, qüreyşlər Həzrəti Məhəmməd peyğəmbərin də mənsub olduğu türk tayfalarıdır.

Eləcə də Sufilərin və Hürufizm davamçılarının Azərbaycanı “Oyanma yeri” adlandırması da düşündürücüdür. Əgər söz birləşməsinə fikir versəniz, görərsiniz ki, söhbət oyanmadan və oyanma yerindən gedir. 1376-1377-ci ilə kimi belə bir təlim yox idi, yəni Hürufizm yeni yaranmış təlim idisə o halda Azərbaycana necə oyanma yeri adı verilə bilərdi? İnkaredilməz faktdır ki, sufilər və hürufilər təlimlərində heç bir kəsi peyğəmbər göstərmirdilər. Deməli söhbət unudulmuş, yatmış və keçmiş ənənə və inancımızın oyanışından gedir. Bu oyanış bizim keçmişimiz, genetik yaddaşlarımızda yaşayan Tanrıçılığa aid və onun oyanmasına işarə idi.

Nəsiminin dövründə islam din xadimləri tərəfindən dinsiz və islamın düşməni kimi qələmə verilmə cəhdləri əslində kamil insan Nəsimiyə sübut oluna bilmədi, ancaq ki, Nəsimi dövründə hakim islam dini pərdəsi arxasında həm də siyasi oyun aparırdı,

məqsədi isə Azərbaycanın istiqlalı idi. Nəsiminin islamı qəbul etmədiyi hiss olunurdu, yenə də bu hissi isə maddi sübuta çevirmək mümkünsüz idi.

Bəzən də Nəsimi İslam alimi kimi yəni "Şeyx" kimi təqdim edilir. Məqbərəsi uzaq Suriyada Hələb şəhərində olan Nəsiminin məzarında isə dahi azəri türkü Nəsimi "Şeyx" kimi göstərilib. Azərbaycan Yazıçılar, Aşıqlar və Jurnalistlər birliyinin üzvü, şair-yazar bir neçə tədqiqatlar və kitablar müəllifi, ilahiyyatçı Tural İrfan (Əhmədov) Suriyada təhsil alan zaman Hələb şəhərinə getmiş, dahi Nəsiminin məzarını axtarıb taparaq ziyarət etmişdir. Tural İrfan söyləyir ki, Nəsiminin məzarı kiçik bir Məqbərənin içindədir. Həmin Məqbərə Nəsiminin Hələbdə qalan orta yaşlı bir vərəsəsi tərəfindən mühafizə edilir. Söhbət zamanı Nəsiminin vərəsəsinin dediklərinə görə Nəsimi qərib ölkədə, Suriyada İslam alimi, Şeyx və Seyid kimi tanınır. Nəsiminin islam düşməni kimi edam edilməsi barədə dahi Nəsiminin vərəsəsi Şeyx Əhməd bildirmişdir ki, həqiqətən, İmadəddin Nəsimi edam olunub, amma dərisi soyulmayıb, təkcə Nəsiminin dabanının bir hissəsinin dərisi soyulub. Tural İrfan dahi Azərbaycan oğlu İmadəddin Nəsiminin Suriyada lazımınca tanınmadığını və onun məzarını çox çətinliklə tapdığını və Nəsimiyə ərəb olmadığına görə laqeyd münasibət olduğunu bildirdi.

## Ana vətən hissi

Fikir vermisinizsə biz türklər ana və vətən kəlmələrini birlikdə, yəni ayrılmaz formada işlədərik . Bu kəlmə haradan qaynaqlanır? Bu sözün fəlsəfəsini anlamayırıqmı? Yoxsa bu kəlmənin fəlsəfəsini, mənasını bilmədən işlədirik? Niyə məhz ana vətən?!

Hesab edirəm ki, ana vətən kəlməsi bizim genimizə oturmuş və şüuraltı yaddaşımızın təzahürü və ruhumuzdur.

Bizi daxilində yetişdirən, dünyaya gətirən, əziyyətimizi çəkən, bizi qoruyan, beşiyimizin ətrafında pərvanə olaraq yuxuya getməyimizi seyr edərək özü dincəlmədən bizi böyüdən, hər bir hissini və həyatını bizə qurban verən, gözlərimizə nur, dil verən müqəddəs insan Anadır!

Axı nədir vətənimizi də anamız qədər bizə doğma edən? Vətənimiz də anamız kimi bizi qoynuna alır, bizi anamızla bərabər qoynunda böyüdür. Vətənsiz yaşamaq yetim yaşamaq kimidir, vətənsiz insanın heç bir xoş hissi, yurduna, mənsub olduğu etnosa bağlılığı ola bilməz. Ana, vətən hissi tam insanın hissidir. Nə vətənsiz nə də anasız yaşamaq olmaz. Belə yaşamaq mümkünsüzdür, sadəcə var olmaqdır.

Hardandır axı bizdə bu hiss?

Biz türklərin qədim Tanrıçılıq inancına görə dünya və həyat üç təbəqədən ibarətdir. Orta təbəqə də uşaq müdafiəçisi ana və sevgi mələyi Omayın nəzarətində olan həyat məişətinin özəyi və yer. Göründüyü kimi biz türklərdə ananın vətənlə, vətənin anamızla eyniləşdirilməsi Tanrıçılıq inacımızdan irəli gələn hissdir.

German və Skandinaviya xalqları Tanrıçılığın bir çox məqamlarını əfsanələrində əbədiləşdiriblər. Tanrıçılıqda Tanrının yeri və kainatı orbitinə salmaq üçün istifadə etdiyi nizəni ilahi nizə adlandırır. Alman dilindən Oskar sözünün də məhz bu birləşmələrdən “os”(as/os ilahi qüvvə, Boq, Allah) “gar”(nizə) yaranmışdır. Türk dilli xalqlarda Oskar, Askar, Əskar, Əskər sözləri də məhz Tanrıçılıq inancının söz birləşmələridir.

## Asiya və şərq xalqlarında Türk Təqviminin rolu

Orxon və Yenisey yazıları ilə təsdiqlənən Türk tarixi kökləri ən azı 5000 (beş min) il əvvələ Altay, Sibir, Baykal, Yenisey bu ərazilərə bağlıdır. Tarixin elmə məlum ən qədim türk imperiyası eramızdan əvvəl 220-ci ildə yaranmış Böyük Hun İmperiyasıdır. Türk dilli həmin imperiyanın ərazisi təxminən 4.000.000 kv km-dən çox, dini etiqadı isə Tanrıçılıq və Şamanizm idi. Böyük Türk Hun İmperiyası cənubdan Çin Xan İmperiyası ilə həmsərhəd idi. Böyük Çin səddi məhz Böyük Türk Hun imperiyasından olan yürüşlərin qarşısını almaq məqsədi ilə tikilib.

Çin səddinin tikintisi davam edir.

Yeri gəlmişkən qısa haşiyə çıxaraq qeyd edim ki, bu günki Çin Xalq Respublikasının tərkibində xüsusi muxtar rayon statusuna malik türk mənşəli Uyğurların bütün hüquqlarının kobud şəkildə pozulması məhz çin yaddaşında qalmış qorxu hissinin təzahürüdür. Maraqlısı odur ki, çinlilər Uyğur muxtar rayonuna "Sinçziyan" adı vermişdir. Bu adın çin dilindən türkcə tərcüməsi "yeni sərhəd", "yeni sədd" mənasındadır. Çin Xalq Respublikası tərkibində Uyğur muxtar rayonu uyğurların uzun mübarizənin nəticəsində 1955-ci ildə təşkil olunub və bu bölgəyə "yeni sədd" adı verilib. Çinlilər Uyğur muxtar rayonuna "Sinçziyan" adının verməsi ilə eramızdan əvvəl 220-ci ildən tikintisi başlamış və 1644-cü ilə qədər davam etmiş 1500 illik Böyük Çin səddinin tikintisini şüurlarında davam etdirmişlər. Çinlilər Böyük Çin səddinin tikintisinin bitmə tarixini "Sinçziyan" ilə əlaqədar 1955-ci il elan etmələri daha doğru olardı. Axı böyük Çin səddinin tikintisi çin zehinlərdə davam etməkdədir.

Türklərin təşkil etdiyi, heyvanlardan ibarət 12 illik Tanrıçılıq və ya Türk təqvimi hər ili bir heyvan adı ilə müəyyənləşdirilib. Həmin Təqvim göstəriciləri ayın, günəşin, yupiterin orbiti üzrə fırlanmasına əsaslanır.

Çin horoskopu kimi tanıdığımız elmin yaranma tarixi 2600-3000( iki min altı yüz, üç min) ilə yaxın tarixə bağlıdır. Eramızdan əvvəl 206-207-ci illərdə yaranmış Çin Xan İmperiyasını 800 (səkkiz yüz) ilə yaxın idarə edən Xan sülaləsinin dövründə daha da inkişaf etmiş və mükəmməl bir elm sahəsinə çevrilmişdir. Çin dövləti şimaldan, qərbdən və şərqdən türk xalqlarının əraziləri ilə əhatə olunmuş və aralarında sıx iqtisadi əlaqələri də olmuşdur.

Çinlilər türklərin döyüşkənliyinə və idarə üsuluna heyran olaraq öz idarəçilik üsulunu da türksayağı qurmağa meylli idilər. Bu gün çin mədəniyyətinin qədim tarixə malik olmasının inkarı mümkünsüz olduğu kimi də çin mədəniyyətinin türk xalqlarının təsirindən formalaşması da inkar edilməzdir. Bu gün çin təqvimi və horoskopu kimi təqdim edilən elm əslində qədim türklərin Tanrıçılıq təqvimidir. Lakin çinlilər bu təqvimin istifadəsini təkmilləşdirmiş və genişləndirmişdir. Çinlilər, horoskopun yaradıcısı yox, geniş tətbiqçiləri olmuş, türklərin təşkil etdiyi 12 illik heyvanlardan ibarət Tanrıçılıq təqvimi təkmilləşdirmiş və müəyyən xırda əlavələrlə çin horoskopu kimi də təqdim edilməklə istifadə olunmuşdur. Sonradan yananmış Çin, Yapon, Vyetnam horoskopları məhz, Tanrıçılıq və ya Türk təqvimi əsasında təşkil edilmişdir.

XIV əsrdə yaşamış dahi Nəsrəddin Tusi Türk horoskopunu cədvəl halına salmış və bu təqvim günümüzə kimi yaşamaqdadır.

## Monqol-Tatar Xaqanlığının indiki monqollara heç bir aidiyyəti yoxdur

Bu yazımda bir sıra mənbələrə istinad etməli olacam. Fikrimcə, dünyanın hərb tarixinin möhtəşəm əsəri olan Monqol-Tatar Xaqanlığının indiki monqollara heç bir aidiyyəti yoxdur. Monqol-Tatarlar türk imperiyasıdır və bu tarix biz türklərin qurur yeri, möhtəşəmlik, yenilməzlik və aliliyimizin təkzib edilməz sübutlarındandır. Biz türklər dünyanı lərzəyə gətirən, yer üzünün 3/2-nə sahiblik etmiş insanlıq tarixinin ən möhtəşəm imperiyaları içində bərabəri olmayan 20 türk imperiyaları yaratmışıq, dünya xalqlarını 900 (doqquz yüz) il əsarətdə saxlayan və onlara ilk tək Allahlıq, əlifba, təqvim, mədəniyyət, dünyəvi elmlər gətirən soy - kökə malikik.

Əvvəla qeyd edim ki, XIII əsrə kimi heç bir tarixi mənbədə, əlyazmada monqol sözünə rast gəlinmir. İndiki Monqolustan ərazisində tapılan arxeoloji hər bir tarixi eksponat, artefaq, daş kitabələr ancaq və ancaq türk dilinə və türk tayfalarına aiddir. “Monqol” sözü əslində türk mənşəli sözdür. Çinlilər şimalda yerləşən və böyük Çin səddi ilə ayrılan Böyük Türk Hun Xaqanlığını “menqu”, “moğol”, “monqol” adlandırırdılar. Əlavə olaraq xüsusi ilə qeyd edim ki, “monqol” sözü iki qədim türk söz birləşməsindən yəni “menqu” və “el” sözlərindən ibarət türk mənşəli toponimdir “monqol” sözünün mənası isə daimi, həmişəlik el, oba, vətən və xalq mənasındadır. Müasir Monqol alimləri o cümlədən professor Buqatuli Bazulxan 1974-cü ildə elmi işində monqol dilinin türk mənşəli olduğunu sübut etdi. O cümlədən dilçi və tarixçi alim Anatoli Olovinçov tutarlı elmi materiallarında sübut edir ki, Monqol-tatarların dövlət dili türk dili idi. Sonradan həmin “Monqol” sözü siyasiləşdirilmiş termindir və “monqol xalqı” sözü də “sovet xalqı” kimi formalaşan və etnik mənşə göstərməyən anlayışdır.

İndiki Çin ərazisində türk mənşəli sözlər geniş yayılıb, Çin paytaxtı “Pekin” şəhəri də türk mənşəli sözdür “böyük kənd”, “böyük paytaxt” mənasındadır. Yer gəlmişkən qeyd edim ki, indiki Pekin adlı şəhər 1215-ci ildə Çingizxanın əmri ilə yandırılaraq məhv edilmiş Çjundu şəhərindən şimal istiqamətində 1267-ci ildə inşa edilmiş və Yuan türk imperiyasının paytaxtı “Xanbalıq” şəhəridir.

Bir sıra alimlər çinli Men Hun, avropalılar Plano Kaprini, Qlioma Pubrika, Marka Polo, slavyanların o cümlədən rusların qədim əlyazmalarında Çingizxanın və onun imperiyasının, ondan sonra böyük imperiyanı idarə edənlərin ancaq və ancaq türk mənşəli olduğunu sübut edirlər. Bəzi ərəb və çin mənbələrində Çingizxanın indiki Azərbaycan türklərinin əcdadları olan türk mənşəli oğuz türk tayfasından olduğu göstərilir. Böyük şərq tarixçisi Elxanilər imperiyasının vəziri Fəzlullah Rəşidəddin 1310-cü ildə nəşr etdiyi mənbədə Çingizxanı və onun nəsil kökünü və sonradan imperiyanı idarə edən hökmdarların hamısını türk göstərir.

Yeri gəlmişkən qeyd edim ki, Elxanilər dövləti şimali və cənubi Azərbaycan, Türkiyə, yaxın şərq, orta Asiya əraziləri daxil olmaqla 3750000 kv. km əraziyə malik, paytaxtı ana Təbrizdə yerləşən, dövlət dili azəri türkcəsi olan oğuz türkü Çingizxanın Çingizlilər sülaləsinin idarə etdiyi böyük türk imperiyası idi.

Tarixdən bildiyimiz kimi Slavyanların, o cümlədən rusların 300 ilə kimi monqol-tatar əsarətində olması faktdır. Bu dövrdə xalqların bir-biri ilə əlaqəsi, qarışması da gerçəklikdir. Rusların sovet dövründən başlayaraq bu günə kimi apardıqları tarixi araşdırma və analizlər çox maraqlı faktı qarşıya qoydu. Rusların, o cümlədən slavyan xalqlarının bioloji və genetik tərkibində indiki monqolların əlamətləri aşkar edilməyib, aşkar olunan isə türk əlamətləridir. Türk təsiri rus dövlətində idarə sisteminə də təsir

etmişdi. Danılmaz fakt odur ki, Xaqanlıq (Kaqan) titulu türk toponimi və məhz türklərin tətbiq etdiyi dövlət, imperiya idarəçiliyində ən yüksək titul idi. Məhz rus hökmdarları da IX əsrə kimi özlərinə Xaqan titulu vermişlər. 988-ci ildə Yunan Pravoslav Xristianlığını dövlət dini kimi qəbul etmiş rus hökmdarı Vladimir Böyük Xaqan titulunu daşıyırdı, eləcə də digər rus hökmdarı Müdrik Yaroslav Böyük Xaqan adlandırılırdı. Xüsusi ilə qeyd edək ki, dünya tarixində Xaqan titulu, İmperator, Karol, Şah, Şahənşah titullarından yüksək hesab edilən titul idi. Məhz buna görə də ərəb tarixçisi və bəzən də onu "ərəblərin Herodotu" kimi tanıdığımız Əli əl-Məsudi Xaqan tituluna görə rus hökmdarlarını "slavyan hökmdarlarının birincisi" adlandırıb. Rus hökmdarları Yunan Pravoslav Xristianlığını qəbul edəndən sonra Yunan kilsəsinin təsiri ilə Xaqan titulunu Knyaz titulu ilə əvəz ediblər.

## Moskva Kremlinin türk keçmişi niyə gizlədilir?

Qərb dünyasının və rusların illərlə türk böyüklüyümüzü unutdurmağa yönəldilmiş və hər biri axır nəticəyə hesablanmış türkəfobiya dövrümüzdə də davam etməkdədir. Bir tarixi faktı yada salsaq yerinə düşər, baxmayaraq ki, bu tarix yüz illərlə gizlədilmiş və məqsədyönlü unutdurulmuşdur.

Əvvəla qeyd edim ki, slavyanların, o cümlədən rusların tarixinə, eləcə də Kiyev rus dövlətinin idarə sisteminə Xaqanlığın tətbiqi, türklərlə slavyanların o cümlədən rusların genetik oxşarlığı barədə tarixi faktların gizlədilməsi "rus dövlətçiliyinin və etnosunun qədimliyini" əsaslandırmağa hesablanmışdır.

Belə tarixi faktlardan biri də Rus knyazı Dimitri Donskoyun Şirvan Şahı Şeyx İbrahimə yazdığı müraciət əsasında dünya şöhrətli memar Əliş bəy Kərimlinin Moskvaya dəvət olunması və Kremlin memarı olmasıdır. Şirvan Şahı Şeyx İbrahimin xeyir

- duası ilə 1367-ci ildə Moskvaya yollanmış Əliş bəy Kərimli (indi biz onu “Kreml” kimi tanıdığımız) möhtəşəm saray kompleksinin baş memarı və layihə rəhbəri kimi fəaliyyət göstərərək tikintini vaxtında başa çatdırmışdır. 1371-ci ildə tikintini başa çatdırdıqdan sonra Əliş bəy Kərimli təntənəli yola salma mərasiminin sonunda namərdcəsinə arxadan zərbə ilə qətlə yetirilmiş və oradaca dəfn edilmişdir. Bu qətli törətməkdə məqsəd dünya şöhrətli möhtəşəm tikili kompleksi Kremlin azəri türkünə bağlılığını tarixdən silmək idi. Möhtəşəm tikinti kompleksinin “Kreml” adlandırılması da məhz onun yaradıcısı memar Əliş bəy Kərimli ilə bağlıdır, yəni Kremil sözü Kərimli sözünün azca dəyişmiş formasıdır,“kerimli” “kremli” “kremil”.

Yeri gəlmişkən qeyd edək ki, indiki Rusiya ərazisində və siyasi tərkibində yerləşən türk mənşəli Tatarıstanın paytaxtı Kazan şəhərində Kazan Xanının iqamətgahı və müdafiə məqsədli kompleks də Kazan Kremli adlanır. 1552-ci ildə Kazan xanlığı rus çarı IV İvan Qrozni tərəfindən məğlub edildikdən sonra çarın əmri ilə Kazan xanının iqamətgahı olan müdafiə məqsədli kompleksdə bərpa və təmir işləri aparılmış və həmin kompleks Kazan Kremli adlandırılmışdır. 1552-ci il Kazan xanlığının süqutuna qədər indi Kazan Kremli kimi tanıdığımız kompleks türk-tatar dilində “Kirməne” adlanırdı.

Eləcə də Rusiya ərazisində yerləşən digər komplekslər də məsələn, Novqorod Kremli (XV-XVII əsr), Pskov Moskva Knyazlığına tabe olandan sonra 1510-cu ildən sonra Pskov müdafiə məqsədli qala kompleksi də Pskov kremli adlanmışdır.

Heç bir rus ədəbiyyatında və heç bir mənbədə “Kreml” sözünün yaranma tarixi, mənşəyi və mənası tutarlı izah edilmir. Əgər biz Kiyev Rus dövlətini sonrakı rus knyazlığının, imperiyasının və müasir Rusiyanın əcdadı və ya ilki hesab ediriksə bəs onda niyə indiki Ukrayna ərazisində yəni Kiyev Rus dövləti

ərazisində “Kreml” adlı bir toponimə rast gəlmirik? Bu bir daha sübut edir ki, “Kreml” sözü slavyan və ya rus mənşəli deyil. İndiki Rusiya ərazisində “Kreml” kimi tanıdığımız komplekslər hamısı Əliş bəy Kərimlinin memarı olduğu Moskva kremlindən sonra regionlarda müdafiə məqsədli komplekslər “Kreml” adlanmışdır. Moskva Kremli həmin tipli komplekslərin ən böyüyü, möhtəşəmi və ən qədimidir. Həmvətənimiz Əliş bəy Kərimlinin rus tarixinə silinməz iz qoyması  tarixi faktlarla təsdiqlənir və gizlədilməsi, tarixdən silinməsi mümkün deyildir .

Yeri gəlmişkən qeyd  edim ki, ümumiyyətlə  indiki rus xalqının formalaşması və rus dövlətçiliyinin  yaranmasında ən əsas amil türk amili olmuşdur. Rus alimlərinin özlərinin etiraf etdiyi kimi rus dilində 2000-dən çox türk mənşəli söz vardır, XVI  əsrin ortalarına kimi rus və slavyan xalqlarının zadəganlarının, eləcə də saray dili məhz, türk (qıpçaq) dili idi.

Avropa xalqlarının əksəriyyətinin dilinin  türk dili təsirindən formalaşması çoxlu mənbələrə əsaslanan danılmaz bir faktdır. Müasir dövrümüzdə də belə araşdırmalar davam edir. Belə ki, latış dilçi-araşdırmaçı, filoloq  Qalina Şuke “Latışlar türklərdirmi?” adlı kitabında yazır ki, “dil sahəsində araşdırmalar bütün insan siviliziyasının ilk danışdığı dilin aşkar edilməsini yaxınlaşdırır,  görünən odur ki, o dövrdə yer üzünün çox olmayan bütün əhalisi üzün müddət zamanında  bir dildə danışıb. Düşünürəm ki, insanlığın ilk dili və özəyi  türk dilidir. İnsanlıq mənşəcə bir beşikdəndir. Və görsənən odur ki, biz hamımız-latışlar, ruslar azca da olsa türkük...”

İvan Qrozni Krım türk xanlığına vergi, bac verirdi və hakim xalqın dilində danışmaq həm sərfəli və  həm də  xüsusi status sahibi kimi anlam daşıyırdı. Bəşəriyyətin ən möhtəşəm hərb mədəniyyətinə, bacarığına  və dünyanın birinci hərb xalqı statusuna malik türklərin, rusların hərb xalqına çevrilməyində müstəsna

rolu olub, əsrlər boyu türkün əsarət və təsir altında yaşayan rusların hərb xalqına çevrilməsi təbii proses idi. Eləcə də qan qohumluğunun qaçılmazlığı və mədəni, elmi, iqtisadi, siyasi, hərbi və məişət mədəniyyətinin ruslara keçməsi təbii prosesin tərkib hissəsi idi. Həqiqətən, indiki rusların türklər kimi möhtəşəm hərb mədəniyyətini və bacarığını etiraf etmək lazımdır. Hətta ruslar türk mənşəli "ura" sözünü hərb dilinin vacib elementinə çeviriblər. "Ura" sözünün mənşəyi "yur", "yura", "vur", "hur", "hurrey" kimi türk mənşəli sözlərdən yaranması rus alimlərinin gəldiyi nəticədir. "Vur" sözü Azərbaycan türkcəsində indi də hərb- qəhrəmanlıq, döyüşkənlik ruhunda işlədilir. 2016-cı ilin aprel döyüşlərində Azərbaycan əsgərinin dilində "vur, vur komandir, vur" erməni və düşmənlər üzərində qələbə və döyüşkənlik rəmzi kimi işlədildi. Rusların türk tarixi keçmişini gizlətmək cəhdi əslində möhtəşəm türk xalqının həm rusların eləcə də dünya xalqlarının formalaşmasında türk amilini gizlətməkdir.

## Türk Babək islama qarşı deyil,
## Bütöv Azərbaycan uğrunda müharibə aparırdı!

Azərbaycanın Milli və Xalq qəhrəmanı Babək haqqında əsasən ərəb mənbələrində geniş məlumatlar mövcuddur. Nəzərə alsaq ki, Babək Ərəb xilafətinə qarşı vuruşub və ərəblərin göz dağına çevrildiyindən ərəb mənbələrində Babək pis obrazda təqdim olunub. Bununla yanaşı Babəkin şücaətinə, qəhrəmanlığına, sərkərdəliyinə heyranlıqlarını gizlədə bilməyən ərəblər onu lənətləyib və təhqir ediblər.

Sovet dövrünün əsas ideoloji istiqamətlərindən olan sosial bərabərlik, sinfi mübarizə və ateizm fonunda Babək qeyd edilən ideologiyanın təlimi və təbliği üçün sinfi mübarizə qəhrəmanı, yəni üsyançı kimi və onun mübarizəsi isə islam dininə qarşı

mübarizə kimi təbliğ olunub. Bununla da Babək islam dininə qarşı vuruşan üsyançı kimi tanıdılıb.

Əvvəla Babəkin etnik mənşəyi barədə bəzi təxribatçı fikirlərə aydınlıq gətirmək məcburiyyətindəyəm.

İmam Fəxrəddin Razi "Etiqadatu firəq –il-müslimin və-l–müşrikin" adlı kitabında yazır: "Babəkilər, Babəkin tərəfdarları idilər. Babəkin özü isə azərbaycanlı idi. Onun qüdrəti uzun müddət artmaqda idi. O, küfrün yolunu açdı, bir çox adam onun başına toplandı. Bu iş isə Mötəsimin zamanında oldu. Bir çox şiddətli vuruşmalardan sonra onu tutdular və beləliklə də onun bəlası aradan qaldırıldı".

Məhəmməd Üfvi "Cavame-əl-hekayət və ləvame-ər-rəvayyət" adlı kitabında göstərir ki, "Babəkin anası isə Azərbaycan kəndlərinin birində yaşayan taygöz bir qadın idi".

Babəkin anasının Cənubi Azərbaycanın Ərdəbil əyalətinin Bilalabad kəndindən olması faktını çoxlu sayda ərəb mənbələri təsdiq edir. Eyni zamanda Babəkin qədim türk əcdadlarımızdan olan maday türkü olması daha çox inandırıcı və əsaslıdır.

Babəkin türk-azərbaycanlı olması haqqında ərəb mənşəli Baqid ibn Əmr ət-Təmiminin "Babəkin tarixi" əsərində, İbn İshaq ən-Nədim özünün "əl-Fehrist" əsərində məlumat vermişdir.

Bütün tarixi ərəb mənbələri göstərir ki, Babək bütöv Azərbaycan uğrunda mübarizə aparıb, qısa müddət də olsa torpaqlarımızda ərəb istilasının qarşısını alıb. "Azad olsun Azərbaycan" şüarı ilə döyüşlərə atılıb, öləndə də son fəryadı "Azərbaycan" olub. Babəkdə Azərbaycan sevgisinin nə qədər yüksək olması və ölüm ayağında da "Azərbaycan" harayı məhz onun türk olmasından qaynaqlanır.

Avropa və digər mənbələrdə məsələn, avstriyalı Erik Fayqlın "Azərbaycan odlar yurdunun tarixi", britaniyalı Bernard Lüisin "Tarixdə ərəblər", Edvin Raytın "Bəzzdən olan Babək

və Afşin" və başqaları Babək haqqında və onun Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsi haqqında geniş məlumat mövcuddur.

Məsələn, Edvin Rayta görə isə "Babəkin gerçək hədəfi Azərbaycanın istiqlaliyyəti idi".

Tarixi mənbələrdən göründüyü kimi Babəkin ətrafında müsəlman ərəblər, ələvilər, əhli-beyt tərəfdarları, hətta imam Kazımın qardaşı belə toplaşaraq Ərəb xilafətinə qarşı vuruşublar. Hətta Bəzz qalasında azan verilib, namaz qılınıb. Bu faktlar Babəkin islam dininə qarşı deyil, Ərəb xilafətinə qarşı Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsinin sübutudur.

Ərəb xilafətində hakimiyyəti ələ alan Əməvilər sülaləsi, ondan sonra da taxta sahib olan Abbasilər sülaləsinin apardığı siyasət tamamilə İslamdan və insanlıqdan uzaq idi. Artıq yayılmış və yayılmaqda olan İslam dini ərəb şovinizminin əlində silaha çevrilmişdi. Onlar ərəb olmayan müsəlmanlara qarşı ayrı-seçkilik edir və onları, yəni ərəb olmayanları "məvali" adlandırırdılar. Hətta şovinist xəlifələr başqa millətlər arasında İslam dininin yayılmasını, başqa dində olanların müsəlman olmalarını istəmirdilər. Bunun da ən böyük səbəbi o idi ki, daha çox soyğunçu vergi yığılsın, çünki İslamı qəbul edənlər dərhal vergidən azad olunmalıydı, bu da xilafətin başında duran hakim dairəyə heç cür sərfəli deyildi. Ona görə də "məvali"lər ərəblərin vergi adı ilə faktiki soyğunçuluğuna məruz qalırdı.

Yeri gəlmişkən qeyd edim ki, 705-ci ilə qədər Albaniya bir dövlət olaraq öz mövcudluğunu saxlayırdı və əhalisi isə əsasən Xristian dininə mənsub idi. Bütöv Azərbaycanın hər yerində yerli əhali kütləvi olaraq İslam dinini qəbul etmirdi. Maraqlısı da odur ki, Ərəb xəlifəsi Müaviyə Şimal dövlətimiz olan Albaniyanı müstəqil dövlət, Cavanşiri isə bu dövlətin hökmdarı kimi

tanımışdı. Xüsusi ilə qeyd edim ki, Müaviyə yeganə ərəb hökmdarıdır ki, azərbaycanlılarla qarşılıqlı münasibətlər əsasında diplomatik əlaqələr quran və Albaniyanın daxili müstəqilliyini tanıyan ilk və sonuncu xəlifə olub.

Azərbaycan iki əsrə kimi, yəni Babəkə qədər bütöv ərazisində Ərəb xilafətinə qarşı mübarizə aparıb.

İlk olaraq 639-cu və 642-ci illərdə Azərbaycana ərəblər soxulanda onlara qarşı Cənubi Azərbaycan torpalarının canişini İsfəndiyar ibn Mərzban, sonra isə onun qardaşı Bəhram silahlı müqavimət göstərərək ərəblərə qarşı mübarizəyə qalxıblar. 748-ci ildə Azərbaycanda Müsafirin başçılığı altında xalq üsyanı başladı, Ərəb sərkərdəsi Məhəmməd ibn Sulun ordusu darmadağın edildi.

752-ci ildə Azərbaycanda Qubad Asəf Beyləqaninin rəhbərliyi ilə yeni üsyan başladı və həmin üsyan da amansızlıqla yatırıldı.

776-783-cü ildə Muğanna ləqəbi ilə tanınan Həşim ibn Hakimin rəhbərliyi altında Xorasanda yeni xalq üsyanı başlayır. Muğannanın ağ bayrağı altında Əbu Müslümün tərəfdarları və xürrəmilər də birləşmişdi. Muğanna özünü Xorasanın hökmdarı elan edir, Bağdaddan göndərilən ərəb xilafət qoşunlarını bir neçə dəfə məğlubiyyətlərə uğradır. 783-cü ildə isə onun hərəkatı məğlubiyyətə uğradı, Muğanna əsir düşməmək üçün özünü öldürdü.

778-ci ildə isə xürrəmilər ayrıca olaraq xilafətə qarşı İsfahanda üsyan qaldırır. Lakin üsyan yatırılır.

796-797-ci illərdə zındığ hesab olunan Əmr ibn Məhəmməd əl-Əmrakinin rəhbərliyi ilə Curcanda yeni bir üsyan dalğası başlayır, lakin o da yatırılır.

794-795-ci illərdə isə Beyləqanda yeni xalq üsyanları başlayır və yatırılır.

808-ci ildə isə Azərbaycanda və digər ərazilərdə Cavidanın rəhbərliyi ilə xürrəmilər yeni üsyan başlayır. Üsyan Rey, Həmədan, İsfahan və digər böyük Azərbaycan şəhərlərini bürüyür. Saylarının 100 min olmasına baxmayaraq xəlifə Harun ər-Rəşidin göndərdiyi qoşun onları məğlub edir, sağ qalanlar Cavidanla birlikdə Bəzz şəhərinə çəkilir.

Xronoloji tarixi ardıcıllıqdan göründüyü kimi 639-cu ildən 816-cı ilə qədər 177 illik bir zaman kəsiyində bütöv Azərbaycan ərazisində Azərbaycan xalqı Ərəb Xilafətinə qarşı üsyanlar-müharibələr aparıbdır. Əminliklə demək olar ki, islam dini Azərbaycanda yerli əhalinin müqavimətinə görə mövqeyini bərkidə bilməmişdi. Məhz bu səbəbdən də Ərəb xəlifələri Azərbaycana "Şamlı", "Rabiya" və digər ərəb tayfalarını köçürür, məskunlaşdırırdılar ki, Azərbaycan daxilində dayaq nöqtələri yaratmaqla Ərəb xilafəti hakimiyyətini bərkitsinlər.

816-cı ildən başlayaraq 22 ildən artıq Xürrəmilərə başçılıq etmiş Babək bu illər ərzində ərəb xialafət ordusu qarşısında parlaq qələbələr qazanaraq 250000-dən çox ərəb əsgəri və sərkərdələrini məhv etmişdir. Xürrəmilərin nəzarətində olan ərazilərdə yerli idarəetmə orqanları, onların rəhbərləri, ərazilərin təhlükəsizliyi təmin edilirdi. 830-cu ildə Babək Həmədan döyüşündəki qələbəsindən sonra bütün tarixi Azərbaycan torpaqlarını azad elədi, Gilan ərazilərini də öz təsiri altına aldı. Həmin azad olmuş əyalətlərə Babək valilər təyin edirdi. O dövrün ən möhtəşəm Bizans imperatorluğu Babəki Azərbaycanın hökmdarı kimi tanıyaraq diplomatik əlaqələr yaratmışdı. Xəzər xaqanlığı da Babəklə diplomatik əlaqələrə malik idi, bu münasibətlər Ərəb xilafəti ilə Xəzər xaqanlığının arasında iqtisadi əlaqələr yarandıqdan sonra pozulmuşdu. Babəkin başçılıq etdiyi Xürrəmilər konkret olaraq Azərbaycan ərazilərinə nəzarət etmiş, dövlət atributlarına malik

olmaqla Azərbaycan ərazilərində dövlətin malik olduğu funksiyaları yerinə yetirməklə əslində Xürrəmilər dövləti yaratmışdır.

Azərbaycan istiqlaliyyəti uğrunda Ərəb xilafətinə qarşı Xürrəmilər hərəkatına başçılıq etməklə ərəblərə qarşı üsyanı davam etdirən Babək etnik türk mənşəli bir sərkərdə kimi Bütöv Azərbaycan ərazisində qısa ömürlü Xürrəmilər adlı dövlət yaratmışdır. Babək Azərbaycanın milli və xalq qəhrəmanı kimi Azərbaycan, eləcə də dünya tarixinin o cümlədən hərb tarixinin parlaq nümunəsi, Azərbaycanımızın qürur mənbəyidir.

Babəki islama qarşı vuruşan üsyançı kimi təqdim etmək və onun türk etnik mənşəyini saxtalaşdırmağa cəhdlər əslində Milli və Xalq qəhrəmanımız Babəkə qarşı təhdid deyil, bu təhdidlər bütün Azərbaycan xalqının şanlı tarixinə, onun hərb salnaməsinə, türkçülüyümüzə basqılardır. Bu basqının əsas məqsədi isə Azərbaycan xalqının özünü öz gözündən salmaq, özünə inamı qırmaq, tariximizi məhv etməkdir.

## Türkləri və İtalyanları birləşdirən canavar, Avropanın və dünya sivilizasiyalarının türk mənşəyi

Sovet dövründə orta məktəblərdə daha çox tarix fənnindən məlumatlı və maraqlı olduğum qədim Roma imperiyası idi. Bu imperiya haqqında olduqca çoxlu məlumatımız var, ancaq ki, məni düşündürən həmişə bir məqam, Romul və Remə analıq etmiş canavar idi. Baxmayaraq ki, sovet dövründə türk tarixi yasaq olsa da bizim türk mənşəli olduğumuz haqda azca da olsa məlumatım var idi və onu da bilirdim ki, boz qurd yəni boz canavar biz türklərin xilaskarı olmuşdur. Sözün düzü mən uşaq vaxtlarımdan hiss edirdim ki, nəyi isə bizə düz danışmırlar. Sonrakı araşdırmalarım uşaqlıq şübhələrimin əsaslı olduğunu göstərdi. Həqiqətən də elmi əsaslara görə indiki italyanlar, daha doğrusu

Apennin yarımadasının qədim sakinləri Etrusklarla eyni kökə mənsub olduğumuz barədə əsaslı, çoxlu mənbələrə rast gəldim.

İlk öncə onu qeyd edim ki, bütün türk tayfalarını, şərq və yaxın şərq tayfaları ilə yanaşı qoca qitə adlandırdığımız Avropanın müxtəlif tayfalarını birləşdirərək Reyn çayından Volqa çayınadək böyük imperiya yaradan Böyük Türk Hun imperiyasının rəhbəri Atillanın (434-453) rəhbərliyi dövründə bütün qitə boyu xalqların böyük köç prosesi daha da güclənmişdi. Atillanın Roma imperiyasını zəbt edərək 465-475 illər ərzində idarəçiliyi dövründə Avropaya eləcə də Apennin yarımadasına türk hun ordusu ilə yanaşı türk mənşəli xalqların köç etməsi də təbii bir proses idi. Atillanın türk hun mənşəli olması dünya tarixində aksiomadır və Atillanın adının mənşəcə “Atil”, “İtil” yəni türklərin adlandırdığı Volqa çayından yaxud “atlı” vəya “ata” sözlərindən götürüldüyü görünür. Hər üç halda sözün kökü türk mənşəlidir.

Görünən isə odur ki, Atilla bütün Avropanı eləcə də Apennin yarımadasını tutaraq xalqların böyük köç prosesi fonunda ora türk mənşəli tayfaların və onların mədəniyyətinin, mifologiyasının da gəlməsi ehtimalını çox yüksək edir. Ancaq qeyd etdiyim dövrdən xeyli qabaqlar da Apennin yarımadasına türklərin köç etməsi və məskunlaşması tarixi faktlarla öz təsdiqini tapır.

Bir maraqlı faktı nəzərinizə çatdırmaq istəyirəm ki, hələ eramızdan əvvəl 1-ci minillikdə Apennin yarımadasında etrusklar deyilən qədim sivilizasiya mövcud olub. Maraqlısı isə odur ki, alimlərin gəldiyi nəticəyə görə etrusklar 3 böyük köç prosesi nəticəsində yəni, şərqi Aralıq dənizi sahillərlindən, daha doğrusu Anadoludan, Alp dağları sakinlərindən və şimali Xəzər dənizi sahillərlindən köç edən skiflərdən formalaşıb.

Türk tayfaları isə Anadoluda daha qədim tarixdən, ən azı 5 min il əvvəlki tarixlərdə məskunlaşmışlar. Bunu, Anadolu əyalətində Hakkaridə tapılmış 4-5 min illik türk məzarları sübut edir. Eləcə də Anadoluda müxtəlif ərazilərdə türk rəmzləri, qayaüstü rəsmlər, damğalar və qəbir daşları türk tayfalarının Anadoluda daha qədimdən yaşadığını sübut edir.

Əlbəttə ki, həmin dövrdə Anadoludan və Xəzər sahillərindən Apennin yarımadasına köç edənlərin etnik mənşəcə türk tayfaları olması barədə olduqca çox tarixi mənbə mövcuddur. Bütün bunlara baxmayaraq Rusiya Elmlər Akademiyasının Genetika institutunun Alman, ABŞ, Fransa həmkarları ilə birgə apardıqları genetik araşdırmaların nəticəsində skiflərin türkdilli olduqları təsdiq edildi və araşdırmanın nəticələri elmi material kimi "Nature Communications" jurnalında dərc edilib.

Qədim dünya tarixçiləri Korneli Tacit qədim Roma tarixinə aid "Annal" əsərində, Roma tarixçisi Tit Liviy "Şəhərin qurulma tarixi" əsərində o cümlədən Strabon, Herodot, Pliniy öz əsərlərində təsdiqləyirlər ki, etrusklar şərqdən gələn yadellidirlər. Alman yazıçı A. Şimide çıxışların birində "almanlar etrusklara türk demişlər" deyə bildirmişdir.

1924-cü ildə Fransanın Vişi şəhərində tapılmış eramızdan əvvəl təxminən XXV–ci əsrə aid "Glozel kitabələri" adlanan mətinləri on illərlə Avropa dilçi alimləri deşifrə etməyə çalışıblar. Təsadüfən Paris pianoçusu H. Tarcan kitabənin türk dilindəki sözlərinə diqqət yetirmiş, onları qədim dillərdəki türk mütəxəssisi K. Mirşənə göndərmişdir.1993-cü ildə K. Mirşən Sorbonna Universitetində bir konfransda məruzə edən "Glozel kitabələri" türk dillərindən istifadə edərək mətnini deşifrə edə bilib.

Qədim etrusk əfsanəsinə görə, Eneyin törəmələri Romul və Rem sahibsiz qaldıqda onları bir dişi canavar (böru, qurd) əmizdirir və onları ölümdən xilas edir. Bu əkiz qardaşlar Roma

şəhərinin əsasını qoyur. Mifoloji inanc baxımdan etrusklarda da türklərin qayı boyunun, monqolların qıyat soyunun dişi bozqurd əfsanəsinə uyğun məzmundadır.

Etruskları türklərlə bağlayan başqa bir oxşarlıq eyni əlifbadan, yəni Orxon-Yenisey abidələrinin yazıldığı runik əlifba ilə eyni qaynaqdan olan əlifbadan istifadə etmələridir. Məlumdur ki, hər bir türk tayfası eləcə də ailə nəslin öz damğası ilə tanınıb. Məsələn, yaba deyilən bir alət, "Y" hərifini xatırladan bir işarə nəsil və ya tayfa damğası kimi istifadə olunub və bu xüsusiyyətlərinə görə türklərin ilk əlifba yaratması və istifadə etməsi təbii proses olub. "Türk mənşəli Etrusk və italyan dili" kitabında göstərildiyi kimi etrusk, və italyan dilinin əsasında türk dili və əlifbası durur. Hətta alman hərfi işarələri (runları) türk mənşəlidir.

Apennin yarımadasında yaşamış etrusklardan dövrümüzə 2500-3000 illik tarixə malik 10 minə yaxın yazı çatmışdır. 200 ildən artıq dövrdə həmin yazıların deşifrəsi ilə məşğul olanlar nəzərə çarpan irəliləyişlər əldə etməsələr də müəyyən qədər sözlər deşifrə olunub. Deşifrə olunan sözlərin hamısı türk mənşəlidir: auil-il-aul-el, lup-ölü, mi-mən, clan-oğlan-klan, ina-iynə, zer-yer, han-qan, ful-yol və sair.

Göründüyü kimi italyanların türk mənşəli olması tarixi sübutlara, linqvistik, elmi, genetik araşdırmalara söykənir. Roma şəhərinin simvolu kimi isə tarixə düşmüş dişi canavar italyanların həm də türk mənşəyinin simvoludur.

Araşdırmalarım zamanı topladığım məlumatlar həqiqətən əsaslı məntiqə sığan elmi faktlardır, istərdim ki, aşağıda qeyd edəcəyim məlumatları da sizinlə bölüşüm. Bəşəriyyətin əsasında türk etnosunun durması artıq danılmaz bir elmi faktdır. Belə qənaətə, türk dilli alimlər, araşdırmaçılar, tarixçilər, filoloqlar deyil, məhz qərb alimləri gəlir. Bəli, türk etnosunun və türk dili-

nin insanlıq sivilizasiyasının əsasında olmasını sübut edən saysız dəlil, tarixi mənbə, elmi araşdırma nəticələri var.

Avropa xalqlarının əksəriyyətinin dilinin türk dili təsirindən formalaşması çoxlu mənbələrə əsaslanan danılmaz bir faktdır. Müasir dövrümüzdə də belə araşdırılmalar davam edir. Rus alimi, Hüquq Elmləri üzrə doktor, general-polkovnik Vladimir İliç Kolesnikov elmi araşdırmalarının nəticəsi kimi "rusların 90% türk mənşəlidir" deyə qeyd edir.

Rus tarixçisi, qədim sivilizasiyalar üzrə tədqiqatçı Nataliya Soklakova araşdırmasının nəticəsində sensasiya xarakterli nəticəyə gəlib və qeyd edir ki, "Əgər bütün alimlər və tədqiqatçılar türk tarixini dəqiqliklə araşdırsalar, onda biz bütün dünya tarixini və bütün kitabları təzədən yazmalı olacayıq" . Natalya Soklakova Cənubi Amerika Maya sivilizasiyasının türk dilli olduğunu iddia edir və bunu elmi baxımdan əsaslandırır.

Əlbəttə ki, bu qeyd edilən faktlar heç də gizli olmayan türk etnosunun insanlıq sivilizasiyasının özəyində durmasını təkrar-təkrar isbat edir. Türklər nəinki hərb milləti, eyni zamanda elmi və texniki biliklərə malik millət olublar. Türklərin okeanlar aşaraq qitələrə yayılması ancaq texniki və elmi baxımdan mümkün idi.

## Oğurlanmış qələbəmiz! Bakıya niyə "Qəhrəman şəhər" adı verilmədi?

Ruslarda türkəfobiya çox yüksək həddədir, səbəb də odur ki, türklər rusların həm genetik tərkibinin eyni zamanda da, onların bir xalq kimi formalaşmasında mühüm rol oynamışdır. Türklərdən dövlətçilik, imperiya hisslərinə yiyələnmiş ruslar, türklərin onlardan daha qədim tarixə malik olması, mədəni, elmi, ən başlıcası mükəmməl şanlı hərb tarixinə malik qəhrə-

man xalq olması ruslarda kompleks yaratmış və bu kompleks rus şovinizminin tərkib hissəsinə çevrilmişdir. Məhz ona görə də ruslar daha doğrusu slavyanlar xristianlığı qəbul edəndən sonra yunanların təsiri ilə türk dövlət idarə sistemindən və titullarından imtina etməklə türklərlə bağlı hər bir faktı, türk təsirini gizlətməyə, tarixi dəyişməyə cəhd etmişlər. 988-ci ildən başlayaraq ruslar (slavyanlar) yunan pravoslav xristianlığını qəbul etdikdən sonra türkəfobiya daha da proqressiv şəkildə inkişaf etmişdir. (Türk Yunan qarşıdurması nəticəsində yunan imperiya və dövlətlərinin süquta yetməsi yunan xalqında türklərə qarşı tarixi qisas hissi yaşadır).

İkinci dünya müharibəsində 15 müttəfiq respublikalardan biri olduğumuz SSRİ-nin faşizm üzərindəki qələbəsinin ruslar tərəfindən özəlləşdirilməsi, türk xalqlarının fədakarlığı və qəhrəmanlığının arxa plana keçirilməsi, həmin dövrün tarixi faktlarının dəyişdirilməsi ruslarda türkəfobiyanın davamı idi.

SSRİ tərkibində İkinci dünya müharibəsinə (Böyük Vətən müharibəsi) qoşulan Azərbaycan SSR faşizmə qarşı vuruşmağa 681000 əsgərini göndərib, onlardan 350 mini, yəni yarısından çoxu, ümumi əhalisinin 10%-dən çoxu canlarını faşizmlə mübarizədə qurban verdilər. Azərbaycan SSR əhalisinin sayı həmin dövrdə 3,4 milyon nəfərə yaxın idi, bu nisbətdə Azərbaycan əhalisinin 20% müharibənin bir başa iştirakçısı olmuşdur, 121 nəfər Sovet ittifaqı qəhrəmanı, 34 nəfər isə "Şərəf" ordeninin hər üç kateqoriyasına layiq görülmüşdü. 400-dən çox azərbaycanlı SSRi-nin müxtəlif orden və medallarına layiq görülmüşdür.

Arxa cəbhədə də Azərbaycan əhalisinin qalan hissəsi faşizmin məğlub edilməsinin əvəzsiz və bərabəri olmayan Bakı neftinin sovet ordusunu 85% neft məhsulları və yanacaqla, ərzaqla təmin etməsi, sovet ordusunun hospital funksiyasını yerinə yetirməsi, bütün Azərbaycan əhalisinin zəhməti, fədakarlı-

ğı və qəhrəmanlığının lazımınca qiymətləndirilməməsinin yenə də bir səbəbi var, türkəfobiya! Bakı neftinin Hitler üçün nə qədər vacib olması haqda 1945-ci ildə Alman hərb sənayesi naziri Şpeer ifadəsində SSRi-ə faşist Almaniyasının hücum səbəbini Almaniyanın neft ehtiyacını ödəmək istəyindən olduğunu bildirmişdir. Hitler SSRİ-ə hücumdan əvvəl demişdi ki, "Biz nə qədər tez Bakı neftini ələ keçirsək o qədər tez sovet təyyarə və tanklarının eləcə də dəmir oyuncaqlarının hərəkətini dayandırarıq". "Felmi" planına əsasən almanlar Bakını 25 sentyabr 1942-ci il tarixdə tutmalı idi. Bu məqsədlə də 1942-ci ildə Berlində Bakını xatırladan(dekorasiya) çəkiliş meydanında Bakının alman ordusu tərəfindən tutulması barədə filmin çəkilişinə başlanılmışdı. Həmin filmin ssenarisində Bakı neft tortu Hitlerə təqdim edilir və Hitler tərəfindən tort kəsilirdi.

Bakı neftinin faşizm üzərində qələbə üçün nə qədər əhəmiyyətli olması mübahisə predmeti deyil, təkcə 1941-ci ildə Azərbaycan neftçiləri 23.5 milyon ton, yəni SSRİ neftinin 90%-ni istehsal etmişdi, 1942-ci ildə Azərbaycan neftçiləri isə plan üzrə aviabenzin 134%, dizel yanacaq 139.6%, kerosin 102%, avia sürtmə yağ 106%, gəmi yanacağı 162% istehsalını yerinə yetirib. Xüsusi ilə qeyd edim ki, Azərbaycan neftçiləri SSRİ üzrə çıxarılan və istehsal olunan neftin 75 %-ni, müharibə aparan Sovet ordusunun sürtmə və yanacağının 85%-ni təmin edirdi. Soyuq sovet iqlim şəraitində Moskvanın 15 kilometrliliyinə qədər gəlmiş alman ordusunun durmasının əsas səbəblərindən biri də hərbi texnikada yanacağın donma səbəbi idi. 1943-cü ildə Azərbaycan neftçiləri və alimləri soyuğa davamlı yanacaq kəşf edərək onun istehsalına başlayaraq Sovet ordusunu daha qabaqcıl yanacaqla təmin etmişlər.

Rusiya Elmlər Akademiyası Tarix İnstitutunun professoru Mixail Yuriyeviç Muxin "Qələbənin yanacağı: Azərbaycan Böyük Vətən müharibəsində (1941-1945)" adlı kitabında Böyük Vətən müharibəsində qələbənin əsası kimi Bakı neftini göstərir və onu qələbənin yanacağı adlandırır. Bəzi tarixçilər Bakı neftini hətta "qələbənin qanı", "müharibənin qanı" adlandırırlar.

Azərbaycan əsgərlərinin qəhrəmanlığı, fədakarlığı, eləcə də ikinci dünya müharibəsində Sovet ittifaqının qələbəsini təmin etmiş Azərbaycan Bakı neftçilərinin ölçüyə gəlməz zəhməti, Azərbaycan əhalisinin arxa cəbhədəki rolu, hər şey ordu və vətən üçün çalışmaları layiqincə qiymətləndirilmədi. SSRİ-nin müharibədə qələbəsini təmin edən Bakıdan xeyli dərəcədə az xidmətləri olmuş şəhərlərə "Qəhrəman şəhər", "Hərb şöhrətli şəhər" adları verildi. Belə fəxri adın Bakıya verilməməsi Bakının ikinci dünya müharibəsində xidmətlərini gizlətmək, başqalarının yanında bizi alçaltmaq idi. Baxmayaraq ki, faşizm üzərində qələbəmizdən 70 ildən çox vaxt keçsə də Moskva tərəfindən bəzi şəhərlərə - 1941-1945-ci il Böyük Vətən müharibəsində qələbəyə görə müəyyən xidmətləri olmuş şəhərlərə müxtəlif fəxri adlar verilir. Ölçüyə gəlməz dərəcədə xidməti olmuş və qələbənin yanacağı adlanan Bakıya heç bir fəxri ad verilməyib. Sözsüz ki, bu türkəfobiyanın sübutudur.

1945-ci il 21 aprel ayında faşizmin paytaxtı Berlinin böyük bir hissəsi Taqanroq Azərbaycan diviziyasının əlində idi. Xatırladaq ki, Taqanroq Azərbaycan diviziyası Berlinə ilk girən diviziyalardan biridir. Bundestaq, Brandenburq və onun ətrafında gedən döyüşlərdə almanların müqavimətini may ayının 2-də qıran Azərbaycan Taqanroq diviziyasının döyüşçüləri leytenant Məcidovun rəhbərliyi ilə əsgərlər Məmmədov, Əhmədzadə, Brejnoy və Andreyev Reyxstaq üzərində qələbə bayrağı taxmışdı. Bu haqda məlumatlanan marşal Jukov "Reyxstağa qələbə

bayrağını rus əsgəri sancmalıdır" deyərək hiddətini gizlədə bilmir və bunun üçün lazımi tapşırıq və əmrini verir. Dərhal hadisə yerinə hərbi fotoqraf Yevqeni Xaldeyin gətirilir. Milliyyətcə rus zabit Reyxstağa qələbə bayrağını sancan Taqanroq diviziyasının azərbaycanlı əsgərlərini çağıraraq onların göz qarşısında əsgər Məmmədovu güllələyir, digər əsgərləri hədələyərək ömürlük susmağı əmr edir. Bundan sonra qəzəblənən azərbaycanlı əsgər qumbara ilə həmin zabiti öldürür. Azərbaycanlı əsgər həbs olunaraq Sibirə sürgün edilir.

Marşal Jukovun tapşırıqları dərhal yerinə yetirilir, səhnələşdirilmiş səkildə milliyyətcə rus Aleksey Kovalyov SSRİ qırmızı bayrağını Reyxstaq üzərinə sancır, bu səhnəni hərbi fotoqraf Yevqeni Xaldeyin lentə köçürür və məhz bu foto dünya ictimaiyyətinə yayımlanır. Beləliklə də rusların növbəti yalanı ayaq tutub yeriyir. Fotoqraf Yevgeni Xaldeyin sonralar xatirələrində bu səhnənin lazımi nəticə alınana qədər bir neçə dəfə təkrarlandığını qeyd edib. Ruslar Böyük Vətən müharibəsindəki qələbəni rusların qələbəsi, rus əsgərinin qəhrəmanlığı kimi təqdim etməklə SSRİ xalqlarının faşizm üzərində qələbəni mənimsəyiblər.

Özünü SSRİ-nin varisi elan etmiş Rusiya ikinci dünya müharibəsində (Böyük Vətən müharibəsi) Azərbaycan xalqının xüsusi xidmətlərini gizlədərək saxtalaşdırması bir xalq kimi bizi qəhrəmanlıq nümunələrimizdən məhrum etməklə bizim qəhrəman, fədakar xalq kimi özümüzə inamımızı azaltmaq, hərb xalqı olduğumuzu unutdurmaqdır. Bu istək isə əsrlərlə onlarda türkəfobiyaya çevrilmiş türk qorxusunun nəticələridir.

# 4-cü fəsil

## Rus təhlükəsi

"Həqiqət,
onu qəbul edənlər üçün yox,
onu dərk edənlər üçün həqiqətdir!"
**Vüqar Dadaşov**

### Rus dilinin Azərbaycanda geniş təbliği müstəqilliyimizə, ərazi bütövlüyümüzə birbaşa təhlükədir

Rus dilinin dünyada və keçmiş MDB ölkələrində mövqeyini itirdiyi halda Azərbaycanda isə əksinə daha da nüfuz qazanması, təbliği doğma ana dilimizin nüfuzunun zəifləməsinə əsas olmaqla həm də siyasi baxımdan da dövlətçiliyimizə və müstəqilliyimizə təhlükə mənbəyidir. Rusiyanın Gürcüstana hücumu və Abxaziya - Osetiyanın işğalının əsas səbəbi Rusiyanın rusdilli vətəndaşlarının müdafiəsi adı altında baş verdi. Eyni hadisələr də Ukraynanın Luqanski və Donetski vilayətlərində rusdilli əhalinin müdafiəsi adı altında təkrarlandı.

Moldova Respublikasının Dinestryanı vilayəti də 1990-cı illərdə rusdilli əhalinin qorunması adı altında Rusiya tərəfindən işğal edilib və bu gün də de-fakto qondarma respublika şəklində Rusiyanın bir əyalətidir.

Doğma Ana Dilimizə hörmətsizliyimiz o həddə çatıb ki, biz mədəni görünüş yaratmaq naminə, başqalarının xoşuna gəlmək naminə öz dilimizdən imtina edirik. Dahi Sokrat deyib ki, " Danış ki, səni görüm". Dil xalqımızın varlığı, yaşaması və görünməsi deməkdir. Humboldtun isə "Dil xalqın ruhunun təzahürüdür; dil onun ruhu, ruh isə onun dilidir" kəlamı daima

yaddaşımızda olmalıdır. Heydər Əliyev: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir" demişdir.

Bəs biz niyə dilimizə bu qədər hörmətsizlik edirik? Bilmirik ki, bir xalqı məhv etmək üçün onun dilini əlindən almaq kifayətdir?!

Nəzərimizdən qaçan bir halı qeyd edim ki, Azərbaycanda 2018-ci il üçün rusdilli məktəblərdə yer çatışmamazlığı barədə KİV-də, elektron media və sosial şəbəkələrdə geniş yayılan məlumat hamımızı düşündürməli idi, təəssüf ki, bu hala münasibət bildirən ziyalılarımız (yox səviyyəsindədir) və siyasətçilərimiz demək olar ki, olmadı. Azərbaycanımızın paytaxtından tutmuş əyalətlərinə qədər hər yerdə rus dilli məktəblər, rus kitabxanaları, rus incəsənət və mədəniyyət evləri, nəhayət rus ali təhsil ocaqlarının filialları və sair fəaliyyətdədir. Azərbaycan vətəndaşları olan və Azərbaycanda daima yaşayan ruslar demək olar ki, Azərbaycan Respublikasının dövlət dilində bilmir və danışmırlar. Azərbaycan dilini bilən ruslar isə məqsədyönlü olaraq Azərbaycan dilində danışmırlar. Əlbəttə , əgər ki, ruslar buna ehtiyac və tələb görsəydilər Azərbaycan dilinə hörmətlə yanaşar və vətəndaşı olduqları Azərbaycan Respublikasının dövlət dilini bilərdilər. Bu rusların yox, bizim öz günahımızdı. Digər məlumat isə məni daha çox sarsıtdı: işğal altındakı rayonlarımızdan olan məcburi köçkünlər öz uşaqlarını rus dilli məktəblərdə oxutmağa üstünlük verirlər, rus dilli məktəblərin sıxlığının və tələbatın artmasının əsas səbəblərindən biri də budur.

Əlbəttə ki, xarici dil bilməyin daha çox üstünlüyü var və bu barədə danışmağa belə dəyməz, ancaq ki, Azərbaycanda rus dilli məktəblərdə rus dili deyil, rus həyat və düşüncə tərzi, mədəniyyəti, rusların "aliliyi", rus "şanlı tarixi" təbliğ olunur. Rus dilli məktəblər Azərbaycanda faktiki olaraq rus mentalitetli, milliy-

yəti türk, mənəviyyatı rus insanları bir konveyir şəklində yetişdirir və təbii ki, belə düşüncəli gələcək nəsil üçün Azərbaycanın identikliyi, müstəqilliyi heç bir məna kəsb etməyəcək. Görünən də odur ki, artıq biz bir millət kimi "özünü məhv etmə" mexanizminin işə düşdüyündən heç narahat deyilik.

Bir faktı da qeyd edim ki, 2013-cü ildən başlayaraq Rusiya keçmiş SSRİ ölkələrində yerləşən səfirlikləri vasitəsi ilə 1991-ci ilə kimi keçmiş SSRİ-də anadan olmuş şəxslərə sadələşdirilmiş formada Rusiya vətəndaşlığı təklif edir.

Azərbaycanın qərb bölgəsinin sakinlərinin əksəriyyətinin Rusiya vətəndaşı olması danılmaz faktdır.

Baxmayaraq ki, bu gün Rusiya ilə Azərbaycanın münasibətlərinin normal olması və ya Azərbaycanın Rusiyaya loyal münasibəti (bəlkə də görünən loyallıq qeyd edilən amillər hesabınadır) yuxarıda qeyd edilən təhlükəni arxa plana keçirib, ancaq qeyd edilən hallar Rusiya tərəfindən hər zaman istifadə oluna bilər, bu ehtimal həddindən artıq çox yüksəkdir və müstəqilliyimizə, ərazi bütövlüyümüzə bir başa təhlükədir.

Əlavə olaraq qeyd edim ki, ana dilimizlə bağlı hazırladığım təkliflər Milli Məclisə və inzibati orqanlara hələ 2017-ci ilin aprel ayında ünvanlanıb, təkliflərimizdən ancaq və ancaq "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nda dəyişikliklər qəbul edilmiş, yəni rus sektorunu bitirən abituriyentlərin Azərbaycan dilindən imtahan verilməsi bərpa edilmişdir.

Əgər bu gün təxirəsalınmaz tədbirlər görülməsə Rusiya Azərbaycan Respublikası ərazisində öz vətəndaşlarını və rus dilli əhalinin qorunması adı altında Azərbaycanda yeni Dnestr yanı, Abxaziya, Cənubi Osetiya, Luqanski, Donetski yarada bilər. Buna biz özümüz şərait yaratmışıq və məsuliyyəti də öz üstümüzdədir.

## Rusiya Prezidenti V.V. Putinə ünvanlanmış məktub

Rusiya Prezidenti Vladimir Putin qaynar və bir başa xətlə növbəti dəfə vətəndaşların suallarını canlı yayımda cavablandırmağı adət halını almışdı. 2001-ci ilin dekabrın 24-dən başlayaraq 2018-ci ilə kimi 16-cı dəfə keçirilmiş bu proyekt üzrə dünyanın hər tərəfindən daxil olmuş suallara bir başa Vladimir Putin özü şəxsən cavab verirdi. Sualları müasir texnologiya vasitələri ilə vermək mümkün idi. Odur ki, fürsətdən istifadə edərək Vladimir Putinə məni və xalqımızı narahat edən başlıca problemimiz olan doğma Qarabağımızla bağlı sual ünvanladım. Məktubun mətnini təqdim edirəm.

"Hörmətli Vladimir Vladimiroviç, mən 1-ci Qarabağ müharibəsi veteranı kimi canlı şahidəm ki, məhz Rusiyanın bir başa dəstəyi nəticəsində Ermənistan Qarabağı və Qarabağa bitişik 7 rayonumuzu işğal etmişdir. Çox şübhəsiz ki, Sizə Rusiya tarixindən məlumdur ki, məhz Rusiya imperiyası Azərbaycanın əzəli torpaqlarında bu gün Ermənistan adlan dövləti yaratmışdır.

1920-ci ildə 114000 kv. km ərazili müstəqil Azərbaycan Xalq Cümhuriyyəti bolşevik Rusiyası tərəfindən işğal edilərək zorla sovetlər birliyinə qatılmışdır. 1991-ci il SSRİ-nın süqutundan sonra müstəqilliyini yenidən qazanmış Azərbaycan Respublikası SSRİ birliyini 86600 kv. km ərazi ilə daha doğrusu 27400 kv. km ərazi itkisi ilə tərk etmişdir.

Bu azmış kimi, müstəqilliyimizin ilk günlərində Rusiya Federasiyasının bir başa dəstəyi nəticəsində əzəli Azərbaycan torpaqlarında yaratmış olduğunuz Ermənistan adlı dövlət müstəqil Azərbaycanın 20% ərazisini işğal etmişdir.

2016-cı ilin aprel ayında 4 günlük müharibə adi ilə tarixə düşmüş Azərbaycan ordusunun əks həmləsi nəticəsində işğaldan bir sıra torpaqlarımız azad edilmişdir. Ancaq ki, həmin günlərdə

Rusiyanın Azərbaycana müxtəlif təzyiqləri ilə döyüş əməliyyatlarını dayandırmağımızı tələb etməyiniz və bizi 08.08.2008-ci il tarixli Gürcüstanın başına gətirdiklərinizin təkrarlanacağı ilə hədələdiyinizdən Azərbaycan ordusu Qarabağın azad edilməsini dayandırdı.

90-cı illərdə Çeçenistan müstəqilliyini elan etdi, ancaq ki, məhz sizin hakimiyyətə gəlişinizdən sonra Rusiya federal hərbi qüvvələri Çeçenistana yeridilərək Çeçenistan üzərində Rusiyanın konstitusion qayda və qanunlarını bərpa etdi. Bu müharibə 20-ci əsrin ən dəhşətli müharibəsi kimi tarixə düşdü.

Sualım belədir: Niyə görə Çeçenistanda Rusiyanın öz konstitusion qayda və qanunlarını bərpa etməsi haqlı, Azərbaycanın isə Qarabağda öz konstitusion qayda və qanunlarını bərpa etməsi haqlı deyil? Hörmətli Prezident Vladimir Vladimiroviç, cavabınızda səmimi olmağınızı xahiş edirəm.

Qarabağ müharibəsi veteranı Dadaşov Vüqar Piri oğlu.”

07.06.2018-ci il tarixdə keçirilmiş “Vladimir Putinlə bir başa əlaqə” proyektində Prezident Putin sualımıza bir başa efirdə cavab verməsə də qoyduğum suala sonradan rəsmi cavab aldım.

МИНИСТЕРСТВО ИНОСТРАННЫХ ДЕЛ
РОССИЙСКОЙ ФЕДЕРАЦИИ
ЧЕТВЕРТЫЙ ДЕПАРТАМЕНТ
СТРАН СОДРУЖЕСТВА
НЕЗАВИСИМЫХ ГОСУДАРСТВ

01 августа 2018 года
№ 6916/4 дснг

В.П.ДАДАШОВУ

адрес электронной почты: iqush72@mail.ru

Уважаемый Вугар Пири оглы,

В 1994 г. стороны нагорно-карабахского конфликта договорились об установлении режима прекращения огня для того, чтобы положить конец трагическому кровопролитию, и приняли посредничество ОБСЕ с целью поиска мирного решения путем переговоров.

Сопредседатели Минской группы ОБСЕ (Россия, США и Франция) оказывают содействие сторонам в достижении мирной договоренности на основе Устава ООН, Хельсинкского Заключительного акта, других основополагающих документов ООН и ОБСЕ, с учетом содержащихся в них принципов неприменения силы или угрозы применения силы, территориальной целостности государств, равноправия и права народов на самоопределение.

В своей посреднической работе Россия исходит из коренной заинтересованности азербайджанского и армянского народов в установлении мира и достижении процветания.

С уважением,

ЧЕТВЕРТЫЙ ДЕПАРТАМЕНТ
СТРАН СНГ

АДМИНИСТРАЦИЯ ПРЕЗИДЕНТА
РОССИЙСКОЙ ФЕДЕРАЦИИ

**УПРАВЛЕНИЕ
ПРЕЗИДЕНТА РОССИЙСКОЙ ФЕДЕРАЦИИ
ПО РАБОТЕ С ОБРАЩЕНИЯМИ ГРАЖДАН
И ОРГАНИЗАЦИЙ**

ул. Ильинка, д. 23, Москва, Российская Федерация, 103132

ДАДАШОВУ В.П.

iqush72@mail.ru

704977

«26» июня 2018 г.

№ А26-02-70497771

Ваше обращение на имя Президента Российской Федерации получено 26.06.2018 г. в форме электронного документа и зарегистрировано 26.06.2018 г. за № 704977.

В связи с тем, что в Вашем заявлении отсутствуют сведения о рассмотрении поставленного в обращении от 26.06.2018 г. за № 704977 вопроса Министерством иностранных дел Российской Федерации, в компетенцию которого входит его решение, для обеспечения получения Вами ответа по существу поставленного Вами вопроса Ваше обращение направлено в Министерство иностранных дел Российской Федерации.

Советник департамента письменных
обращений граждан и организаций — А.Ицкович

Sözü gedən sual 07.06.2018-ci il tarixdə keçirilmiş "Vladimir Putinlə bir başa əlaqə" proyektində Rusiya Prezidentini tərəfindən cavablandırılmadığına görə qoyulmuş sual sonradan bütün elektron vasitələrlə dəfələrlə Prezident Putinə ünvanlanmış və bu məsələ də Azərbaycan KİV-də və elektron mediada geniş işıqlandırılmışdı.

Rusiya Federasiyası President Administrasiyasından 26.06.2018-ci il tarixli

A26-02-70497771 saylı Dadaşov Vüqar Piri oğluna ünvanlanmış cavabdan görünür ki, Rusiya Federasiyası Prezident Administrasiyası sualı Rusiya Federasiyası Xarici işlər Nazirliyinə yönəldərək Vladimir Putin qarşısında qoyulan sualdan yayınmışdır.

Rusiya Federasiyası Xarici İşlər Nazirliyi Rusiya Federasiyası Prezident Administrasiyasından ona yönəldilmiş "Niyə görə Çeçenistanda Rusiya öz konstitusion qayda və qanunlarını bərpa edə bildiyi halda Qarabağda Azərbaycan öz konstitusion qayda və qanunlarını bərpa etməyə haqlı deyil?" 1-ci Qarabağ müharibəsi veteranının sualını 01.08.2018-ci il tarixli 6926/4ДСНГ saylı sənədlə formal olaraq ümumi sözlərlə cavablandırmaqla qoyulmuş suala mahiyyəti üzrə cavab verə bilmədiyi və ya cavab vermək istəməməsi, məsələdə maraqlı olduğunun sübutu kimi qiymətləndirilməlidir.

Rusiya Federasiyasının Qarabağ konfliktinin ədalətli həllində maraqlı və israrlı olması Qafqazda süni şəkildə yaranmasında xüsusi xidməti olmuş Rusiyanın Ermənistan dövlətinə, Azərbaycan Respublikasına və ümumilikdə Qafqaza təsir rıçaqından imtinası deməkdir! Rusiyanın Qafqaz və keçmiş SSRİ dövlətlərinə qarşı siyasətindən və maraq dairəsindən uzaqlaşması yaxın perspektivdə mümkünsüzlüyü Ermənistan tərəfindən

işğal olunmuş Azərbaycanın Qarabağ və ətraf rayonlarının işğaldan azad olunmasını əngəlləyir.

## Rusiya Qarabağa görə məsuliyyət daşıyır

Rusiya rəsmi orqanlarına, 14 may 1805-ci il tarixli "Kürəkçay müqaviləsi"nə dair Rusiyanın üzərinə götürdüyü beynəlxalq öhdəliklərin icrası və məsuliyyəti barədə müraciət ünvanlamışdım. Müraciətin məzmunu aşağıdakı mətndən ibarət idi:

"Tariximizdə "Kürəkçay müqaviləsi" kimi tanınan, rəsmi sənədlərdə isə "Qarabağ Xanı ilə Rusiya İmperiyası arasında xanlığın Rusiya hakimiyyəti altına keçməsi barədə 14 may 1805-ci ilin Traktı" kimi əks etdirilən müqavilə 11 artikuldan ibarətdir. Sözü gedən müqavilə Qarabağ və Şuşa Xanı İbrahim xanla Rus imperiyasının və İmperatorunun Qafqaz üzrə nümayəndəsi, Rusiya ordu generalı knyaz Pavel Sisianovla bağlanmış beynəlxalq müqavilədir. Həmin dövrdə Qarabağ və Şuşa Xanlığı 18000 kv. km əraziyə və müstəqil dövlət atributlarına malik, Rusiya arxiv sənədlərində və eləcə də sözü gedən müqavilədə feodal dövlət kimi göstərilirdi.

Sözü gedən Traktın 2-ci artikulunda Qarabağ və Şuşa Xanlığının ərazi bütövlüyünün saxlanmasına, xanlığın idarəçiliyinin İbrahim xanın özündə və sonradan varislərində saxlanılması eləcə də əhalinin qorunmasını Rusiya imperiyası öhdəlik kimi boynuna götürür və imperator zəmanəti verirdi.

Traktatın 5-ci artikulun 2-ci bəndində Rusiya Qarabağ və Şuşa Xanlığında hakimiyyətin fasiləsiz İbrahim Xanın varislərində saxlanmasına İmperator zəmanəti verilmişdi.

Müqavilədən bir il sonra İbrahim Xanı və onun ailəsini qorumalı olan heyətin komandiri mayor Lisaneviç İbrahim xanı və

onun ailəsini qətlə yetirir. 1822-ci ildə imperatorun fərmanı ilə Qarabağ və Şuşa xanlığı ləğv edilir, yerində əyalət təşkil edilir və rus imperiyasının inzibati idarəetmə sistemi formalaşdırılır. Ləğv edilmiş Qarabağ və Şuşa Xanlığı 1840-cı ilə kimi Şuşa əyaləti (uyezdi) kimi adlandırılırdı. 1840-cı ildə ləğv edilmiş Qarabağ və Şuşa xanlığı yerində təşkil edilmiş Şuşa əyaləti də Zəngəzur, Cavanşir və Cəbrayıl əyalətinə (uyezdınə) bölünür. Beləliklə Rusiya imperiyası "Qarabağ xanı ilə Rusiya İmperiyası arasında xanlığın Rusiya hakimiyyəti altına keçməsi barədə 14 may 1805-ci ilin Traktatı"nın şərtlərinin tam əksinə gedərək Qarabağ və Şuşa Xanlığını və hakim ailəni məhv edir. Rusiya bundan sonra da Qarabağda əhalinin etnik tərkibinin dəyişdirilməsi prosesini gücləndirir  və yaxın şərqdən erməniləri kütləvi şəkildə Qarabağa yerləşdirirdi. Sonradan ermənilər Qarabağda möhkəmlənmək məqsədi ilə Rusiyanın bilavasitə köməyi ilə azərbaycanlıları  soyqırıma (1905-1906, 1918, 1992) məruz qoydular.

1917-ci ildə Rusiya imperiyasının süqutundan sonra, 1918-ci ildə  Azərbaycan öz müstəqilliyini əldə etsə də 1920-ci ildə 114000 kv. km  ərazili  müstəqil Azərbaycan Xalq Cümhuriyyəti bolşevik Rusiyası tərəfindən işğal edilərək zorla sovetlər birliyinə qatılmışdır. 1991-ci ildə SSRİ-nın süqutundan sonra müstəqilliyini yenidən qazanmış Azərbaycan Respublikası SSRİ  birliyini 86600 kv. km ərazi ilə daha doğrusu 27400 kv. km ərazi itkisi ilə tərk etmişdir.

SSRİ dövründə 1920-ci ldən 1986-cı ilə qədər Rusiya tərəfindən digər Azərbaycan torpaqları ilə yanaşı Qarabağ və Şuşa xanlığının tarixi əraziləri də tədricən Ermənistana verilmişdir.

1920-ci ilin 1 dekabr tarixli - Moskva rəhbərliyinin qərarı ilə Zəngəzurun böyük bir hissəsi Ermənistana verilir.

1929-cu ilin 18 fevral tarixli- Moskvanın qərarı ilə Naxçıvanın 657 kvadrat kilometrlik ərazisi Ermənistana verilir. Buraya Qurdbulaq, Horadiz, Oğbun, Almalı, İtqıran, Sultanbəy, Qarsevən, Kilid və digər kəndlər daxil idi. Bundan başqa Zəngilanın Nüvədi kəndi və Qazax rayonunun 4400 hektarlıq meşə sahəsi də Ermənistana verilir.

1930-cu il- Moskvanın qərarı ilə Əldərə, Lehvaz, Astazur və Naxçıvanın digər yaşayış məntəqələri Ermənistana verilir və həmin ərazilərdə Mehri rayonu yaradılır.

1938-ci il- Moskvanın qərarı ilə Naxçıvanın Sədərək və Kərki kəndlərinin bir hissəsi Ermənistana verilir.

1947-1953-cü illər- Moskvanın qərarı ilə 150 min azərbaycanlı kompakt yaşadığı ərazilərdən Azərbaycana köçürülür.

1969-cu il- Moskvanın qərarı ilə Laçının Qaragöl, Qubadlının Çayzəmi, Qazax rayonunun Kəmərli, Kəlbəcərin Zod kəndləri Ermənistana verilir.

1982-ci il- Moskvanın qərarı ilə İncədərə, Kəmərli kəndinin bir hissəsi, Qazaxın Aslanbəyli və Qaymaqlı kəndləri Ermənistana verilir.

1986-cı il- Moskvanın qərarı ilə Qazax rayonunun 2500 hektarlıq ərazisi Ermənistana verilir.

Göründüyü kimi Rusiya Azərbaycan xalqı qarşısında həm siyasi, həm mənəvi əsası ilə beynəlxalq hüquqi məsuliyyət daşıyır.

Beynəlxalq hüquqi məsuliyyət- beynəlxalq subyektin digər tərəf qarşısında öhdəliklərini icra etməməsindən və öhdəliklərini pozmasından yaranır. Danılmaz faktdır ki, Rusiyanın "Qarabağ xanı ilə Rusiya İmperiyası arasında xanlığın Rusiya hakimiyyəti altına keçməsi barədə 14 may 1805-ci ilin Traktı"nın şərtlərini kobudcasına pozması nəticəsində Qarabağ ərazi bütövlüyünü itirmiş, etnik tərkibi dəyişdirilmiş və idarəçiliyindən azərbay-

canlılar uzaqlaşdırılmışdır.

Beynəlxalq hüququn iki növ məsuliyyəti: siyasi və maddi məsuliyyəti var. Siyasi məsuliyyətin retorsiya, represaliya, satisfaksiya və retorasiya kimi formaları var.

Bu günki Rusiya Federasiyası həm Rusiya imperiyasının həm də SSRİ-nin varisi olmaqla BMT-nin Beynəlxalq Məhkəməsinin üzvüdür və beynəlxalq hüquq pozuntusuna yol verdiyinə görə məsuliyyət daşıyır.

Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının mehriban qonşuluq, xalqlar arası dostluq və strateji əlaqələrini nəzərə alaraq Rusiya rəsmi orqanlarına "Qarabağ xanı ilə Rusiya İmperiyası arasında xanlığın Rusiya hakimiyyəti altına keçməsi barədə 14 may 1805-ci ilin Traktı" ilə bağlı müqavilə şərtlərinin pozulması nəticəsində yaranmış vəziyyətin həlli yollarının müzakirə edilməsi üçün işçi qrup və ya birgə komissiya yaradılmalı və bu məsələdə Rusiya məsələnin həllinə dair həm hüquqi həm də siyasi addımlar atmalıdır. Əks təqdirdə isə "Kürəkçay müqaviləsi" üzrə müqavilə şərtlərini kobud şəkildə pozduğuna görə Rusiya Federasiyasının Beynəlxalq səviyyədə məsuliyyətə cəlb edilməsi üçün fəaliyyətə başalamalıyıq.




## Qarabağ Xanlığının xəritəsi

## KQB (DTK) azəri türklərinin genetik kodunu mutasiya edib

Biz azəri türklərinin milli mənliyi, ana, vətən, torpaq sevgisi, insana olan məhəbbəti, mərdliyi və qürur hissi, ləyaqəti, həqiqətən başqa dünya xalqlarına nisbətdə çox yüksəkdir (bəlkə də yüksək idi). Bu hissləri özündə saxlayan genetik quruluşumuzun zədələnməsi, mutasiya olunması ilə bağlı Milli Təhlükəsizlik üzrə ekspert, politoloq, siyasi elmlər üzrə fəlsəfə doktoru, professor Vəlizadə Rövşən Novruz oğlunun apardığı araşdırmanın nəticələri dəhşətli, vahiməli və qandondurandır. XX əsrin əvvəllərindən başlayaraq ideoloji, siyasi baxımdan bir-birlərinə düşmən olan ruslar, ingilislər, amerikalılar, fransızlar gizli sövdələşmə aparıb birləşərək Azərbaycanda biz azəri türklərinə qarşı iyrənc genetik kodumuzu dəyişdirən eksperimentlər aparıblar, Azərbaycanı sözün əsl mənasında canlı laboratoriyaya çeviriblər. **Professor R. Vəlizadənin apardığı araşdırmanın bir hissəsini heç bir dəyişilik etmədən oxucularımıza təqdim edirəm.**

“Araşdırma materiallarına görə müharibədən çıxan Sovet Səhiyyə Sistemi üçün iki milyon Amerika dolları, üstəlik əlavə olaraq Londonun ayırdığı iki milyon funt-sterlinq çox vacib idi.

1951-ci ilin noyabrın 3-də mutasiyadan sonra güllələnmiş iki azərbaycanlı qadının meyidi polkovnik M.N.Qurinin sərəncamı ilə (6 saylı sərəncam) Rostovdan Moskvaya – MN-nin 1 saylı xəstəxanasına göndərilir. Həmin ilin noyabrın 4-dən 5-ə keçən gecə isə meyidlər xüsusi, açılması qadağan hesab olunan tabutlarda Moskvadan Vaşinqtona yola salınır.

Məlumata görə leytenant V.D.Markovun meyidinin yandırılması ilə, ərazidəki ölüm hallarının dayanması eyni günə düşdüyündən, insanlar qorxu və təlaş içində idi. General A.A.

Mayorov topladığı, əldə etdiyi materiallara əsasən, Kremldəki həmkarı İ.M.Matveyevə yazırdı:”...Mənə elə gəlir ki, Dumanlı Dərədən kimsə dünyaya nəzarət edir... Bu mümkündürmü, bilmirəm. Amma bir kəşfiyyat generalı kimi qənaətlərim gizli bir həqiqətin olmasından xəbər verirdi...”

Məlumata görə 1951-ci ilin dekabrın 12-də Kreml Ağdaşın Dumanlı Dərəsilə bağlı növbəti qapalı iclasını keçirir. Həmin yığıncaqda general A.A.Mayorovun məktubu oxunur. Kəşfiyyat generalı məktubunda xatırladır ki, dəfələrlə Dumanlı Dərənin üstündə qırmızı ulduz topasını müşahidə edib. Amma bütün bunların nə olduğunu anlamır. General onu da xatırladır ki, daha heç kəs Dumanlı Dərədə yaşamaq istəmir. Orada həyat dayanıb... Amma əslində orada heç vaxt həyat sönməyib, davam edib. Bu gün də davam edir.

Kremlin Dekabr yığıncağının materialları arasında çox lazımlı və öyrənilməsi gərəkli hesab olunan ikinci bir məsələ də müzakirəyə çıxarılmışdı. Məzmun başqa da olsa, hədəf eyni idi. Şübhəsiz, biz genetik kodlarımızın zədələnməsində özünü göstərən və Kremldə müzakirəyə çıxarılan həmin məsələ ilə bağlı geniş materiallar verəcəyik.

Araşdırma materiallarına görə professor, genetik, İttifaqın MN-ə bağlı klinikaların birində işləyən Mixi Zakkayeviç Faxratdinov ona tapşırılan “Bölünmə əməliyyatı”na başçılıq etməli idi. Bəyimağacı ərazisində qurulmuş kiçik evlərdə həkim nəzarəti altında saxlanılan “mutasiya uşaqları” təcili bölünməli, nəzərdə tutulan ərazilərə aparılmalı idi. “Mutasiyadan” doğulanların doqquz iqlim qurşağı altında bölünməsi “Mk-layihəsi” adı altında icra olunacaqdı. Layihəyə görə regionlarda məskunlaşan azərbaycanlılara məxsus əsl azərbaycanlı cizgilər silinib itməli, onun yerini isə hələlik qaranlıq qalan və dərk olunmayan cizgilər əvəz etməli idi. Nəticədə əsl azərbaycanlı siması itməli

idi. O yerlərdə həqiqi azərbaycanlı doğulmamalı idi. Professor M.Z.Faxratdinov həkim dostu E.D.Serafimoviçə (qovluqdakı 56 saylı məktub) xatırladırdı ki, Siyasi Büro, bütövlükdə Kreml əsl azərbaycanlının doğulmasından qorxur. Səbəblər çoxdur...

Araşdırma materialları içərisində professor, genetik M.S.Xakimovanın da məktubu maraq doğurmaya bilmir. Məlumata görə professor M.S.Xakimova qeyd edir ki, Kreml azərbaycanlıların genetik inkişafından xüsusi bir narahatlıq keçirirdi. Professor M.S.Xakimova yazır:"...Kremldə məndən soruşdular: hər hansı bir genetik kodu öldürmək, dəyişmək və zədələmək üçün nə qədər vaxt lazımdır? Dedim: düz on il. On il lazımdır ki, gendəki milli mənliyi, torpaq sevgisini, insana olan məhəbbəti, mərdliyi və qürur hissini, ləyaqəti... nişan verən kodlar ölsün. Bundan sonra o millətin və yaxud etnik qrupun dirilməsinə heç bir lüzum yoxdur... Doğulan və doğulmaqda olan hər kəs şikəst doğulur..."

Araşdırma materiallarına görə Azərbaycan 1920-ci ildən həm Moskvanın, həm Londonun, həm Vaşinqtonun, həm Parisin, həm Şərqi Avropa ölkələrinin bir neçəsinin əsl mənada canlı laboratoriyalarından birinə çevrilmişdi. Maraqlı idi ki, dövrün mətbuatında, çap olunmuş elmi-tədqiqat sənədlərində, kitab və dərsliklərdə... bununla bağlı heç bir məlumat verilmir. Nə üçün Azərbaycan? Nə üçün azərbaycanlılar? Bu məsələlərə aydınlıq gətirmək istəyilə yenə məxfi, tam məxfi qovluqlardakı materiallara üz tutduq. Bütün bunların aşkarlanması çətin də olsa, bizim üçün çox gərəkli və önəmli idi. Əldə olunan fakt və məlumatların isə dəyəri heç nə ilə ölçülə bilməzdi. Bunu hesablamaq mümkün olan məsələ deyildi.

Araşdırma materiallarına görə Azərbaycanda Məhəmməd Peyğəmbərin (s.ə.) 12 imamın soy-kökünə, qanına damarlarına bağlı olan 196 nəsil şəcərəsi var.Yəni Respublikada 196 nəsil

imam nəslinə bağlıdır və genetik kodlar üst-üstə düşür. Toplanmış məlumatlardan o da məlumdur ki, bu genetik kodlar arasında maraqlı fərqlər var. (Məsələn 1952-ci ilin iyun ayının 20-də Moskvada olan ingiltərəli "Taylafer" həkim qrupu VIII-əsrin tarixi və təbabət sənədlərinə əsasən iddia edirlər ki, İslam Peyğəmbərinin nəslinə məxsus qan hüceyrələrinin quruluşu və bölünmə sürətində, eləcə də qanın rəngində... fərqlər var. Bütün bu fərqlər onlara imkan verir ki, öz bədən quruluşlarına görə, sümük möhkəmliyinə görə və beyin qatlarına görə... başqalarından fərqlənsinlər. Dünya təbabəti hələlik bütün bunların qarşısında aciz qalıb. Qeyd edim ki, Taylafer qrupu bütün bunların kökünü araşdırmaq, öyrənmək və təhlil etmək üçün Azərbaycanın doqquz bölgəsinin üstündə dayanır. )

Fikrimcə Azərbaycana qarşı edilən təhdidlərin, xarici kəşfiyyat başçılarının, mənəvi və genetik kodların zədələnməsi, mutasiya layihələri... kimi ağır ittiham məsuliyyəti tərəflər arasında bölündüyü üçün heç kəs təqsirkar görünmür və məsuliyyətə cəlb olunmur. Mutasiya olunmuş döllərin doqquz iqlim qurşağı üzrə bölünməsi və yaxud paylanması İttifaqın Səhiyyə sistemində yeni mərhələni təşkil etməli idi. Bölgüyə qədər baş verənlər xüsusi qovluqlarda "Tam məxfi" qrifinə salındı.

Azərbaycan millətilə bağlı 1922-ci ilin martın 4-nə olan məlumata baxmamaq mümkün olmadı. Nə etməli? Bütün məsələləri yarımçıq saxlamaq, bir az da əvvələ qayıtmaq lazım gələcək. Çünki ortada Azərbaycan millətinin, Azərbaycan dövlətinin qəribəliklərlə dolu olan və açılmayan, oxunmayan tarixi var. Hərbi kəşfiyyat məktəbinin psixologiya kafedrasından qovulmuş və çox möcüzəli şəkildə salamat qalan polkovnik A.B.Dubson (o həm də iki illik hərbi həkim kursunda epidemiya ilə bağlı "Araşdırma kursu"nda təhsil alıb) Kremlə on yeddi səhifəlik məktubunu yazır. Araşdırma materiallarına görə kəşfiyyat pol-

kovniki Dubson Arkadiy Borisoviç ixtisasca nevropotoloq olub. Ölkənin hərbi-sənaye komplekslərində əsəb sistemi ilə bağlı tədqiqatlarda iştirak edib. Petroqraddakı (indiki Sankt Peterburq) Psixologiya və əsəb sistemləri fakültəsini, 1921-ci ildə Hərbi Akademiyanı bitirib. (Əsas mövzunu yadda saxlayın.) Polkovnik Dubson Arkadiy Borisoviç 1921-ci ildə diplomatik işə dəvət olunub, Urmiyyədə, Təbrizdə, Məşhəddə Baş konsul, konsul işləyib.

Məlumata görə 1922-ci ilin martın 4-də imzalanmış məktubunda polkovnik A.B.Dubson etiraf edir ki, o, işlədiyi ərazilərdə bir həkim psixoloq və nevropotoloq kimi ancaq azərbaycanlı ailələr ilə təmasda olur, onları tədqiq edirdi. (?) Polkovnik yazır:”...Mən işimlə bağlı Təbrizə getmişdim. Yerli camaat orada – Anaxatun və bir az ondan aralı Xace-Mərcan yaşayış ərazilərində biri-birindən çox da fərqlənməyən, lakin dəmir qapıları olan və tikanlı məftillərlə əhatə olunmuş iki düşərgəni nişan verdilər... Bu adamlar 1918-ci ilin mart qırğınlarında (Ermənilərin Azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər nəzərdə tutulur) əsir və girov götürülmüş azərbaycanlılar idi. Hər iki düşərgəyə ingilislər başçılıq edirdi. Hər iki düşərgənin giriş qapısında bayraq üçün mancanaqlar  asılmışdı. Bütün bunlara baxmayaraq hər iki düşərgəni araşdırmalı, öyrənməli idim. Düşərgələrdəki kiçik elmi-tədqiqat mərkəzləri haqqında isə ilkin məlumatı Moskvanın Tehrandakı rezidenturasından mayor V.V.Drozdin vermişdi... Bu düşərgələrdə ingilislər bayraqlarını gizlətmişdilər. (Farslar düşərgələrə buraxılmırdı). Londondan ezam olunmuş həkim qrupları azərbaycanlı qaçqınlar üzərində bütün istiqamətlərdə tədqiqatlarını davam etdirirdilər. Mən 1921-ci ilin dekabrın 25-də MN-nin Hərbi Kəşfiyyat İdarəsinin məsul işçisi polkovnik M.İ.Belkindən məxfi məktub aldım. Məktuba görə mən düşərgələrdə gedən bütün prosesləri öyrənməli idim. Moskva qarşım-

da çox ciddi və dövlət əhəmiyyətli bir məsələ qoymuşdu... İngilis həkimləri həmçinin düşərgələrin hər birində kiçik qanköçürmə laboratoriyaları da açmışdılar. Anaxatun düşərgəsində "Harriman qrupu" çalışırdı. Bu düşərgədə 16 nəfər Böyük Britaniyadan gələn həkim genetik-cərrah, psixoloq, nevroloq, embrioloq, taksikoloq... çalışırdı. Xace-Mərcan düşərgəsi isə daha qapalı idi. Hər iki düşərgə Təbrizin qərbində salınmışdı. Öyrəndiyimə görə Anaxatun düşərgəsində ancaq qadın və qızlar saxlanılırdı... Elmi təcrübələrdən salamat çıxmayanlar düşərgədən azca aralı salınmış qəbristanlıqda qazılmış çalalara atılırdı..." Polkovnik A.B.Dubson daha sonra yazır ki, o, hətta Anaxatun düşərgəsinə girməyə cəhd edib və bir neçə cəhddən sonra o, elmi-tədqiqat laboratoriyalarından birinə girib. Aparılan təcrübələrdən alınmış bəzi nəticələrlə tanış olub. Kəşfiyyat polkovniki yazır:"... Mən milliyyətcə yəhudi olan, lakin ingilis adı ilə düşərgə laboratoriyasında tədqiqatlar aparan professor Old Simens Bermen tərəfindən hazırlanmış məlumatların bir neçəsilə tanış oldum... Cərrah stolunun üstündə təqribən 20 yaşlı bir qadın gördüm... Mən onu təsvir etməkdə çətinlik çəkirəm. Professor Bermenin məlumatlarından oxudum ki, onu bu qadının süd vəziləri... daha çox maraqlandırır. Nəticəni sizə yazıram:- professor Bermen iddia edir ki, hər bir millətin özünə məxsus ana südü var... Azərbaycan qadınına məxsus ana südü bənzərsizdir. Bu südün tərkibində 16 xəstəliyi müalicə edən, bu xəstəliklərə qarşı güclü immunitet yaradan əlamətlər var. Bu südün tərkibində olan "Letto" maddəsi (mən bu istiqamətdə sorğu apardım. Amma həkimlərimiz bu maddənin nə olduğunu anlamadılar ) heç bir millətin ana südündə yoxdur. Bu südün tərkibindəki "hüceyrələrlə" bəşəriyyəti dilemma qarşısında qoyan şəkər xəstəliyini, xromosom zədələnmələrini, ürək-damar və beyin çatışmazlıqlarını... aradan qaldırmaq mümkündür. Ən ağrılısı odur ki, Anaxatun laboratori-

yasında hər gün bir qadın, uşaq və yaxud həddi buluğa çatan bir qız... cərrah stoluna çıxarılır,.. onların əzaları üstündə ən qəddar və amansız tədqiqatlar aparılır... Alimlər azərbaycanlıların beyin yarımkürələri istiqamətində, eləcə də onurğa sütunlarından götürülən "insan iliyi" ətrafında daha çox çalışırlar..."

Mən bütün bunları nə üçün xatırlatdım? Sizə göstərmək istədim ki, azərbaycanlılar üstündə hələ ötən əsrin 20-ci, 30-cu illərində canlı laboratoriyalar qurulur. Və bu canlı laboratoriyaların da "xammalı" elə əsir və girov götürülmüş, qaçaraq canlarını qurtaran... azərbaycanlılar olub. Həkim - polkovnik A.B.Dubson məktubuna davam edərək qeyd edir:"...Mən həkim Bermenin qeydlərində daha ciddi məsələlərə rast gəldim. O, iddia edir ki, azərbaycanlı olan (mən bütün yazı və qeydlərdə "türk" sözü əvəzinə azərbaycanlı işlədirəm. ) qadının bütöv bədəni yeddi hissəyə bölünmüşdü. İngilis genetik qeyd edirdi ki, o, qadının ürəyini açarkən, o istiqamətdə qeyri-adi məsələlərlə üz-üzə gəlib.(Biz polkovnik A.B.Dubsonun laboratoriyadan əldə etdiyi kartotekalar haqqında məlumatları, diri-diri kəsilib, doğranılan, hissələrə bölünən... azərbaycanlı qadın və qızların adlarını, ünvan və kimliklərini açıqlamırıq. Amma güman edirəm, lazımdır. Digər tərəfdən ola bilsin ki, nə vaxtsa ayılıb, özümüzə gələndən sonra, Anaxatun və Xacə-Mərcan ərazisindəki qalalara atılmış insanların sür-sümüklərini axtarıb tapa bilək... Ümidvaram ki, aramızda eləsi olacaq ki, tapılan bu sümüklərlə Britaniya Krallığından tutmuş, Ağ Evin qapısınadək, Kremlin divarlarından tutmuş BMT "sarayları"nadək hamının qapısını döysün... Hər halda bütün bu ağrılı-acılı səhifələrdən sonra əsas mövzumuzu yaddan çıxarmayın.( Çünki buna nə sənin, nə də mənim haqqım çatır. R.N.) Məsələn, mən onun qeydləri arasında rast gəldim ki, 15 saylı "xəstə"nin (hansı ki, həkim Bermen onun üstündə əməliyyatlar aparır, genetik araşdırmalar edirdi) soy-kökü əslən

Bakıdan təqribən 150 km məsafədə olan, Əngəxaran deyilən bir yaşayış məntəqəsindəndir. (Əngəxaran Şamaxının kəndidir, Pirqulu yolunun üstündə yerləşir. R.N.) İngilis həkim Bermen iddia edir ki, üzərində tədqiqat apardığı qadının ürəyinin üstündə vaxtilə Qüdsdə din xadimi olmuş ana babasının çap etdirdiyi "Sorğu piramidası" kitabında təsvir etdiyi müqəddəs və toxunulmaz hesab etdiyi Mələk surətini (şəklini, əksini) görüb... Bermen 43 səhifəlik laboratoriya qeydlərində 17 dəfə bu barədə danışır... O, həmişə bu barədə dediklərinin fərziyyə və yuxu olmadığını iddia edir:"...Mən görmüşəm, görürəm və görməyimdə davam edirəm..."-deyən ingilis həkimi (əslən yəhudi-R.N.) Bermenə heç kəs inanmaq istəmir. Bermen belə bir məsələnin üstündə də dayanır ki, azərbaycanlı qadının süd vəzilərinin, ana südünün gücü və qüdrəti də elə ürəkdə görünən mələkdədir. Allahın toxunulmaz və müqəddəs saydığı mələyində... Həkim Bermenin qeydlərində oxudum:"...Hələ Allah dünyada heç bir millətin anasına belə bir "hədiyyə", belə bir "vergi" əta etməyib..." Bermen bu cümlələri ivrit dilində yazdığından mən onu başa düşdüyüm kimi tərcümə etdim... Öyrəndiyimə görə Bermen 1922-ci ilin sonlarında bütün bunlarla bağlı Böyük Britaniya Krallığına Lloyd Corc adlı birisinə (?) məxfi məktub yazır və bu məktub da ələ keçir... Sorğularıma görə həmin məktub ölkənin kəşfiyyat xidmətinin arxivində saxlanılır... Mən onu da öyrəndim ki, artıq 34-cü azərbaycanlı qadındır ki, həkim Bermen və onun qrupu araşdırır, tədqiq edir. Amma bütün bunlar məni hələ də düşündürür... Nə üçün azərbaycanlı qadınlar canlı laboratoriyaların hədəfinə çevrilib? Görünür daha ciddi məsələlər var... Ona isə mənim gücüm çatmır. Amma Anaxatun və Xacə-Mərcan ərazilərində qurulmuş, insanlıqdan və vicdandan kənar salınmış "genosid ocaqları"nın törətdiyi cinayətlərlə bağlı bütün Təbrizi, Urmiyyəni, Ərdəbili... nəhayət Tehranı ayağa qaldıra bilərəm... Mənə cavab verin..."

Polkovnik Dubsonun məktubu cavabsız qalır. Amma özümüzdə təpər tapıb Anaxatun və Xacə-Mərcan yaşayış məntəqələrini araşdırsaq, 1918-ci il erməni qırğınlarına məruz qalmış yüzlərlə azərbaycanlının adsız və ünvansız məzarlarına rast gəlmək mümkündür... Polkovnik Dubsonun məktublarında və yaxud "Xüsusi arayış"ında qeyd olunur ki, Anaxatun yaşayış zolağında (şimala tərəf təqribən 250-500 metr məsafədə) Şirvandan qovulan (Şamaxı, Göyçay, Ağsu yaşayış məntəqələrindən) 186 nəfər qadının (Bermenin məxfi kartatekasına əsasən) adsız, ünvansız məzarı var. Bizim günahsız, kimsəsiz, tənha qalan bakirə qızlarımızdan, analarımızdan nə istəyirdiniz, cənablar?..

Araşdırma materiallarına görə kəşfiyyat polkovniki Dubson əldə etdiyi kartotekalarla da bağlı "Xüsusi arayış" hazırlayıb. Şübhəsiz, biz bununla əlaqəli əldə etdiyimiz məlumatları Sizinlə bölüşəcəyik. Mən bunu mütləq etməliyəm... Yenidən təyinatı üzrə mutasiyadan sonra... bölünən döllərə qayıdıram.

Məlumata görə hərbi həkim, professor, kəşfiyyat mayoru M.Z.Faxratdinov 1952-ci ilin yanvarın 7-də Yevlaxda yaradılmış "Moskva Punktu"na çağırılır. ("Moskva Punktu"- keçmiş DTK-nın Yevlax yaşayış məntəqəsində məxfi "qaydalara" əsasən yaradılmış "Nəzarət məntəqəsi" kimi də qeyd olunur. Əlavə məlumata görə "Moskva Punktu" MN-nin 3 saylı hərbi-sənaye kompleksinin toksikologiya və genetik kodların araşdırılması şöbəsinin başçısı akademik, S.M.Kvarts adlı bir generalın təşəbbüsü ilə yaradılmışdı. Digər bir məlumatda isə (şöbənin əməkdaşı, polkovnik A.A.Qusevin akademik haqqında kəşfiyyat məlumatı) bildirilir ki, akademik A.M.Kvarts Yevlax – Ərəbbəsra yaşayış məntəqəsində 375 səhifəlik elmi-tədqiqat işləri aparıb. Bu barədə danışacağıq.) Kəşfiyyat mayoru Faxratdinov həkim dostu E.D.Serafimoviçə ünvanladığı yeni məktubunda xatırladır:"...Mən bölgüdə iştirak edə bilmədim... Moskvaya qayıdı-

ram. Görüşərik. Mənim bu işlərdən uzaqlaşdırılmağımın səbəblərini aydınlaşdıra bilmədim... Məni Bəyimağacda leytenant, Moskva Hərbi Akademiyasının məzunu Andrey Qriqoriyeviç Şamşin əvəzləyəcək. Bu adam Azərbaycanı tanımır. Yevlaxda onu gördüm. Təzə gəlmişdi. Döllərin regionlara paylanması ona tapşırılmışdı... O, azərbaycanlılara qarşı amansız və qəddar bir ruhda böyüyən adam idi. O, əsl cəllad idi... Mənə onun haqqında akademik, mənim müəllimim olmuş S.M.Kvarts danışmışdı..."

Məlumata görə akademik S.M.Kvarts tələbəsi olmuş, professor M.Z.Faxratdinovu qoruya bilmədi. Əksinə, MN-nin Hərbi Kəşfiyyat İdarəsində onu məcbur etdilər ki, tələbəsi olmuş professor M.Z.Faxratdinovun əleyhinə ifadə versin. Akademik verdiyi yalan ifadədən sonra1952-ci ilin fevralın 16-da öz evində intihar edir... Professor M.Z.Faxratdinov isə azərbaycanlıları müdafiə etdiyi arayışa görə (?) həbs olunur.

Uzun müddətli araşdırma materiallarına görə arxivlərdə akademikin cəmi 310 səhifəlik əlyazması, yəni Azərbaycanda apardığı elmi-tədqiqat işlərinin bir hissəsi qalır. (Biz Akademik S.M.Kvartsın elmi-tədqiqatlarını əldə etmək üçün iki il yarım gözləməli olduq. 1952-ci ilin yanvarın 21-də onun bütün işləri dayandırılır. Kitablarına, elmi məqalələrinə qadağalar qoyulur. O da məlum oldu ki, akademikə heç vaxt icazə verilməyib ki, öz həqiqi adı, soy-kökü ilə çıxış etsin. Onun əsl adı İvan Maksimoviç Turin və yaxud İvan Sedov (Raqiboviç) olub.) Araşdırma materiallarına görə akademik S.M.Kvartsın elmi-tədqiqatlarında Aərbaycanın çox möcüzəli və ulu Tanrıdan ayrılmış "yüz dörd yaşayış məntəqəsi" var. (Bunu akademik göstərir – R.N.) O, göstərir ki, bu yüz dörd məntəqədə hələ 1839-cu ildən dünya alimləri, filosoflar, genetiklər, təbiblər... araşdırmalar aparır. Azərbaycanın yüz dörd məntəqəsi əsrlərdən bəridir ki, ələk-vələk edilir. Akademik yazır ki, (biz onun intihar etdiyi vaxt kömək-

çi-asistenti olmuş həkim-tədqiqatçı Uqruma Aleksandrovanın ifadəsini də çap edəcəyik.) Gülüstan sülh müqaviləsindən sonra (1828-ci il) Azərbaycan iki hissəyə bölündü. O, əlavə edir:"... Bununla da bu millətin genetikasında odu söndürmək üçün su olmadı,.. suyu qızdırıb, qaynatmaq üçün od olmadı..." Şübhəsiz, mən bütün bunlara məcazi mənada yanaşıram. Amma müxtəlif yanaşmalarda bu məsələlərin kökü var. Araşdırma materiallarına görə Dumanlı Dərə haqqında ilk mətləbləri məhz akademik S,M.Kvarts açıb. Ona haradan, hansı mənbələrdən gəlib, bu da maraqlıdır. (Mən mövzuları, fikir və düşüncələri, fakt və sənədləri biri-birinə qarışdırmaq istəməzdim. Onsuz da bu tədqiqat çox çətinliklə, əzab və əziyyətlə başa gəlir.) Akademiklə, onun tələbəsi M.Z.Faxratdinovla bağlı məsələləri burda saxlayıram... Qayıdaq Göyçay yaşayış məntəqəsindəki Bəyimağaca.

Araşdırma materiallarına görə kəşfiyyatçı-həkim M.Z.Faxratdinovdan sonra "Mutasiya" layihəsinin icrası ixtisasca mühəndis olan, 1951-ci ilin fevralın 1-də isə kəşfiyyata işləmək üçün təyin olunan və 1952-ci ilin martın 19-dan Bəyimağaca göndərilən A.Q.Şamşinə həvalə edilir. Məlumata görə 1952-ci ilin martın 26-da isə, "Mutasiya" layihəsinin birinci mərhələsi (Göyçay ərazisində) Bəyimağac yaşayış məntəqəsində yekunlaşır. Kəşfiyyat leytenantı, əlavə olaraq doqquz nəfərin imzası ilə yekunlaşan "Mutasiya" layihəsi haqqında ilk "Məxfi arayış"ı şəxsən SSRİ Nazirlər Sovetinin sədri İ.V.Stalinin adına göndərir. Məxfi qaydada hazırlanan arayış həmin vaxt Azərbaycanda olan və ardıcıl olaraq iki gün Azərbaycan KP MK-nin Birinci Katibi M.C.Bağırovun yanında qapalı şəkildə iclas keçirən general İ.B.Pavlovun şəxsi mühafizəsi altında Kremlə çatdırıldı. Arxiv sənədləri arasında arayışla bağlı maraqlı məlumatlar var. Məsələn, A.Q.Şamşin qeydlərində (MN-nin BKİ-nin hərbi-sənaye kompleksinə verdiyi izahatdan çıxarış) iddia edir ki, "Muta-

siya"dan sonra əmələ gələn doqquz döl regionlar üzrə aşağıdakı qaydada bölündü: 1.Astraxanbazar (Cəlilabad-R.N.), 2.Şamaxı, 3.Zakatala, 4.Şuşa, 5.Laçın, 6.Bakı, 7.Kirovabad (Gəncə), 8.Qazax, 9.Qutqaşen (Qəbələ).

Araşdırma materiallarına görə kəşfiyyat leytenantı A.Q. Şamşin general İ.B.Pavlovla bağlı şəxsi mülahizələrini yazır. O, qeyd edir:"...Mən bir saatdan artıq təkbətək general Pavlovla söhbət etdim. O, mənə xatırladırdı ki, bizim gördüyümüz iş əsas layihənin (o, əsl layihənin adını mənə demədi) birinci mərhələsidir. Onun fikrincə ikinci mərhələ on yeddi ildən sonra icra olunmalı idi. Anladım ki, bu döllər on yeddi il yaşayışları nəzərdə tutulan ərazilərdə qalmalı (daha dəqiq desək, yaşamalı), ailə qurmalı, (onlar nəzərdə tutulan nəsillərin övladları ilə evlənməli,) yeni döllər yetirməli idilər. Bu, mənim fikrimcə əsl inkubasiyadan başqa bir şey deyildi... Söhbətdən aydın oldu ki, general Pavlov Azərbaycanı çox gözəl tanıyır və regionlar haqqında müfəssəl məlumata malikdir. O, mənə əlavə iyirmi il də bu yerlərdə işləməyimi məsləhət bildi. Yəni, yeni döllərin də bölgüsünü mən aparmalı idim. Yeni döllər isə Lerik, Lənkəran, Ağcabədi, Səlyan, Gədəbəy, Şəmkir, (Yevlax ərazisində artıq xüsusi stansiya, yəni mərkəz yaradılmışdı), Balakən, Qarabağ , Bakı ətrafı kəndlər (Romanı və Əmircan) idi..."

Məlumata dörə general İ.B.Pavlovun da həyatı uzun sürmür. Məxfi arayışdan sonra generaldan 1952-ci ilin martın 28 və 29-da Azərbaycan KP MK-nin Birinci Katibi M.C.Bağırovla etdiyi söhbətlərin geniş təfsilatı tələb olunur. 1952-ci ilin aprelin 9-da isə general heç bir səbəb olmadan həbs olunur və şəxsi arxivindən "Azərbaycan genetikası və mutasiyadan alınan döllərlə bağlı qeydlər"i ələ keçir. O, ingilis casusu kimi ittiham olunur. Leytenant A.Q.Şamşin yazır:"...Hər şey bir anda baş verdi. General İ.B.Pavlov tələm-tələsik güllələndi. Onun güllələnmə

tarixi 1952-ci ilin aprelin 14-nə təsadüf etdi. Mən artıq taleyimə düyün vurmuşdum... Sonradan Siyasi Büroda "kuryer" işləyən (əslində bu adla tam məxfi işləri icra edən D.M.Lomonosov – Beqlov) dostum xatırlatdı ki, generalı Azərbaycan KP MK-də işləyən və həmişə M.C.Bağırovun yanında gəzib-dolaşan Maarif Nağıyev adlı birisi satıb. (?) Araşdırma materiallarına görə, general İ.B.Pavlovun güllələnməsində bilavasitə iştirak edən Azərbaycan KP MK-nin işçisi sayılan M.Ə.Nağıyevin də taleyi düyünə düşür. Gözlənilmədən ölümcül bir xəstəliyə tutulur. Evindən və işindən qovulur. Nəticədə təhlükəsizlik zabiti olan M.Ə.Nağıyev 1952-ci il, iyunun 14-də, saat 20:35-də vaxtilə onu gəzdirən dövlət maşını tərəfindən vurulur və aldığı zədədən iki saat sonra keçinir. (Taleyə baxın.)

Mən burda onunla bağlı fikirlərimi yarımçıq saxlamağı özüm-özümə məsləhət bildim. (Kəşfiyyat feneralı İ.B.Pavlovun ölüm anı gözlərim önünə gəldi...)

Məlumata görə, ötən əsrin 50-ci illərində Azərbaycanın Astraxanbazar (indiki Cəlilabad) rayonu ərazisində bilavasitə Peyğəmbər Əshabələrilə qan qohumluğunu təsdiq edən və yaxud tarixə Peyğəmbər (s.ə.) nəslinə bağlı olan on yeddi imzalı, möhürlü Şəcərə var idi. Araşdırma materiallarına görə, bu on yeddi nəsilin nümayəndələrinin adları heç vaxt məhkəmələrdə, çəkişmə meydançalarında, ictimai yerlərdə pisliyə çəkilməyib. Hamı bu şəcərə altında olan nəslin nümayəndələrindən ehtiyat edib. Başqa bir məlumatda isə göstərilir ki, 1952-ci il, iyulun 5-də Respublika Ali Məhkəməsinin iclas zalında, Moskvadan gəlmiş üç kəşfiyyat zabitinin (İ.İ.Maslov, M.S.Qriqoryev, Ş.P. Batum) iştirakı ilə qapalı iclas keçirilir. İclasın gündəliyində faktiki olaraq heç bir məsələ qoyulmamışdı. Digər tərəfdən bu iclasda iştirak edən 25 nəfərin hamısı respublikanın təhlükəsizlik və milis orqanlarında, prokurorluqda çalışan, milliyyətcə rus,

gürcü, erməni olanlar idi. Qapalı yığıncaqda çıxış edən kəşfiyyat leytenantı A.Q.Şamşin qısa çıxışında iddia etdi ki, "Mutasiya layihəsi" istənilən nəticəni verib. Göyçay ərazisindəki Bəyimağac qrupu artıq "Mutasiya" döllərini Kremlin nəzərdə tutduğu yaşayış məntəqələrində yerləşdirib. İclasdan sonra Moskvaya, ölkənin Baş Kəşfiyyat İdarəsinə ünvanladığı "Məxfi arayış"ı göndərən leytenant A.Q.Şamşin yazır:"... Moskva, 1952-ci il. VII-9. Mutasiya üzrə istintaq qrupunun rəhbəri general-mayor S.P.Mixaylova. Bu mənim məxfi qaydalara riayət edərək, Sizə ünvanladığım ikinci "Arayış"dır. (Kiçik tərcümə düzəlişləri edilib-R.N.) Qaydalara uyğun olaraq məlumat verirəm: 1952-ci il, iyulun 5-də Bakıda keçirilən qapalı iclasda iştirak etdim. İclas məhkəmə binasında keçirilirdi. Moskvadan göndərilən üç kəşfiyyat zabiti, İ.İ.Maslov, M.S.Qriqoryev və Ş.P.Batum iştirak edirdi. Mənə təklif olundu ki, "Mutasiya layihəsi" haqqında geniş məlumat verim, xəritədə doğulmuş döllərin məskunlaşma ərazilərini göstərim. Mən isə bütün bu açıqlamalardan imtina etdim. Nəticədə məni iclas zalından çölə qovdular.

Əlavə olaraq bildirirəm ki, mən "Mutasiya uşaqları"nın ekiz tayını (oğlanları) Astraxanbazarda yaşayan, 1826-cı ildə İrandan köçüb gələn Hacı Qurbanzadə Mir Saleh Seyid Cəfər Ağanın nəslindən olan ailələrdə yerləşdirdim. Yazıb, əlavə məlumat verirəm ki, Hacı Qurbanzadə Mir Saleh Seyid Cəfər Ağa kəşfiyyat materiallarına əsasən əsl azərbaycanlıdır və nəsildə qan qarışığı yoxdur. Hacı Qurbanzadə şiə müsəlmanlarının möhkəm bağlandığı İmam Hüseyn (Məhəmməd Peyğəmbər s.ə. nəvəsi) qanındandır. Xüsusi sənədi var. Sənədi (yəni Şəcərəni) din xadimləri arasında sayılıb-seçilən "Qan heyəti" (komissiyası-R.N.) imzalayıb. Onların sayı on dörd nəfərdi.

Yoldaş general-mayor S.P.Mixaylova əlavə məlumat verirəm ki, İmam Hüseyn qanı genetik baxımdan mərd, döyüşkən, zülmə və ədalətsizliyə boyun əyməyən, cəsarətli, vicdanlı... vətən, ailə, nəsil və millət... Allah, Quran və din sevgisini (o bütün dinlərə hörmət və ehtiramlı olub)... özündə birləşdirən hüceyrələrlə əhatə olunub. Bu genetik kodlar isə hələlik öyrənilməyib. Məlumat verim ki, Cənub zonasında geniş hörmət və ehtiram sahibi olan Hacı Qurbanzadə Mir Saleh Seyid Cəfər Ağa nəslinin təqribən iyirmi beş faizini qız uşaqları təşkil edir.

Əlavə məlumat verəcəm. İmza edirəm..." Araşdırma materiallarına görə genetika elmində, ümumən təbabət və səhiyyə sistemində ən çox öyrənilməyə cəhd ediləsi VII-əsrin və az da ondan qabaqkı əsrlərin genetik kodlarının araşdırılması, tədqiq edilərək öyrənilməsi olub. Maraqlıdır. Dünya genetikləri bütün bunlara sahib ola biliblərmi? Məsələn, məşhur ingilis alimi, dini baxımdan, ilahi qanunlarla insan hüceyrələrini, xromosomları... qanın yaranma proseslərini tədqiq edən Eduard Kerd (1835-1908) iddia edir ki, yer üzündə bəşəriyyətdə ən güclü "qan yaratma sistemi" və yaxud mərkəzi, İslam dünyasının, yer üzünün sonuncu peyğəmbəri Məhəmmədə (s.ə.) və onun nəslinə, xüsusən də qızı xanım Fatiməyə məxsusdur. O, qeydlərində göstərir:"...Yer üzünün dünənki , bu günki və gələcək möhtəşəm insanları (bütün sahələrdə) öz genetik kodlarının başlanğıcını məhs, o nəsildə axtarmalıdır. Mən "möhtəşəm" dedim, qəddar və qaniçən yox..." Tədqiqatın başqa bir tərəfi də var. Məlumata görə ingilis alimi dörd yaşında ikən, yəni 1839-cu ildə çox ağır və sağalmaz iflic xəstəliyinə mübtəla olur. Onun onurğa sütunu getdikcə quruyub, gücdən düşür. "Xatirələrim"də alim yazır:"... Ağır keçən uşaqlıq illərimi xatırlayan atam deyir ki, mənim həyata qayıtmağımda ingilis həkimi, bizim ən yaxın qan qohumumuz olan Albertin böyük rolu olub. O, məni atamdan istəyib ki,

sağaltsın. Atam da razı olub. Çünki artıq getdikcə yaşamaq qabiliyyətimi itirirdim. Mən ingilis ordusunun polkovniki olan atam üçün gərəksiz idim. O, məni çox çətinliklə, bağrına basıb, əzizləyə-əzizləyə həkim Albertə verdi. O vaxt həkim Albert ingilis həkimi "Herber Skott ekspedisiyası" ilə Qafqaza gəlirdi. Mən də onunla gəldim. Sonra qan qaynayan vaxt, yəni mart ayında o, məni çox yaşlı bir qadınla Azərbaycanda Bərdə deyilən bir yaşayış məntəqəsinə apardı. Çox güzaranlı yer idi. Oradan kiçik, amma suyu çox olan bir çay keçirdi. Həkim Albert yaşlı qadının məsləhətilə məni həmin çayın (yəqin ki, bu çay Tər-tər olub. O vaxt həmin çaya Köpüklü çay deyirdilər. Bunu etnoqraflar daha yaxşı bilər – R.N.) kənarındakı "Üç guşə" deyilən bir yerə gətirdi. (Yaşımın az olmasına baxmayaraq, hiss edirdim ki, daha ölürəm... Mən bunu hiss edirdim. Başqa nə hiss edə bilərdim ki...) Məni soyundurub, çılpaq etdilər. Ağzı üstə yaxşı yonulmuş, sal bir daşın üstünə uzatdılar. Elə bil məni yanar bir ocağın içinə atdılar. (Həkim Albert mənə hər şeyi danışırdı. O, gözəl və təmiz adam idi.) Üç gün o daşın üstündə uzandım. Mən əməlli başlı yanırdım. İkinci gecə hiss etdim ki, qıc olmuş əllərim və ayaqlarım qıpqırmızı olub. Quruyub əldən düşən damarlarıma qan gəlirdi. Onurğa sütunum hiss edirdim ki, nəfəs alır. Bu möcüzə idi. Amma ən böyük möcüzə isə irəlidə idi..."

Araşdırma materiallarına görə qeyd olunan "Üç guşə" Bərdə yaşayış məntəqəsinin Şərqində salınmış ərazilər olub:

1. Güloğlular. (Rus tədqiqatçısı E.M.Popovun araşdırmalarına görə. Araşdırma 1919-cu ildə aparılıb.)

2. Çələbilər. (Fars tədqiqatçısı Ə.A.Hüseyninin araşdırması.)

3. Otuzikilər. (Türk tədqiqatçısı Aydın Meracın tədqiqatları.)

Əldə etdiyimiz faktları bir az da dəqiqləşdirdik. Məlumata görə rus kəşfiyyat sənədlərində bu üç ərazi Kremlin ciddi nəzarətində olub və 1961-ci il, iyulun 9-dan bu üç ərazi (məxfi sənədlərdə də "Üç guşə" adlanıb.) Siyasi Büronun sənədlərində xarici həkimlər və yaxud digər peşə sahibləri üçün qapalı elan edilib. Əlavə olaraq əldə olunan məlumatlara görə Moskva regionda əsl azərbaycanlının doğulmasından və bu təmiz, saf artımdan qorxurdu. Məlumata görə 1952-ci il, dekabrın 31-də, yeni il gecəsində İ.Stalinə telefon açan M.C.Bağırov yeni il təbrikindən sonra, qəfil verilən suala görə xeyli fikirləşməli olur. Kiçik söhbətdən sonra İ.Stalin soruşur: "- ...Cəfər, necə bilirsən, indiki şəraitdə (?) Qafqaza əsl azərbaycanlı lazımdırmı?.. "Üç guşə" sizə lazımdırmı?.."

M.C.Bağırov üçün bu sualların cavabı çox çətin idi. Onun təhlükəsüzliyini yəmin edən polkovnik V.Seyfullayev xatırlayır ki, bu suala cavab tapmaq üçün M.C.Bağırov üç gün götür-qoy etdi. Və sonda telefona əl yetirib, Kremlə - İ.Stalinə zəng etdi. O, çox qısa və konkret bir cavab verdi:"-Bəli, yoldaş Stalin. Azərbaycana əsl azərbaycanlı lazımdır..."

Bu o vaxt idi ki, kəşfiyyat xidmətinin başçısı L.Beriyanın beş nəfərdən ibarət xüsusi təyinatlı nümayəndə qrupu "Üç guşə"yə təşrif gətirir. Biz bütün bunlar haqqında əlavə danışacağıq.

Mən çox təəssüf edirəm ki, Tər-tər çay sahilləri ərazisindəki bu üç məskən; Güloğlular, Çələbilər, Otuzikilər hələlik öz tarixi dəyərini ala bilməyib. Tam dəqiqliyilə araşdırılıb, öyrənilməyib. Mən yenə qayıdıram ingilis həkim Albertin dediklərinə. O, xatırladırdı:"..."Üç guşə" kimi möcüzələr yaradan yerlər Azərbaycanda yüzdən biridir... Bu yerlər Kerd ailəsinin qan qrupunu dəyişdi..."

Araşdırma materiallarına görə ingilis həkimi, "Herber Skott" Qafqaz ekspedisiyasının toksikoloqu Ronald Albert Londona qayıtdıqdan sonra "Üç guşə" haqqında geniş kəşfiyyat arayışını "Mİ-6" xüsusi xidmət idarəsinə təqdim edir. 1952-ci ildən 1955-ci ilədək Sovet İttifaqının Böyük Britaniyadakı rezidentlərindən olan polkovnik Aftandil Mironoviç Baskakov Moskvaya ünvanladığı açıqlamasında iddia edir ki, ingilislər Azərbaycandakı "Üç guşə" və digər ərazilərlə (?) ciddi maraqlanır, bu istiqamətdə əlavə informasiya və məlumatlar toplayırlar.

Mən bu yerlərlə bağlı əldə etdiyim fikir və düşüncələrə yenidən qayıdacam.

Araşdırma materiallarına görə 1952-ci il, avqustun 8-də Hacı Qurbanzadə Mir Saleh Seyid Cəfər Ağanı evində ildırım vurur.(?) Leytenant A.Q.Şamşin ölkənin Hərbi Kəşfiyyat İdarəsinin II qrupuna başçılıq edən, polkovnik M.A.Furmanın adına 702 saylı teleqram göndərir:"...Avqustun 9-da (1952-ci il) təsdiq olunmuş "xüsusi siyahı"dakı üçüncü adamı ildırım vurdu. Onun evinə düşən ildırım, onun evini və özünü külə döndərdi. Uşaqlar salamatdır... Araşdırmalar davam edir, əlavə məlumat verəcəyəm... İmzamı təsdiq edirəm... Lənkəran. Sərhəd Dairəsi..."

Məlumata görə daha etibarlı olsun deyə və yaxud məlumatın məxfi saxlanılması üçün A.Q.Şamşin teleqramı Lənkərandakı Sərhəd Qoşunlarından göndərirdi. Teleqramı oxumaq, yaymaq qadağan olunmuşdu. (Amma bu teleqramla bağlı, onun göndərilməsi, imzalanması istiqamətində əldə etdiyim digər məlumat da var. Tədricən bununla bağlı açıqlamam olacaq. Bütün bunlar araşdırmalarımızın daha da aydın olmasına yardımçı olacaq.)

Məlumata görə Astraxanbazar ərazisində böyük nəsil, oğul-uşaq sahibi olan Seyid Cəfər Ağanı axşam namazında ildırım vurmuşdu. 1952-ci il, avqustun 9-da "Kommunist" qəzeti (Bakı) dördüncü səhifəsində respublikanın Cənub bölgəsinə,

Lənkəran –Astara zonasına düşən güclü leysan yağışlardan və ildırımdan alovlanan iki kəndi, meşə zolağını nişan verir, Astraxanbazarda din xadimi Seyid Cəfər Ağanın yanaraq vəfat etməsindən yazırdı. Oğlu Vəli Ağa öz açıqlamasında isə bildirirdi ki, nəslin İmam hümmətinə bağlı olmasını göstərən nəsil Şəcərəsi də Hacı ilə birgə yanıb, kül olmuşdu... Araşdırma materiallarına görə 1952-ci il, dekabrın 22-də kəşfiyyat leytenantı A.Q. Şamşinin hərbi rütbəsi vaxtından qabaq iki dəfə artırılır və ona mayor rütbəsi verilir. Bu isə onun sonuncu rütbəsi olur. 1952-ci il, dekabrın 26-da isə Siyasi Büronun növbədən kənar iclasında qərara alınır ki, "Mutasiya layihəsi" davam etdirilsin, bu məsələ hökümət və dövlət sənədlərində "tam məxfi" qrifilə möhürlənsin, xarici kəşfiyyatın, daxili və xarici düşmənlərin aktivliyini nəzərə alaraq, nəzarət qaydaları daha da ciddi bir şəkildə tədbiq edilsin. Başqa bir məlumatda isə bildirilir ki, 1952-ci il, dekabrın 27-də "Mutasiya layihəsi"lə bağlı Azərbaycanın regionları üçün "əlavə tədbirlər" planı işlənib hazırlansın. Planın həyata keçirilməsi, nəzarət qaydalarının icrası 1949-cu ilin mayından 1951-ci ilin oktyabr ayınadək Azərbaycan Səhiyyə Sistemini yeniləşdirmək üçün Bakıya ezam edilmiş hərbi kəşfiyyat generalı Mixail Mixayloviç Narimanova tapşırılır. Ona əlavə səlahiyyətlər verilir. Məlumata görə hərbi həkim, mayor A.Q.Şamşin "Mutasiya layihəsi" istiqamətində Moskvaya, nəzərdə tutulan ünvanlara 14 "Məxfi Arayış" göndərib. Biz isə uzun axtarışdan sonra onun cəmi yeddi arayışını əldə etdik. Onun Rostovdakı mənzilində olduq, şəxsi arxivinə nəzər saldıq. Amma heç bir şey əldə edə bilmədik. O, özündən sonra adi bir həkim kimi kiçik bir şəxsi arxiv qoyub, gedib. Məlumata görə o, sonuncu məxfi arayışını 1952-ci il, dekabrın 28-də yazıb. Hərbi həkim A.Q.Şamşin qeyd etdiyimiz arayışda maraqlı, tariximiz üçün, milli maraqlarımız üçün vacib sayılan məqamlara toxunur".

Artıq biz bundan sonra nələri oxumalıyıq, nələri eşitməliyik ki, ayılaq, nəticə çıxaraq. Bundan o yana yoxdur. Əlbəttə, bu arşdırmanın nəticələri biz azəri türklərini düşündürməli və təxirəsalınmaz tədbirlər görülməlidir. Sözsüz ki, düşmən açıq - aşkar indi ölkəmizdə belə eksperimentlər apara bilməz, ancaq ki, ökəmizə girən qida məsulları, dərman preparatları ancaq və ancaq  total nəzarət və yoxlamadan sonra ölkəmizə buraxılmalıdır . Xaricdən gələn hər bir qida məhsulları, dərman ləvazimatları, ümumiyyətlə sağlamlığımıza təsir edə biləcək hər bir məhsulun idxalı daxili istehsalla əvəz olunmalı və xarici ölkələrdən asılılıq mümkün qədər yoxa çıxarılmalıdır. Ancaq bu halda biz azəri türkləri öz milli kimliyimizi qoruyub saxlaya bilərik. Bir millət kimi, bir xalq kimi dövlətçilik hissimizi artırmalı, ancaq və ancaq güclü dövlət olduğumuz halda özümüzü qoruya biləcəyimizi dərk etməliyik. Azərbaycan türkünün bir millət kimi mövcudluğu onun güclü dövlətçiliyindən keçir.

## 5-ci fəsil

"Ölənə qədər cismim,
öləndən sonra ruhum keşiyindədir, Azərbaycan!"
**Vüqar Dadaşov**

## Qarabağ

### SSRİ-nin dağılması təbii proses idi

15 müttəfiq respublikalardan biri olduğumuz Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) yıxılma səbəbi ilə bağlı müxtəlif yanaşmalar var. Əvvəla, şərqin ilk Azərbaycan Demokratik Respublikası (ADR) bu sovet ölkəsinin təcavüzü nəticəsində süqut etdi, Azərbaycan Respublikası 2-ci müstəqilliyini isə məhz SSRİ-nın süqutu üzərində qurdu. Əlbəttə ki, qeyd etmək yerinə düşər ki, Azərbaycan sovet ölkəsinin tərkibinə 114000 kv. km ərazi ilə qatıldığı halda SSRİ-nin süqutundan sonra 86000 kv. km ərazi ilə müstəqilliyini əldə etdi. Azərbaycan bu sovet birliyində 27400 kv. km ərazi itkisinə məruz qaldı. Üstəlik SSRİ müstəqil Azərbaycan üçün Dağlıq Qarabağ kimi konflikt yaratdı. Bu yazıda isə mən SSRİ-nin dağılma səbəbləri və Dağlıq Qarabağ konfliktinin yaranma səbəbini araşdırmağa çalışacam.

Əlbəttə SSRİ-nin dağılma səbəbləri barədə müxtəlif fikirlər var, bəziləri bunu təbii proses, bəziləri bunu qərbin ssenarisi üzrə, bəziləri M. Qorbaçovun və B. Yeltsinin "xidməti" ilə, bəziləri Dağlıq Qarabağ ilə, bəziləri də xalqların milli azadlıq hərəkatları və SSRİ ordusunun törətdiyi Bakıda 20 yanvar faciəsi ilə əlaqələndirirlər. Bütün bu fikirlərdə həqiqət var. Ancaq hesab edirəm ki, SSRİ-nin dağılma səbəbi: yuxarıda qeyd edilən səbəblər də daxil olmaqla həm iqtisadi, siyasi, ideoloji səbəblə-

rin kompleks təsirindən onsuz da dağılması qaçılmaz olan SSRİ-nin dağılmasını tezləşdirdi. Bəli, SSRİ-nin dağılması zaman məsələsi idi.

SSRİ-nin dağılmasının rəsmiləşdirilməsi 8 dekabr 1991-ci ildə üç sovet respublikasının rəhbərləri B. Yeltsin(RSFSR), S. Şuşkeviç (Belarusiya), L. Kravçuk (Ukrayina) tərəfindən Belarusiyanın Belovej meşəsində sovet rəhbərlərinin ovçuluq iqamətgahının Viskuli malikanəsində imzaladıqları razılaşma ilə başlayır.

25 dekabr 1991-ci il tarixdə saat 19.00-da M. Qorbaçov televiziya vasitəsi ilə insanlar qarşısında УП-3162 saylı fərmanı ilə özündən SSRİ Ali Baş Komandanı səlahiyyətlərinə xitam verdi.

26 dekabr 1991-ci il tarixdə SSRİ Ali Sovetinin deklarasiyası ilə SSRİ mövcudluğunu dayandırdı.

**B. Yeltsinin və M. Qorbaçovun SSRİ-nin dağılmasında fəaliyyətləri barədə bəzi məqamları xatırlamamız belə fikirlərin əsaslı olduğunu təsdiqləyir**. Maraqlısı isə odur ki, hələ 17 mart 1991-ci il tarixdə SSRİ-nin bütün ərazisində keçirilən referendumun nəticəsinə görə əhalinin 77% SSRİ-nin mövcudluğunun tərəfdarı idi. Belə bir vəziyyətdə nə B. Yeltsinin dağıdıcı siyasi fəaliyyəti, M. Qorbaçovun hadisələrə laqeyd münasibəti bu günə kimi də suallarla doludur və proseslərin analizi M. Qorbaçovun və Yeltsinin SSRİ-nin dağılmasında maraqlı olmasını göstərir.

M. Qorbaçovun köməkçisi, iqtisadçı, SSRİ KPMK-nin elmi mərkəzinin əməkdaşı Oleq Ojerelyev öz müsahibələrində SSRİ-də süni yaradılmış ərzaq qıtlığının həll edilməsində M. Qorbaçovun heç bir tədbir görmədiyini və sadəcə SSRİ-nin Qorbaçova lazım olmadığını deyd edib.

Yazıçı, dokumentalist Oleq Moroz M. Şevelyova müsahibəsində SSRİ-nin dağılmasında bu iki şəxsin- B. Yeltsinin və M. Qorbaçovun şəxslərinin və münasibətlərinin rolu olduğunu vurğulayır. O. Moroz həm də onların cinayət məsuliyyətinə cəlb edilməsi barədə də söz açır.

Rusiyada böyük nüfuza malik yazıçı, publisist Aleksandr Proxanov "SSRİ-nin ölümünün adı var, o ad-Yeltsindir" deyir. A. Proxanov "Qorbaçovun "Yenidən qurma" adlı islahatı SSRİ-nin dağılması üçün hazırlanan qəliz plan idi və Belovej razılaşmasının imzalanmaması mümkün deyildi. Əgər həmin müqavilə o zaman imzalanmasaydı, az sonra imzalanacaqdı. Yeltsin özündə SSRİ-nin ölümünü gəzdirirdi..." qeyd edir.

Uzun müddət Rusiyada yüksək inzibati vəzifələrdə işləmiş, hüquq-mühafizə sistemində xidmət etmiş, Rusiya Dövlət Dumasının deputatı, hüquq elmləri doktoru, professor Viktor İlyuxin çıxışlarının birində "Yeltsin mümkün olan hər şeyi dağıtdı" deyib. V. İlyuxin B. Yeltsini və M. Qorbaçovu dövlətə xəyanətdə ittiham edir və onların cinayət məsuliyyətinə cəlb edilməsi barədə yüksək tribunalardan çağırış edirdi.

Ermənistan SSR-nın Dövlət Təhlükəsizlik Komitəsinin (DTK) sədri, general-mayor U. Arutunyan verilən suala cavab verərək "Sovet İttifaqı bir günə dağıdılmadı, o Qərbin böyük səyi ilə planlı və mərhələli şəkildə dağıdılıb." Erməni əsilli DTK generalının belə məlumata malik olması təbiidir, ancaq maraqlısı odur ki, Qərbin bu planları həyata keçirməsi üçün ermənilərin xarici dövlət kəşfiyyat orqanları ilə əlaqələri barədə çoxlu məlumatlar var.

M. Qorbaçovun və Yeltsinin SSRİ-nin dağılmasında xüsusi marağının olması barədə O. Ojerelyev, O. Moroz, A. Proxanov, V. İlyuxin, Q. Züqanov və hədsiz dərəcədə çoxlu tanınmış mütəxəssis, alim, siyasi və ictimai xadimlərin fikirlərini qərb

ölkələrinin nümayəndələri də təsdiq edir.

SSRİ müdafiə naziri və SSRİ-nin son marşalı Dmitri Yazov: "M. Qarbaçovla B.Yeltsin birləşərək, oyun oynayaraq SSRİ-ni dağıdıblar" demişdir.

Tanınmış amerikalı alim, sovetşünas, professor, ABŞ-nın eks prezidenti Niksonun məsləhətçisi Dimitri Simes B. Yeltsinin SSRİ-nin dağılmasında xüsusi rol oynadığını hələ 1994-cü ilə "Foreign Affairs" jurnalının yanvar-fevral nəşrinin 81-ci səhifəsində qeyd edib. Böyük Britaniyanın baş naziri, "dəmir ledi" ləqəbli Marqaret Tetçer "SSRİ-nin dağıdılması planı üçün Qorbaçov ideal fiqur idi" deyib. Görünən odur ki, Qərb ölkələrinin SSRİ-nin dağılmasına hazırladığı planların həyata keçməsində M. Qorbaçov və B. Yeltsin xüsusi rolları və əməyi olub.

**SSRİ-nin dağılmasında ermənilərin Azərbaycandan Qarabağı qoparmaq istəyi, bu istəyi həyata keçirmək üçün Qərb ölkələri ilə gizli-xəyanətkar əlaqələri, Dağlıq Qarabağ SSRİ-nin dağılmasına səbəb olan əsas amillərdən biridir.**

Erməni əsilli rus politoloq S. Kurqinyan yazır ki, "Çeçenistan Rusiyanın Qarabağıdır. Çoxlarına elə gəlirdi ki, Qarabağ fövqəldövləti dağıda bilməz. O isə dağıtdı. Rusiyanın belini Çeçenistanda deyil, Çeçenistan üzərindən sındırırlar".

Digər bir məlumat isə demək olar ki, bütün azərbaycanlıların bildiyi bir həqiqətin rus rəsmisi tərəfindən etiraf edilməsidir. Rusiya Dövlət Dumasının deputatı Anatoli Çexoyev yazır ki, "Qarabağ konflikti Moskva tərəfindən işlənib hazırlanıb, yoxlanıldıqdan sonra universal model kimi başqa regionlara tətbiq edilib". Görünən də odur ki, post sovet respublikalarındakı etnik mənşəli konfliktlərin hamısı, gürcü-abxaz, gürcü-osetin, Dnestryanı-moldavan konfliktlərinin hər biri tarixinə görə Qarabağ konfliktindən sonra meydana gəlib və hələ də həllini tapmayıb, bu konfliktlərin respublikaları o cümlədən Azərbaycanı və Er-

mənistanı Rusiyanın təsir dairəsində saxlayıb və A. Çexoyevin qeyd etdiklərinə heç bir şübhə qalmır.

Dünya miqyaslı siyasətçi, SSRİ rərbərlərindən biri, SSRİ DTK-si generalı, müstəqil Azərbaycanın prezidenti mərhum Heydər Əliyev, Qarabağ konfliktinin Sovet ittifaqının saxlanması üçün hazırlandığını lakin, onun süqutuna başlanğıc olduğunu deyib.

20 yanvar 1990-cı ildə Sovet ordusunun Bakı şəhərində Azərbaycan xalqına qarşı törətdiyi vəhşiliyi, SSRİ rəhbərliyi, o cümlədən Qorbaçov, Rıjkov, Yazov, Primakov və başqaları SSRİ-ni saxlamaq məqsədi üçün Bakıya qoşun yeridildiyini bildiriblər.

Bu hadisədən qabaq, 14 iyul 1989-cu il tarixdə Azərbaycan SSR-nin Dağlıq Qarabağ Muxtar Vilayətində Xüsusi İdarə Komitəsinin başçısı Arkadiy Volskinin əmri ilə rus hərbçiləri vertolyotla Kəlbəcərə gələrək əsir erməniləri borta yığdıqdan sonra təpəyə yığışan və həmin vertolyotu alqışlayan 10-12 yaşlı 8 oğlan uşağı görən rus pilotu erməniləri əsirlikdə saxlayan Kəlbəcər camaatını cəzalandırmaq fikrinə düşür və vertolyotu uşaqlar olan təpəyə tərəf sürür. Uşaqlar elə başa düşürdülər ki, pilot vertolyotu onlara daha yaxın göstərmək üçün belə edir. Vertalyotu alqışlayan uşaqlar atıl-düş edərək vertolyota əl edirlər. Rus pilotu vertolyotu təpəyə çatanda yana əyir. Vertolyotun pərləri təpənin üzərində atılıb düşən 8 Azərbaycan balasını doğrayır və bir anda hadisə yerini tərk edir. Məmmədov Sahib Sultan oğlu (10 yaşında), Salmanov Ramiz Tofiq oğlu (8 yaşında), Valehov Anar Qardaşxan oğlu(7 yaşında), İbişov Cahid Telman oğlu (10 yaşında), Əsgərov Səxavət Dəmir oğlu (14 yaşında), Əsgərov Natiq Məhəmməd oğlu (14 yaşında), Xəlilov Bəxtiyar Rəhim oğlu (11 yaşında), Orucov Azər Zakir oğlu (7 yaşında) şəhid olur. Bu hadisə rus-erməni məkri ilə xalqımızı qabaqdan faciələr gözlədiyinə işarə edir...

Məhz Qarabağ konfliktini SSRİ-nin süqutuna əsas səbəb kimi göstərənlərdən biri də siyasi elmlər doktoru Aleksandr Perenciyevdir. Onun fikrincə SSRİ-nin süquqtuna səbəb olan Qarabağ konfliktinin yaranması, şişirdilməsi Qorbaçovun erməni əsilli məsləhətçisi A. Aqanbekyan və SSRİ Ali Sovetinin deputatı Qalina Starovoytovanın xüsusi xidmətləri nəticəsində baş tutub. Sözsüz ki, SSRİ-nin dağılmasında maraqlı olan dövlət rəhbəri Qarbaçov Azərbaycan-Ermənistan qarşıdurmasının alovlanmasını istəyirdi. Bu məsələdə erməni separatçıların maraqları ilə Qorbaçov kimilərin maraqlarının üst-üstə düşməsi erməni-qorbaçov tandemini yaratmışdı. Təbii ki, Yeltsin də Qarabağ konfliktinin alovlanmasında maraqlı idi, yuxarıda qeyd etdiyimiz kimi onun məqsədi hər bir yolla da olsun SSRİ-ni məhv etmək idi. Əslində bu tandem tam şəkildə belədir : "Qərb-ermənilər-Qorbaçov-Yeltsin".

Əlbəttə ki, Qarabağ konflikti milli azadlıq hərəkatlarının yaranmasına səbəb olmaqla, SSRİ rəhbərliyinin ədalətsiz mövqeyinin və SSRİ-nin dağılmasına hesablanmış məqsədyönlü laqeydliyinin gözlənilən nəticəsi idi.

**Sovet İttifaqının dağılmasını təbii proses kimi qiymətləndirənlərin fikirləri də əsaslı görünür.** Tarix elmləri doktoru, professor Natalya Basovskaya SSRİ-nin dağılmasını bütün imperiyalar kimi təbii proses adlandırır. Bəzi mütəxəssislərin fikrincə SSRİ-nin dağılması 70-80-ci illərdən başlamışdı. Türk dünyasında böyük nüfuz sahibi SSRİ KPMK Siyasi Bürosunun üzvü Qazaxıstan Respublikasının sabiq Prezidenti Nursultan Nazarbayev SSRİ-nin dağılmasını təbii proses adlandırır. Rus alimi, yazıçı-publisist Leonid Radzixovski apardığı araşdırmalarının nəticəsi kimi "SSRİ-nin dağılması qaçılmaz idi" qənaətinə gəlib. Rusiyanın keçmiş Baş naziri Mixail Kasyanovun da fikrincə Sovet İttifaqının dağılması qaçılmaz idi. Əlbəttə Sovet

İttifaqı sosializm ideyası üzərində qurulsa da xalqların zindanı idi. Avtoritar rejimli, konservləşdirilmiş cəmiyyət saxlanma müddətinə malikdir və onun dağılma prosesi qaçılmazdır. Tarixi faktlar göstərir ki, SSRİ-nin dağılması da labüd idi. Həqiqətən SSRİ-nin təşkilində böyük tarixi qüsurlar mövcud idi. Əvvəla həmin respublikalar müstəqil dövlətlər kimi bolşevik Rusiyası tərəfindən işğal edilərək ittifaqa birləşdirilmişdi, ölkə daxilində xalqların süni miqrasiyası, məskunlaşması aparılırdı və xalqların əsrlər boyu yaranmış sərhədləri dəyişdirilirdi. Sözsüz ki, bu proses təbii deyildi, xalqları birləşdirən süni kommunizm, sosializm ideyası zorla qəbul etdirilmişdi, bütün Sovet İttifaqı kommunist partiyasının və DTK-nin total nəzarətində idi, ölkə avtoritar və totalitar rejimin əlamətlərini özündə birləşdirən üsulla idarə olunurdu. Təbii ki, belə bir cəmiyyətin ömrü uzun ola bilməzdi.

SSRİ adlı bir dövlət, qapalı cəmiyyət və imperiya idi. Bu dövlətin təbii ki, hər bir qapalı cəmiyyət kimi, hər bir imperiya kimi dağılması labüd idi. Belə dövlətləri "konservləşdirilmiş" dövlət adlandırırlar və təbii ki, saxlama müddəti müəyyən dövrə kimidir. ABŞ başda olmaqla qərb ölkələrinin SSRİ-nin dağılması üçün illər öncə hazırladığı plan nəhayət ki, baş tutdu. Əlbəttə ki, bu planın baş tutmasında 15 respublika da, milli azadlıq hərəkatları da müəyyən rol oynayıb, ancaq bu rol həlledici amil olmayıb. Sözsüz ki, mərkəz Moskvanın verdiyi və göz yumduğu boşluqlar boğulmuş milli azadlıq hərəkatlarının oyanmasına, dirçəlməsinə, vüsət almasına səbəb olub. Digər Sovet respublikaları sırasında öndə olanlardan biri də Azərbaycan idi. Ermənilərin Azərbaycandan torpaq iddiasına göz yuman SSRİ rəhbərliyi, ermənilərin Dağlıq Qarabağı Azərbaycandan qoparmaq istəklərini dəstəkləyən SSRİ, Rusiya rəhbərliyinin haqsız mövqeyinə görə Azərbaycan xalqının Milli Azadlıq Hərəkatı

daha möhtəşəm və əyilməz oldu. 1990-cı ilin 19-20 yanvar gecəsi Sovet ordusunun Bakıda dinc Azərbaycan xalqına xəyanəti və qəsbkarlığı dünya tarixinə 20 yanvar faciəsi kimi düşüb. Və sözsüz ki, 20 yanvar qırğını SSRİ-nın dağılmasını tezləşdirən, Azərbaycanın müstəqilliyini qaçılmaz edən, Azərbaycan xalqının qəhrəmanlığının, müstəqillik hissinin ölməzliyinin sübutudur. Həmin dövrdə hər bir azəri türkü milli vəhdətin zərrəsinə çevrilmişdi. Bu vəhdət müstəqilliyimizi özümüzə qaytardı. Bu proseslərdə lider məhz xalqın özü idi.

Qeyd edilənlərdən belə bir əsaslı qənaətə gəlmək mümkündür ki, Sovet İttifaqı iqtisadi, siyasi, ideoloji səbəblərin kompleks şəklində təsirindən dağılıb, göstərilən səbəblərin meydana gəlməsi də SSRİ adlı bir ölkənin təbii proses nəticəsində deyil, zorla, tarixi qüsurlarla qurulmasında idi. Ona görə də SSRİ-nin dağılmasına əsas olan səbəblərin meydana çıxması təbii, SSRİ-nin dağılması isə gözlənilən proses idi.

## Rusiyanı da ermənilər parçalayacaq

300 illik tarixə malik olan erməni rus yaxınlaşması yaxın şərqdə və əsasən də Qafqazda köklü siyasi və demoqrafik dəyişikliklərə səbəb olub. 1-ci dünya müharibəsi zamanı Rusiya, İngiltərə, Fransa və ABŞ-ın erməni dövlətini Osmanlı Türkiyəsi ərazisində, Şərqi Anadoluda yaratmaq niyyəti məlum faktdır. Hər bir halda, Qafqaza ermənilərin kütləvi köçürülməsini planlaşdıran və həyata keçirən Rusiyanın əsas məqsədi Qafqazda xristian-pravoslav qondarma xalqın və dövlətin yaranması ilə yaxın şərqi və bütün Qafqaz xalqlarını təsir dairəsində saxlamaq idi. Rusiya siyasi məqsədlərini reallaşdıra bildi. Lakin bu plan nəticədə əks effekt verməyə başladı. Rusların göstərişi və dəstəyi ilə bütün Qafqaz xalqlarını həm fiziki həm də siyasi hə-

dəfə alan ermənilər rusların özləri üçün də həlli mümkün olmayan problemə çevrildilər.

Rus erməni yaxınlaşmasının 300 illik tarixinin bütün dövrlərində ermənilər rus dövlətini erməni terrorunun, ekstremizminin hədəfinə çevirib və müəyyən nəticə əldə edə biliblər. Hələ XVIII əsrdə rus imperatirisa Yelezaveta, XIX əsrdə I Nikolay və III Aleksandr, XX əsrdə II Nikolay adlı rus çarları erməni terrorunun, ekstremizminin və separatizminin qarşısını almaq məqsədi ilə müxtəlif sərəncamlar və fərmanlar vermişlər.

1742-ci ildə rus imperatirisa Yelezaveta ermənilərin və onların kilsələrinin rus dövlətinə xəyanətlərini görərək atası Pyotrun qərarlarını ləğv etmiş və ermənilərə xüsusi himayədarlığa son verərək kilsə müstəqil idarəçiliyini ləğv etmişdir.

Rus çarı I Nikolay rus dövlətinin dağılma təhlükəsinə çevrilən erməni terrorunun, separatizminin və ekstremizminin qarşısını almaq məqsədi ilə 1840-cı ildə öz fərmanı ilə 1828-ci ildə Azərbaycanın tarixi ərazilərində yaratmış olduğu erməni vilayəti ləğv edərək, erməni kilsələrinə qadağa qoydu.

1882-ci ildə növbəti rus çarı III Aleksandrın tapşırığı ilə rus dövlətində müxtəlif vəzifələr tutan ermənilərin postundan uzaqlaşdırılması baş verdi, az sonra isə erməni kilsə və məktəbləri bağlandı. Rus məktəblərində tədris olunan, saxta yazılan erməni tarixinin tədrisinə son verildi.

1902-ci ildə isə başqa bir rus çarı II Nikolay öz fərmanı ilə erməni kilsələrini və məktəblərini bağladı, erməni terror təşkilatı "Daşnakstyun" Rusiya imperiyası ərazisində qadağan edilərək terror təşkilatı elan edildi. 1912-ci ildə "Daşnakstyun" terroristləri üzərində Peterburqda başlanan dövrünün ən böyük məhkəmə araşdırmasına etnik mənşəcə erməni 159 təqsirli şəxs cəlb olunmuşdu.

Artıq elmi və siyasi baxımdan ermənilərin terrora, ekstremizmə, separatizmə meylli olan millət olmaları bir aksiomadır.

Erməni terroru öz fəaliyyətini Sovet tarixində davam etdirib. SSRİ-də Moskvada ilk terror məhz, ermənilər tərəfindən törədilmişdi. Sakit sovet əhalisinə "terror" bir anlayış kimi naməlum olmasına baxmayaraq 08 yanvar 1977-ci ildə Moskvada 3 ardıcıl terror aktı baş verdi. Ermənilər ilk olaraq Moskva metrosunun "İzmaylov" stansiyasında, sonra 25 Oktyabr adlı küçədə yerləşən ərzaq dükanında və küçədə yerləşən zibil qutusunda partlayış etdilər. Aparılan Məhkəmə iclasında terrorçu ermənilər erməni dilində erməni xalqına müraciət edərək rus dövlətini məhv etməyə çağırırdılar.

Bəzi tarixçilərin və siyasətçilərin gəldiyi elmi və məntiqi nəticəyə görə ermənilərin başladığı Dağlıq Qarabağ konflikti və müharibəsi Sovet İttifaqının süqutuna əsas səbəbdir. Yeri gəlmişkən xalqların böyük köç miqrasiyası yolları hesab edilən və 50-dən çox xalq yaşayan Qafqazda Ermənistan yeganə monoetnik dövlətdir. Bu faktın özü, bu dövlətin və xalqın süni şəkildə yaranmasının və başqa xalqlara qarşı dözümsüzlüyünün sübutudur. Monoetnik Ermənistan bütün qonşularına qarşı, Azərbaycana, Gürcüstana, Türkiyəyə, Rusiyaya qarşı ərazi iddia edir. Ermənilər heç bir tarixə, elmə, məntiqə sığmayan cəfəng təfəkkürlə Ukraynanın Kiyev şəhərinə, Gürcüstanın Tiflis şəhərinə, ingilislərə, almanlara və hətta qədim Misirə belə iddialıdırlar. "Erməni sindiromu" adlanan xəstəliyin tələbləri o həddə çatıb ki, yəhudi mənşəli İsa peyğəmbəri, eləcə də Nuh peyğəmbəri "erməni"ləşdirirlər.

SSRİ-nin süqutundan sonra milli və etnik regionlardan təşkil olunmuş Rusiyanın dağılma ehtimalı daha da yüksəkdir. SSRİ-nin dağılmasından sonra Qərbin qarşısına qoyduğu növbəti məqsəd məhz, Rusiyanın dağıdılmasıdır. Bu baxımdan qərb

dövlətləri ilə ermənilərin maraqları üst-üstə düşür. Əlbəttə Rusiyanın dağılması qaçılmaz siyasi bir proses olsa da bu prosesi tezləşdirə biləcək bir qüvvə varsa, o da məhz, ermənilərdir. Artıq ermənilər Rusiyanın dağılmasına start veriblər. İlk növbədə ermənilər rusları informasiya blokadasında saxlayır və bu gizli fakt deyil. Rusiya informasiyasının gündəmini məhz ermənilər müəyyən edir və bu hal erməniləri rusların danışan dilinə çevirib.

Rusiya Erməniləri İttifaqının rəhbəri Ara Abramyan Rusiya Prezidenti V. Putinlə dialoqu zamanı V. Putin Ermənisatanda artıq ermənilərin qalmadığını və orada cəmi 500 000 əhalinin olduğunu qeyd etdi və beləliklə də qalan 2500000 əhalinin məhz, Rusiyada daima yaşadığı faktı təsdiqləndi.

Rusiyada baş verən bütün siyasi və iqtisadi proseslərdə ermənilər öz xeyirlərinə yararlana bilirlər. Bir nümunə: Rusiya Ukraynanın Krımını ilhaq etməyini ermənilər böyük həvəslə dəstəkləyərək Krımda yaşayan ermənilər üçün siyasi nəticə əldə edə bildilər, nəticələrdən biri də budur ki, ermənilərə regional səviyyədə erməni dilindən istifadəyə hüquqi baza yaradıldı, yerli toponimlər erməni dilinə keçirildi, erməni məktəb və kilsələrinin sayı kəskin artırıldı və ermənilər hakim vəzifələrə gətirildi. Ermənilər Krımın ilhaqını dəstəkləməklə Rusiyada ermənilərin mövqeyini gücləndirdilər, Rusiyanın beynəlxalq arenada təklənməsinin reallaşmasına kömək etdilər və Krımda ilkin nəticəni əldə etdilər.

Ermənilərin bütün qonşularına torpaq iddiasının əsasında dənizdən dənizə böyük Ermənistan yaratmaq xülyası durur. Son dövrdə Qara dəniz ətrafında ermənilərin kompakt halında yaşaması və digər Rusiya regionlarından etnik ermənilərin Qara dəniz ətrafına və Rusiyanın Krasnodar əyalətinə kütləvi köç etməsi əsl erməni xislətindən xəbər verir, bu regionda er-

məni mədəni muxtariyyətinin formalaşması perspektivdə bu regionun itirilməsinə səbəb və əsas olacaq. Son dövrlərə Krasnodar əyalətində, Qara dəniz ətrafında yerli əhalinin, əsasən də rusların sıxışdırılması və rusların həmin əraziləri tərk etməsi intensivləşib. Ermənilərin Krasnodarı ələ keçirməsi üçün rus dövlətinin zəifləməsi hökməndir. Yuxarıda qeyd edildiyi tarixi faktlardan göründüyü kimi, sonsuz sayda rus və digər mənşəli tanınmış şəxslərin fikirlərini nəzərə alsaq görərik ki, ermənilər tarix boyu sığındığı xalqlara xəyanət ediblər. 1-ci dünya müharibəsində Türkiyədə yüksək mövqeyə malik olan ermənilər daxildən Türkiyəyə xəyanət edərək Türkiyə düşmənlərinə qoşularaq Türkiyəni parçalamağa və Türkiyə ərazisində dövlət qurmağa cəhd etdilər. Başqa bir nümunə: Yaxın şərqdən Azərbaycan ərazisinə köçürülən ermənilər XX əsrdə azərbaycanlılara qarşı 4 dəfə soyqırım törətdilər, Qarabağı işğal etdilər. Digər nümunə: Gürcüstanın Cavaxetiya bölgəsi faktiki erməni separatçılarının nəzarətindədir və həmin əraziyə ermənilər ilk öncə muxtariyyət tələb edirlər.

Ermənilərin Rusiyanın Krasnodar əyalətində, Qara dəniz ətrafında istəklərini reallaşdırmaq üçün Rusiyanın beynəlxalq arenada daha da təklənməsi, sanksiyalara məruz qalması, eləcə də Çinin Rusiya Sibirinə sülh ekspansiyası və demoqrafik köçü erməniləri öz məqsədlərinə yaxınlaşdıran amillərdir. Ermənilərdə terror, ekstremizm, separatizm və xəyanət identik quruluşdur. Qarabağla SSRİ-ni süqut etdirən ermənilər Krasnodarla da Rusiyanı süqut etdirəcək.

## Ermənistan hərbçiləri Suriyada

Son dövrlərdə Azərbaycanın, Rusiyanın dirijoru olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzvlük və ya "müşahidəçi" qismində cəlb edilməsi barədə diskussiyalar əslində xalqımızın refleksini yoxlamaqdır. Rusiya rəsmilərinin verdiyi "təklif" əslində siçan tələsindəki pendir kimidir, bu təklifin bizim üçün nə dərəcədə effektli olması barədə söz-söhbətlər satqın fikirli və siyasi savadsızların düşüncə tərzinin güzgüsü və sübutudur. Əsl həqiqətdə isə Azərbaycan Respublikasının KTMT-na üzv olmasının daha böyük təhlükəsi var, bu təhlükə işğal altındakı Qarabağ və Qarabağ ətrafı rayonlarımızın birdəfəlik itirilməsi ilə bitməyəcək. Məsələ ondadır ki, KTMT-na hər hansı bir yolla cəlb edildikdən sonra Qarabağ məsələsi KTMT-nın daxili məsələsi olduğundan və siyasi baxımdan aktuallığını itirəcək, ermənilər de-fakto işğal altındakı torpaqlarımıza nəzarəti saxlayacaq, məskunlaşma davam etdiriləcəkdir. Azərbaycan üçün isə qarabağlı nəsil erası bitəcək.

KTMT ilə bağlı xalqımıza iki mühüm faktı xatırlatmaq istəyirəm, 1-ci Rusiya postsovet respublikalarına Rusiya vətəndaşlığının verilməsini sadələşdirib. 2-ci Rusiya Azərbaycanın qərb zonasındakı rayonlarımızın əhalisinə "Rusiya vətəndaşlığı" "hədiyyə" edib, Abxaziya, Osetiya, Dnestryanı, Luqanski, Donetski kimi. Azərbaycanın hər hansı bir şəkildə KTMT-na "üzv" olması nəticə etibarı ilə müstəqilliyimizi təhlükə altına alacaq. Təbii ki, Azərbaycan xalqı buna öz reaksiyasını bildirəndə Rusiya bizə artıq Qarabağı deyil, Azərbaycanın Qərb bölgəsini xatırladacaq, biz buna məhəl qoymasaq Qərb bölgəmizdə vəziyyət nəzarətimizdən çıxacaq. Bunu etiraf etmək lazımdır, bu gün bizə Qarabağla təsir edirlər, səhər Qərb bölgəsi ilə təsir edəcəklər.

Azərbaycanın KTMT-na "üzvlüklə" Qarabağ məsələsinin öz xeyrinə həll ediləcəyini düşünənlərə isə bir faktı xatırlatmaq istəyirəm. Bəzi politoloqlar, siyasətçilər qeyd edir ki, Rusiyanın təsiri və təhdidi ilə Ermənistan öz ordusunu Suriyaya yolladı. Fikir verin, Ermənistan hətta Qərb dövlətlərinin və ABŞ-ın etirazlarına baxmadan Suriyaya öz hərbiçilərini yolladı, əlbəttə ki, Ermənistanın Suriyada maraqları olmasaydı özünü bu qədər risklərə atmazdı, ermənilər bu addımla ruslara sadiqliyini göstərməklə əsas məqsədlərinə, yəni ermənilərin Suriyadan Qarabağa intensiv və planlı şəkildə köçünü təmin etdilər. Əsl həqiqət isə elə budur. Ermənistan Suriyaya ordu bölmələrini yeritməklə faktiki olaraq Suriyada "konsulluq" fəaliyyətinə başladı və Ermənistan ordu bölmələri Suriyada yaşayan ermənilərin Qarabağa köçürülməsi ilə məşğuldur.

Bir fikrimi də diqqətinizə çatdırım: Sovet dövründə Rus rəhbərliyinin dəstəyi ilə yaranmış Qarabağ konflikti əsl həqiqətdə elə bu məqsəd üçün yaradılıb-Azərbaycanı, ümumilikdə isə Qafqazı nəzarətdə saxlamaq və bu tipli konfliktlərin əsas xətti postsovet respublikalarının rus təsir dairəsindən çıxmasının qarşısını almaqdır.

Azərbaycanın KTMT-na hər hansı bir halda üzv olması, işğal olmuş ərazilərimizlə yanaşı digər yeni ərazilərimizin, ən əsası isə müstəqilliyimizin itirilməsinin fundamentidir. KTMT-na "üzvlük" əsla yolverilməzdir. Ümumiyyətlə Rusiyanın təşkil və təklif etdiyi təşkilatlara qoşulmağımız axır nəticədə müstəqilliyimizə təhlükə mənbəyidir.

## İraq Kürdüstanı, İspaniya Kataloniyası...
## 2017-ci ilin buraxılmış şansı

2017-ci ildə beynəlxalq aləmdə, konkret olaraq İraq Kürdüstanında, İspaniya Kataloniyasında baş vermiş ardıcıl geosiyasi və siyasi proseslərdən Azərbaycan yararlana bilmədi. Niyə?

Qeyd etmək vacibdir ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasının 22 sentyabr 2017-ci il tarixli qərarında İraq dövlətinin ərazi bütövlüyü dəstəkləndi və 25 sentyabrda İraq Kürdüstanının keçirəcək olduğu referendum regiona qeyri-sabitlik və gərginlik gətirəcəyi elan olunmuşdu.

25 sentyabr 2017-ci ildə İraq Kürdüstan muxtariyyətinin mərkəzi Bağdad hökumətinin razılığı olmadan keçirdiyi müstəqillik referendumu demək olar ki, bütün dünya ölkələri tərəfindən dəstəklənmədi və qınandı.

Dünya aparıcı ölkələrinin hadisəyə kəskin mövqedən çıxış etmələri diqqəti cəlb etdi. Bütün Avropa ölkələri rəsmi qaydada İraq Kürdüstanındakı separatizmi pislədilər, İraq dövlətinin ərazi bütövlüyünün dəyişməz olduğunu elan etdilər. Hətta ABŞ və Rusiya Ərbilin, Bağdadın razılığı olmadan keçirdiyi müstəqillik referendumunun nəticələrini tanımadıqlarını bəyan etdilər, baxmayaraq ki, öncədən həm ABŞ, həm də Rusiya İraq kürdlərinə dəstək verirdilər. Regionun aparıcı dövlətləri, Türkiyə və İran Masud Bərzaninin özbaşına mərkəzi İraq hökumətinin razılığı olmadan separatist xarakterli referendum aktını kəskin pisləyərək İraq Kürdüstanına hərbi müdaxilə edəcəklərini dilə gətirərək rəsmi Bağdad hökumətinə hər tərəfli yardımçı olacaqlarını da elan etdilər.

İraq Kürdüstan muxtariyyətinin lideri Masud Bərzani təkləndiyindən və Kürdüstanın İraq tərkibində muxtariyyətinin ləğvinin qarşısını almaq məqsədi ilə əvvəlcə “İşid”lə mübarizə

zamanı əldə etdiyi etnik tərkibli türkmanlardan ibarət olan neftlə zəngin Kərkük əyalətindən çıxaraq mərkəzi İraq hökumətinə təhvil verdi. Sonradan təzyiqlərə tab gətirməyən İraq Kürdüstan muxtariyyətinin lideri Masud Bərzani istefaya getdi.

İraq Kürdüstan muxtariyyətinin separatist addımları kürd xalqına ağır nəticələr verdi. Ən başlıcası o idi ki, İraq dövlətinin parçalanmasını arzulayan və planlaşdıran az sayda bəzi dövlətlərin vədlərinə sahib durmaması kürdlərin müstəqillik inamını sındırdı. İkincisi, muxtariyyətin nəzəratində olan digər əraziləri itirdilər və bu ərazilərlə birlikdə muxtariyyətin büdcəsinin 60% təşkil edən neft gəlirlərindən məhrum oldular, muxtariyyətin beynəlxalq əlaqələri mərkəzi Bağdad hakimiyyəti tərəfindən nəzarətə götürüldü və yeganə çıxışı olan Türkiyə ilə əlaqələr daha da ağırlaşdı. İraq Kürdüstan muxtariyyətinin separatist istəyi belə cəzalandırıldı.

2017-ci ildə dünyada baş vermiş hadisələrdən ən başlıcası İspaniyanın Kataloniya əyalətində separatist meylli regional hökumətin keçirdiyi müstəqillik referendumudur. Qeyd edək ki, 01 oktyabr 2017-ci il tarixdə İspaniyanın Kataloniya əyalətində mərkəzi Madrid hakimiyyətinin razılığı olmadan regional yerli hökumətin müstəqillik referendumu keçirildi. 27-i oktyabrda isə Kataloniya regional parlamenti müstəqillik elan etdi. Mərkəzi Madrid hakimiyyəti Kataloniyada müstəqillik ideyasının aparıcı qüvvəsi Kataloniyanın regional rəhbəri Puçdemon vəzifəsindən azad edildi, regional parlament dağıdıldı və birbaşa Madriddən idarəetmə tətbiq olundu. Separatist liderlərə qarşı cinayət işi açıldı, çoxlu sayda vəzifəli şəxslər həbs edildi. Puçdemon başda olmaqla və bir neçə separatist İspaniyadan qaçaraq Belçikaya sığındılar.

İspaniya Kataloniyasının mərkəzi Madrid hakimiyyətinin razılığı olmadan müstəqillik referendumu keçirməsi və müstəqilliyini elan etməsi ABŞ, Rusiya, Çin, Almaniya və sair dünya ölkələri tərəfindən kəskin tənqid edildi, İspaniyanın ərazi bütövlüyü dəstəkləndi. BMT-nin baş katibi Antonio Qutereş Kataloniya konfliktinin İspaniyanın daxili işi olduğunu bəyan etdi.

Kataloniya regional hakimiyyətinin separatçı istəyi separatçı meylli liderlərin regional hakimiyyətdən uzaqlaşmasına və təmizlənməsinə, Madriddən birbaşa idarəetmənin tətbiqinə səbəb oldu.

İraq Kürdüstanında və İspaniya Kataloniyasında baş verən hadisələr dünya dövlətlərinə separatizmin nə qədər təhlükəli olmasını xatırladaraq, başqa dövlətlərin ərazi bütövlüyünü şübhə altına alan separatist qüvvələrə dəstək verən dövlətləri düşünməyə məcbur etdi. ABŞ-da, Rusiya da, Çin də, Fransa da, İspaniya da, İtaliya da, ümumiyyətlə bütün dövlətlər separatizmin ancaq keçmiş SSRİ ərazisində, Şərqdə deyil, bütün dünya və güclü dövlətlərin də təhlükəsinə mənbə olduğunu bir daha göstərdi. Bu durumda dünya dövlətləri separatizmin hər bir halda büruzə verməsinin qarşısını almaqda israrlı olduqlarını göstərdilər.

Bəs biz bu şəraitdən niyə yararlana bilmədik?!

Yadımıza salaq ki, keçmiş DQMV Azərbaycan Respublikasının tərkib hissəsi olmaqla SSRİ-nin dəstəyi və Ermənistanın hərbi müdaxiləsi nəticəsində "müstəqillik referendumu" keçirilmiş, "müstəqilliyi" elan edilmiş, Azərbaycan Respublikasının həm tarixi, həm də siyasi ərazisidir. Hansı ki, dünyanın heç bir dövləti və beynəlxalq təşkilatı həmin "müstəqilliyi" tanımamışdır. Üstəlik Dağlıq Qarabağ ətrafı 7 (yeddi) rayonumuz erməni separatistləri və Ermənistan ordusu tərəfindən işğal edilmişdir.

Bir milyondan artıq etnik azərbaycanlılar öz tarixi torpaqlarımızdan qovulmuş, Ermənistan ordusu və erməni separatçıları tərəfindən etnik azərbaycanlılara qarşı dünya dövlətlərinin tanıdığı soyqırımlar törətmişlər. Erməni separatistləri və Ermənistan Respublikası dövlət qoşunları Azərbaycan Respublikasının beynəlxalq təşkilatların və dövlətlərin beynəlxalq səviyyədə tanıdıqları ərazilərimizin işğal faktı 25 ildən artıqdır ki, davam edir. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi üzrə 822 (1993), 853 (1993), 874 (1993) və 884(1993) saylı Qətnamələri ermənilər tərəfindən işğal edilmiş Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionundan və işğal edilmiş ətraf rayonlardan dərhal,qeyd-şərtsiz çıxarılmasını tələb etsə də dünyanın ən ali beynəlxalq təşkilatının qətnamələri icra edilmir.

Beynəlxalq hüquq və beynəlxalq siyasi vəziyyət Azərbaycan dövlətinin lehinə olduğu halda niyə Azərbaycan öz ərazilərini hərb yolu ilə azad etmək istəmədi?

Sözsüz ki, bu istəyin qarşısını alan Rusiyadır. Əvvəla qeyd edim ki, SSRİ-nin birinci, sonuncu prezidenti M.S. Qarbaçov Qarabağ məsələsində Rusiyanın gələcək siyasətini müəyyənləşdirdi, bu istiqamət Rusiya prezidenti B.N. Yeltsin tərəfindən daha da sərt, açıq şəkildə erməni separatizmini və Ermənistanı dəstəkləməklə ermənilərin Azərbaycan ərazisinin işğalına başlıca amil oldu. Birmənalı olaraq, Qarabağ konfliktinin həlli bu gün Rusiyadan asılıdır.

D. Tramp administrasiyasının açıqlaması Qarabağ məsələsinin Rusiya təsir dairəsində olmasını bir daha təsdiqlədi. Rusiya XİN-i S. Lavrovun: "Qarabağ Azərbaycanın daxili problemi deyil" açıqlaması Qarabağ konfliktində Rusiyanın gizli olmayan maraqlarını bir daha xatırlatdı.

Ermənistan-Rusiya rəsmi hərbi əlaqələri 29.12. 1991-ci ildə "Dostluq, əməkdaşlıq və təhlükəsizlik" müqaviləsi ilə başlamışdır.

Ermənistan və Rusiya arasında 21.10. 1994-cü ildə imzalanan müqaviləyə əsasən Rusiya Gümrü və İrəvanda olmaqla iki hərbi baza qurmuşdur.

2010-cu ildə isə Rusiya-Ermənistan ikitərəfli müdafiə müqaviləsinin, Gümrüdə Rusiya hərbi bazasının icarə müddəti 2044-cü ilə qədər uzadılmışdır.

Ermənistan Rusiyanın təklif və təşkil etdiyi Kollektiv Təhlükəsizlik Təşkilatına 15.05.1992-ci il MDB üzv dövlətlərinin Daşkənddə imzaladığı müqavilə əsasında daxil olmuşdur.

14.11.2016-cı ildə isə V.V. Putinin imzaladığı sərəncamla Rusiya-Ermənistan birgə qoşun birliyi yaratmışdır.

Rusiya ilə Ermənistan arasında ikitərəfli hərbi müqavilə və KTM-nin şərtləri, Ermənistan dövlət sərhədinin Rusiya nəzarətində olması, Qafqazda yeganə rus hərbi bazalarının Ermənistanda yerləşməsi və eyni zamanda Ermənistan iqtisadiyyatının tam şəkildə Rusiya nəzarətində olması de fakto Ermənistanı Rusiyanın əyalətinə çevirmişdir. Qarabağ konflikti Rusiyanın Zaqafqaziyada olmasını təmin edən və Zaqafqaziya dövlətlərinə, əsasən də Azərbaycan və Ermənistana təsirinin zəmanətidir. Odur ki, Qarabağ konfliktinin bu günki vəziyyətdə faktiki olaraq dondurulmuş halda saxlanılması ancaq və ancaq Rusiya maraqlarına xidmət edir.

Ancaq ki, beynəlxalq aləmdə situasiya dəyişkən olur, müttəfiqlər tərəflərə, tərəflər müttəfiqə çevrilir. Suriya məsələsi bu hala əyani sübutdur. Rusiyanın şərqi Ukrayna və işğal etdiyi Krıma görə beynəlxalq sanksiyalara məruz qalması, Rusiyanın Suriya problemində əsl həqiqətdə NATO müttəfiqlərinin və koalisiyanın hədəfinə çevrilməsi, MDB və KTM dövlətləri arasında fikir ayrılıqları, Ermənistanın Avropa ittifaqı ilə assosiasiya müqaviləsinin imzalaması, Ermənistanda faşist erməni cəlladlarının qəhrəman elan edilməsi, erməni faşizminin dövlət siyasəti-

nin təbliği, Ermənistanda rusofobiyanın və antirus meyllərinin pik həddə çatması Rusiyanı Ermənistanı cəzalandırmaq fikrinə salmışdı. Bu fonda Azərbaycanla Rusiya arasında həm dostluq, həm də ticarət əlaqələrinin yüksək olması, eyni ilə beynəlxalq arenada Rusiyanın təklənməsini əngəlləyən Azərbaycan xarici siyasəti, çoxlu beynəlxalq məsələlərdə həmfikir olması və bu günə kimi də Aİ-lə assosiasiya müqaviləsi imzalamayan Azərbaycanın Qarabağ məsələsində şanslarının yüksək olmasının sübutudur. Azərbaycanda rus dilinə, rusdilli əhaliyə və onların inanclarına olan isti münasibət, ikinci dünya müharibəsinin tarixinin qorunması Azərbaycan-Rusiya əlaqələrinin pozulmasına qarşı amillərdəndir. Həm də Azərbaycan enerji resurslarına malik iqtisadi və siyasi cəhətdən dayanıqlı, Qafqazın ən böyük dövləti və güclü ordusuna malikdir. Azərbaycan dünyanın ən güclü ordularından birinə sahib olan Türkiyə ilə hərbi müqavilə imzalayan dövlətdir.

Qeyd edilənləri Rusiya nəzərə alaraq Azərbaycan-Ermənistan Dağlıq Qarabağ konfliktində neytral vəziyyətdə qalacaqdı, əgər Azərbaycan müharibə yolu ilə Qarabağı azad etmək üçün hərbi əməliyyatlara başlasaydı, Rusiya heç bir halda Azərbaycanın dövlət ərazisinə müdaxilə etməyəcəkdi. Azərbaycanın Dağlıq Qarabağda hərbi əməliyyatlara başlaması Rusiyanın maraqlarına qısa müddətli olsa da xidmət edəcəkdi, bununla Rusiya Ermənistanı cəzalandırmaqla Ermənistanın dövlət kimi mövcudluğunun qarantı olduğunu əyani sübut edəcəkdi.

Dünya dövlətlərinin, Azərbaycanın Qarabağda başladığı hərbi əməliyyatlarına münasibəti İraq Kürdüstanı və İspaniya Katatoniyası fonunda susqunluqla müşahidə ediləcəkdi. Ermənistanı dəstəkləyən, Qarabağ və ətraf rayonların işğalında xüsusi xidməti ilə seçilən İran dövlətinin Suriyada apardığı əməliyyatlar fonunda Tramp administrasiyasının İranı hər hansı bəhanə

ilə cəzalandırmaq istəyi İranı Ermənistana yardım fikirlərindən yayındıracaqdı. Bununla da Azərbaycan Qarabağ məsələsində böyük irəliləyişə, bəlkə də konfliktin tam həllinə nail olacaqdı. Odur ki, 2017-ci ilin bizə verdiyi tarixi şansı qiymətləndirə bilmədik!

**Azərbaycan xalqının sülhə hazırlanması, bizim gələcək nəsillərimizə həlli mümkün olmayan problemi miras saxlamaqdır**

Düşmən ocaq başında olar. Bu deyimin dövlətlərə də, xalqlara da bir başa aidiyyəti var. Soyuq müharibə dövründə SSPİ-nin təsir dairəsində olan Kuba ilə ABŞ-ın bir başa diplomatik əlaqələri yox idi və Kubada Raul Kastronun hakimiyyətinin son dövrünə kimi, bu iki dövlətin münasibətləri müharibə vəziyyətində idi. 1959-cu ildən başlayaraq Kastronun 47 illik hakimiyyəti dövründə ABŞ onu devirmək üçün 600 dəfə cəhd göstərib. ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi Kastronu devirmək üçün onlarla əməliyyat qurub. Hər cəhd uğursuz olub.

1954-cü ildən başlayaraq ABŞ-nın Vyetnamla kəskin münasibəti və 1955-1975-ci illərədək davam edən ABŞ-Vyetnam müharibəsi faktiki Vyetnamın qələbəsi ilə başa çatdı. Bütün bu illərdə ABŞ Vyetnamda çoxlu dövlət çevrilişinə cəhd edib, baş tutmayıb. ABŞ 20 il sonra, yəni 1995-ci ildə Vyetnamda insan hüquqları ilə bağlı vəziyyətin yaxşılaşması adı ilə diplomatik münasibətləri bərpa edib. Belə nümunələr yetərlidir ki, inamla deyə bilərik, bəzən düşmənlə barışmaq və onu ölkə daxilinə buraxmaq böyük fəlakətlərin əsasını qoyur.

Həm Kubada həm Vyetnamda ABŞ-ın uğursuzluqlarının əsas amili Kuba və Vyetnamla bir başa siyasi, iqtisadi, mədəni

əlaqələrin olmaması, eləcə də bu ölkələr arasında fiziki şəxslərin azad hərəkət qadağası və bu ölkələrin düşmən hərəkətlərinə hər an hazırlıqlı olması ABŞ-ın arzu etdiyi dövlət çevrilişini lazımi səviyyədə təşkilini mümkünsüz etdi.

Azərbaycan və Ermənistan münasibətlərinin analizi yuxarıda deyilənlərin əyani sübutudur.

Ermənilərin Qafqaza köçürülmə tarixindən, yəni bu 200 il müddətə yaxın tarixdə Azərbaycan xalqının başına açdıqları soyqırım, xəyanət məhz, bizim ermənilərə qucaq açdığımız və qəbul etdiyimiz andan başlayaraq 1993-cü ilə kimi davam etmişdir. Ermənilərlə münasibətlərimiz normal olan hər 20-30 ildən bir bizə qarşı torpaq iddiaları, soyqırım, etnik təmizləmə aparmaları bütün dünya ictimaiyyətinə məlum faktdır.

Ermənistanla münasibətlərimizi qapadandan sonra son 26 il müddətdə ermənilər Azərbaycan xalqına növbəti soyqırım, etnik təmizləmə aparmaqdan məhrum olublar. Sual olunur Ermənistanla münasibətlərimizin normallaşması bizə nə verəcək? Cavab budur: öz müqəddəratını müəyyən etmə adı altında gələcək ərazi iddiaları və müharibə. Erməni xalqının xəyanətkarlığı barədə dünyanın tanınmış siyasi, elm və mədəniyyət xadimləri dahi sözlərini deyib və bunları bir daha təkrar etməyə lüzum yoxdur.

Osmanlıda ermənilərin türklərə xəyanəti və bu xəyanəti “soyqırıma” çevirmə bacarığı ermənilərin nə qədər təhlükəli bir mutasiya qrupunun olmasının sübutudur.

Ermənistan Azərbaycan Dağlıq Qarabağ konfliktinin sülh yolu ilə, danışıqlarla həlli mümkün deyil. Tarix boyu heç bir dövləti olmayan ermənilərə 1918-ci ildə dövlət yaratmaq üçün İrəvanı güzəştə getdik, onlar bizə minnətdar olmaq əvəzinə nələr

etmədilər, Ermənistan ərazisini Azərbaycan torpaqları hesabına genişləndirdilər, ermənilər təkcə 20-ci əsrdə azərbaycanlılara qarşı 4 dəfə soyqırım törətdilər, Azərbaycanımızın 20%-ni də işğal ediblər. Yenə də biz danışıqlar aparmaq istəyirik, xalqları sülhə hazırlayırıq?! Bu nə deməkdir?! Ermənilərin xislətini, xəyanətini, vəhşiliyini bilə-bilə yenə içimizə buraxıb gələcək nəsillərimizə ermənilərin torpaq iddialarının əsasını və mümkün soyqırımları mirasmı qoyaq?! Niyə yadımızdan çıxarırıq ki, ermənilər xəyanətkardır və bu xəyanətləri ermənilər münasibətimiz yaxşı olanda etibarımızdan sui- istifadə edərək törədiblər. Odur ki, erməni və Azərbaycan xalqlarının sülhə hazırlanması bizim gələcək nəsillərimizə həlli mümkün olmayan problemi miras saxlamaqdır.

Düşünməyə dəyər ki, ABŞ Vyetnamla əlaqəni bərpa etdikdən sonra Vyetnamda narkotikdən kütləvi istifadə gənclər arasında 65 faizə çatıb, qeylərin sayı isə gənclər arasında 30 faizi keçib. Məğrur Vyetnam xalqından əsər əlamət yoxdur. Bütün bunlar; “düşmən ocaq başında”, yəni qeyd edilənlər ABŞ-ın Vyetnama “dost” münasibətindən və əlaqəsindən sonra baş verib. Düşmən yatmır!

## Azərbaycan dövlətinin öz ordusundan və xalqından başqa müttəfiqi yoxdur

Mənfur ermənilərlə qonşuluğumuz təbii proses nəticəsində deyil, böyük dövlətlərin siyasi planları əsasında baş vermişdir. Başımıza gələn belə bir çıxılmaz vəziyyətə görə qardaş Türkiyə bir başa məsuliyyət daşıyır. Əvvəlcə qeyd edim ki, qardaş Osmanlı türklərində dövlətçilik, imperiya hissləri ədalət prinsipindən üstündür. Bunun bariz nümunəsi elə 1918-ci ildə Türklərin təhdidi və təzyiqi ilə Ermənistan adlı dövlətin Azərbaycanın tarixi ərazisində yaradılmasıdır.

Birinci dünya müharibəsini aparan hər iki rəqib tərəflər həm Antanta (Rusiya, İngiltərə, ABŞ, Fransa) dövlətləri həm də Almaniya-Türkiyə bloku üzvləri arasında ermənilərə kiçik bir dövlət yaratmaq fikirlərində idilər. Antanta blokunun üzvləri, yəni Rusiya, İngiltərə, Fransa və ABŞ yaradılacaq erməni dövlətinin Osmanlı Türkiyəsi ərazisində Şərqi Anadolu regionunda yaratmaq barədə istəklərini bəyan etmişdilər. Faktiki məğlub olmuş Osmanlı Türkiyəsi isə "erməni təhlükəsi"ni özündən uzaqlaşdırmaq məqsədi ilə erməni dövlətini öz sərhədlərinin xaricində və Azərbaycanın arxalandığı qardaş Osmanlı türklərinin nəzarətində olan Azərbaycan torpaqlarında qurmaq istəyirdi. Həmin dövrdə erməni daşnak birləşmələri tərəfindən soyqırımlara və qırğınlara məruz qalan Azərbaycan əhalisini xilas etmək, bu fonda böyük dövlətlərin təzyiqi və ən əsası da Azərbaycan ərazilərinin Osmanlı türk ordusunun nəzarətində olması elə bir tarixi şərait yaratmışdı ki, biz Osmanlı türklərinin tələbləri və diktəsi ilə razılaşmalı idik. Azərbaycan məcburən Osmanlı türklərinin təzyiqi, vasitəçiliyi və nəzarəti ilə ermənilərlə danışıqlara getməli oldu. 11.05.1918-04.06.1918-ci il tarixli Batum konfransın-

da iştirak etmiş Azərbaycan nümayəndə heyətinin üzvü Nəsib bəy Yusifbəyli Zaqafqaziya seyminin 27.05.1918-ci il tarixdə fövqəladə iclasında seymin üzvlərinə Osmanlı Türkiyəsinin "erməni təhlükəsini" özündən uzaqlaşdırmaq üçün gələcək erməni dövlətinin Azərbaycan ərazisində yaradılması siyasətini yeritdiyi barədə əlavə məlumat da vermişdir.

29.05.1918-ci il tarixdə Azərbaycan Milli Şurasının qərarı ilə qədim Azərbaycan şəhəri İrəvan daxil olmaqla 9000 kv. km ərazi ermənilərə dövlət yaratmaq üçün güzəşt edildi. 04.06.1918-ci ildə isə Batum müqaviləsi imzalandı və bu müqaviləyə (protokola) görə Ermənistan respublikasını ilk dövlət kimi tanıyan da elə məhz türklər (Osmanlı Türkiyəsi) oldu.

Bununla da ermənilər dövlət yaratmaq xəyalını gerçəkləşdirdi, Osmanlı türklər isə "erməni təhlükəsini" özlərindən uzaqlaşdıraraq bizim boynumuza atdılar, daha doğrusu öz dövlətçilikləri naminə Azərbaycanı qurban verdilər.

15 oktyabr 1918-ci ildə Osmanlı Türkiyəsinin generalı, Azərbaycan xalqının sevimlisi Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu Bakını bolşevik - daşnak quldurlarından azad edib. Azərbaycan Milli Elmlər Akademiyasının aparıcı elmi işçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru Şahin Bağırov açıqlamasında "Əslində, bu ordu Bakını bolşeviklərdən yox, ingilislərin qurduğu Sentro Kaspi Diktaturasından (eser, menşeviklər (əsasən gürcülər), erməni daşnakları) xilas ediblər" deyir. "Hələ heç Leninin Atatürkə etdiyiköməklik haqqında danışmaq istəmirəm, çünki ayrı bir söhbətin mövzusudur... Bu barədə onların xeyli yazışmaları var. Amma Allahdan Leninə də "rəhmət dilənməsi" unudulur!"- deyə dosent Şahin Bağırov bildirib.

Əlbəttə ki, biz azəri türkləri qardaş türk xalqına öz dərin ehtiramımızı, sevgimizi bildirir və Azərbaycan uğrunda qanını və canını əsirgəməyən türk qardaşlarımızın ruhu qarşısında baş əyirik. Biz türklər hər zaman qarşılıqlı olaraq bir birimizin dar günündə yanında olmuşuq. 1-ci dünya müharibəsi zamanı Antanta blokunun (Rusiya, Fransa, İngiltərə) Osmanlı Türkiyəyə qarşı müharibəsi zamanı, şanlı Çanaqqala savaşında türk qardaşlarımıza köməyə gedən 3000 azəri türkü şəhid olub. Bu fakt türk tarixçiləri tərəfindən də təsdiqlənir.

Ancaq ki, tarixi həqiqətləri də gizlətmək düz deyil. 28 aprel 1920-ci ildə müstəqil Azərbaycan Demokratik Respublikası bolşevik Rusiya tərəfindən işğal olundu və bu işğal bolşevik rus ordusunun guya Azərbaycandan keçərək Türkiyəyə gedəcəyi adı ilə baş tutub. Türk qardaşlarımızın isə 1920-ci ildə Azərbaycanın işğalını təbii qarşılayaraq heç bir siyasi və hərbi tədbir görməməsi Atatürklə Leninin gizli sövdələşməsinin sübutudur.

1931-ci ildə Türkiyə ilə Sovetlər İttifaqı arasında 1925-ci ildə imzalanmış müqaviləyə yeniliklər edilərək məxfi hissə əlavə olunmuş və bu əsasla da M. Ə. Rəsulzadə Türkiyədən deportasiya edilmişdir. Hətta M. Ə Rəsulzadə məktublarının birində 1930-cu ildən Polşada yaşadığını və Türkiyəyə girmək üçün ona izn verilmədiyi haqda yazmışdır.

Rəsmi sənədlərə əsasən SSRİ-də 1937-ci ildə ən azı 75 min Azərbaycan ziyalısı repressiya qurbanı olub. 300 millətçi ziyalımız isə xilas olmaq üçün Türkiyə ərazisinə keçə bilir, lakin Türkiyə Stalinin göstərişi ilə həmin 300 ziyalımızı geri sovetlərə təhvil verir. Türk qardaşlarımızın gözü önündə həmin 300 millətçi ziyalımız sərhəddəcə məhkəməsiz güllələnir. Əsl həqiqətdə bu hadisə Atatürklə Leninin razılaşmasının nəticəsi və davamı idi.

Yeri gəlmişkən müasir tariximizdə, 90-cı illərdə Qarabağ və Qarabağ ətrafı rayonlarımızın Rusiyanın bir başa dəstəyi ilə Ermənistan ordusu tərəfindən işğalına türk qardaşlarımız biganə qaldılar və bizə real olaraq heç bir hərbi kömək göstərmədilər, baxmayaraq ki, Azərbaycan qardaş Türkiyədən dəfələrlə kömək istəmişdi.

Əlbəttə ki, bütün sadalanan faktlar təkrar-təkrar sübut edir ki, Azərbaycan həm Türkiyə üçün həm də Rusiya üçün "Razmennaya moneta"dır.

Müstəqil Azərbaycanımızın seçki yolu ilə seçilmiş ilk Prezidenti Əbülfəz Elçibəy çıxışlarının birində mahiyyəti üzrə, "biz azəri türklərində ədalət prinsipi, türkiyə türklərində dövlətçilik prinsi yüksəkdir" deyə bir fikir səsləndirib. Əlbəttə ki, türk qardaşlarımızda alqışlanası və ibrət götürüləsi "dövlətçilik prinsipi" hissi özünü daha çox büruzə verir.

Siyasi baxımdan və dövlətçilik naminə Türklərin addımları başa düşüləndi. Türklərin şəxsi maraqlarına görə və seçim qarşısında olarkən Azərbaycanı qurban verməsi təbii hal kimi də qiymətləndirilə bilər, bu fakt bir daha sübut edir ki, müttəfiqlik müvəqqəti xarakterli, şəxsi maraqlara toxunana kimidir. Bunu xüsusən də biz yadda saxlamalıyıq.

Bəli, bu günki gün qardaş Türkiyə Azərbaycan dövlətinin strateji müttəfiqi və partniyorudur və Türkiyənin müstəqil Azərbaycanımızın ayaq üstə durmasında müstəsna xidmətləri vardır. Ancaq ki, indiki Ermənistanın tarixi Azərbaycan ərazilərində qurulmasında Rusiyadan da artıq səviyyədə Türkiyə və türk qardaşlarımız məsuliyyət daşıyır. Bəli, bu inkar edilməz faktdır. Qarabağın Ermənistan tərəfindən işğalı, Azərbaycan xalqının soyqırımlara məruz qalması həmin Batum müqaviləsinin acı nəticəsidir. Ermənilərin başımıza gətirdikləri fəlakətlərə görə Türk qardaşlarımız ən aşağısı mənəvi məsuliyyət daşıyır.

Yeri gəlmişkən, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı, azərbaycanlıların soyqırımlara məruz qalması, Azərbaycan milli, mədəni, tarixi irsinin məhv edilməsi və ermənilər tərəfdən mənimsənilməsi ermənilərin türklərə qarşı nifrət və qisasının tərkib hissəsidir. SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Azərbaycan SSR-da yerləşdirilmiş qoşunlarının Komandanının müavini, 1990-cı ildə Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinə komendant təyin edilmiş General-mayor Henrix Malyuşkin xatirələrində qeyd edir ki, "Azərbaycan türklərinə qarşı intiqam-qisas hissi yaradan və təbliğ edən erməni yazıçısı Zori Balayan idi, hansı ki, 1990-cı ildə Xankəndində Azərbaycan türklərinə nifrət oyadan kitablarından birini də mənə hədiyə etmişdi. Zori Balayanın Azərbaycan türklərinə zooloji nifrəti var idi və deyirdi ki, azərbaycanlılar günahkardırlar ona görə ki, bir vaxtlar türklər erməniləri öldürüblər və yaşadıqları yerlərdən qovublar. Zori Balayan 1915-ci ildə Osmanlı İmperiyasında baş vermiş məlum hadisələri nəzərdə tuturdu, o dövrün hadisələrini indiki hadisələrlə əlaqələndirir və bütün tarixi günahlandırırdı, hansı ki, başa düşüləsi deyildi. Onun bu mövzuya yazdığı bütün kitabları 1915-ci ildə Osmanlı İmperiyasında baş vermiş hadisələrə görə azərbaycanlılardan intiqam, qisas və nifrətə həsr olunurdu..."

Batum müqaviləsi və onun bir əsrlik nəticələri biz Azəri türklərinə tarixi bir dərsdir və bu dərsdən biz bir nəticə çıxarmalıyıq. Nəticə budur ki, heç bir xalq və dövlət özündən başqa heç kimə, heç bir dövlətə güvənməməlidir. Rusların yaxşı bir deyimini xatırlasaq yerinə düşər. Rusiyanın iki müttəfiqi var: ordu və (donanma) flot. Azərbaycan xalqı və ordusu bir birinə yeganə arxa və müttəfiqdir. Müttəfiqlik tarixi şərait fonunda iqtisadi və siyasi maraqların müvəqqəti üst-üstə düşməsidir.

Müttəfiqlik daim deyil və olmayıb da. Müttəfiqlik müvəqqəti xarakterli müəyyən müddətli siyasi prosesdir. Yeri gəlmişkən şərqi slavyanlar - ruslar, ukraynalılar, beloruslar ortaq tarixə və kökə malik olsalar da zaman-zaman dövlət və xalq kimi bir-birlərini qurban vermişlər. 2014-cü il Ukraynada baş vermiş dövlət çevrilişindən sonra Rusiya tərəfindən Ukrayna Krımının ilhaqı, Ukraynanın Donetski və Luqanski vilayətlərinin nəzarətə götürərək respublika elan etməsi həm qardaş xalqların və müttəfiqlərin “müttəfiqlik etibarının” əsl sübutudur. Belə nümunələrin sayı olduqca çoxdur.

Yeri gəlmişkən dövrümüzdə baş verən siyasi hadisələr “müttəfiqlik etibarı”nın bir siyasi alət və formal xarakterli olmasını bir daha sübuta yetirdi. Türkiyə Respublikası de-fakto parçalanmış İraqın siyasi ərazisi, tarixi Azərbaycan vilayətlərindən biri olan Kərkükü İraq siyasi xəritəsində qurulmuş qondarma “Kürdüstan dövləti”nə güzəştə getdi. Türklər öz dövlət maraqlarına Kərkükü qurban verdi. Çox təəssüf ki, tarix bu dəfə də təkrarlandı.

Qeyd edilənlər o demək deyil ki, biz hər hansı bir dövlətlə müttəfiqlik münasibətində olmamalıyıq, əksinə, biz bir dövlət kimi müttəfiqlər əldə etməliyik. Sözsüz, müttəfiqlərimiz sırasında 1-ci yerdə Türkiyə və türk dövlətləri olmalıdır. Ancaq, bizim, heç bir dövlətin, o cümlədən Türkiyənin qurban payına çevrilməyimizə şərait yaratmamalıyıq.

Odur ki, Azərbaycan xalqı və dövləti öz potensialını genişləndirərək öz imkanlarına arxalanmalı və heç bir müttəfiqin qurban payına çevrilməsinə şərait yaratmamalıdır. Bunun isə bir yolu var, Azərbaycan güclü dövlət olmalıdır!

***P.S. Türkiyə güclü olduğu halda bütün türk dünyasının maraqlarını qoruya bilər. Ona görə də, biz azəri türkləri də Türkiyənin güclü olmasına çalışmalıyıq.***

## Hərb xalqına çevrilməyimiz tarixi zərurətdir

Əzəli Azərbaycan torpaqları indiki sərhədlərimizdən çox-çox geniş bir əraziyə malik olduğu çoxlarına bəlli faktdır. Şimalda sərhədlərimiz (Rusiya) Dərbənddən başlayaraq cənubda (İran) Həmədana qədər, şimal-qərbdə isə indiki Gürcüstanın Borçalı mahalı da daxil olmaqla geniş bir ərazini əhatə edirdi. İndiki Ermənistan dövləti bütövlükdə tarixi Azərbaycan torpaqlarında Rusiya imperiyasının uzaq və yaxın şərqdən xristianların, milliyyətcə erməni olanların köçürülməsi nəticəsində yaradılmışdır. Ümumilikdə tarixi əzəli Azərbaycan torpaqlarının sahəsi 410 min kvadrat kilometrdən çox olmuşdur.

12 oktyabr 1813-cü il tarixdə Rusiya İmperiyası ilə Qacarlar (İran) dövləti arasında bağlanan Gülüstan müqaviləsinə görə tarixi Azərbaycan torpaqları Rusiya və İran arasında bölünmüşdür. Bu müqavilənin şərtlərinə görə Şimali Azərbaycan xanlıqları, İrəvan və Naxçıvan xanlıqlarından başqa bütün xanlıqlar Lənkəran, Şirvan, Bakı, Gəncə, Qarabağ, Şəki Rusiya İmperiyasına verilib.

İkinci Rusiya-İran müharibəsi nəticəsində 10 fevral 1828-ci il tarixdə bağlanmış “Türkmənçay müqaviləsi”nə əsasən Azərbaycanın Araz çayının şimalındakı bütün əraziləri Rusiyaya, cənubundakı ərazilər isə İrana verilərək aralarında bölürlər.

1918-ci il 28 mayda elan olunmuş müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində şimali azərbaycanlıların bütövlüklə yaşadıqları ərazilər 150 min kv. km-ə bərabər idi. 1918-ci ildə Cənubi Qafqazda müstəqil dövlətlər meydana gəldikdə, əzəli Azərbaycan torpaqlarının bir hissəsində ermənilərə güzəşt edilərək əzəli Azərbaycan torpaqlarında Ermə-

nistan Respublikası yaradıldı. Bundan sonra Azərbaycan Xalq Cümhuriyyətinin sahəsi 113,9 min kv. km ərazini əhatə edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi 1920-ci il aprelin 28-də beynəlxalq hüquq normalarını kobudcasına pozan Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində pozularaq işğal olundu və müstəqilliyimiz itirildi.

Sovet İttifaqı dövründə isə əlavə olaraq ümumilikdə 27.9 min kv. km ərazilərimiz Rusiya, Ermənistan və Gürcüstan arasında bölüşdürülmüşdür.

XX əsrin axırında Azərbaycan yenidən müstəqilliyinə qovuşdu, ancaq biz Sovetlər ölkəsinə 113,9 min kv. km ərazi ilə daxil olduğumuz halda Sovetlər birliyini 86,6 min kv. km ərazi ilə tərk edərək müstəqillik əldə etdik. Hal-hazırda Azərbaycanın ərazisi 86,6 min kvadrat kilometrdir. Əzəli Azərbaycan torpaqlarında yaradılmış Ermənistan Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən rəsmən tanınan torpaqlarımızın 20 faizini işğal ediblər.

**1988-1993-cü illərdə işğal edilmiş Azərbaycan əraziləri:**

**Dağlıq Qarabağ: işğal tarixi – 1988-1993-cü illər, ərazisi 4400 km2. (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) və Qağlıq Qarabağ ətrafındakı 7 (yeddi) rayon yəni, Laçın rayonu: işğal tarixi - 18 may 1992-ci il, ərazisi – 1875 km2; Kəlbəcər rayonu: işğal tarixi - 2 aprel 1993-cü il, ərazisi - 1936 km2; Ağdam rayonu: işğal tarixi - 23 iyul 1993-cü il, ərazisi - 1154 km2; Cəbrayıl rayonu: işğal tarixi - 23 avqust 1993-cü il, ərazisi - 1050 km2; Füzuli rayonu: işğal tarixi - 23 avqust 1993-cü il, ərazisi - 1112 km2; Qubadlı rayonu: işğal tarixi - 31 avqust 1993-cü il, ərazisi - 826 km2; Zəngilan rayonu: işğal tarixi - 30 oktyabr 1993-cü il, ərazisi - 707 km2 sahəli** ərazilərimiz işğal edilmişdir.

**Qazax rayonunun 7 kəndi: Bağanıs Ayrım-24.03-1990-ci il, Xeyrimli-08.03.1992-ci il, Barxudarlı-27.04.1992-ci il, Sofulu-27.04.1992-ci il, Qızıl Hacılı-11.05.1992-ci il, Yuxarı Əskipara-08.06.1992-ci il, Aşağı Əskipara-14.06.1992-ci il tarixlərdə işğal edilib. Qazax rayonu Bağanıs Ayrım kəndinin işğalı zamanı azərbaycanlılar soyqrıma məruz qalıbla, işğal zamanı kənddə 28 mülki ev qarət edilərək dağıdılmışdır. Erməni vəhşiliyi nəticəsində Əsliyevlər ailəsinin 5 üzvü dəhşətli işgəncələrlə qətlə yetirilib, sonra üstlərinə benzin tökülərək yandırılıblar. Kənd sakini Alməmməd Məhərrəmov öz həyətindəki ot tayasına atılaraq diri-diri ocağa qalanıb. Kəndin polis növbətçisi Məcid Əhmədov güllələnib, kəndin digər 2 sakini yaralanıb. Qətlə yetirilən insanların böyüyü 75 yaşında Dədəş Əsliyev, ən kiçiyi isə beşikdə olan 39 günlük Hafiz bala olub. Bu hadisə tarixə "Bağanıs Ayrım soyqrımı" kimi düşüb.**

**1990-cı ili 18 yanvarda SSRİ Müdafiə Nazirliyinin 7-ci korpusunun bilavasitə köməyi ilə Ermənistan Respublikası Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun ərazisi 19 kv. km olan Kərki kəndini işğal edib.**

Ermənistanın buraxdığı xəritələrdə Dağlıq Qarabağı, ümumiyyətlə Kür çayının cənub hissəsindəki bütün ərazilərimizi "qədim Ermənistan torpaqları" kimi göstərirlər.

Ancaq və ancaq XX-ci əsrdə ermənilər etnik azərbaycanlılara qarşı dörd dəfə: 1905-1907-ci il soyqırımı, 1918-ci il mart soyqırımı, 1992-ci il fevralın 17-si Qaradağlı soyqırımı və 1992-ci il fevralın 26-sı Xocalı soyqırımları törədiblər.

İndiki İran isə Azərbaycanın dövlət müstəqilliyini həzm edə bilmir və hər zaman indiki Azərbaycana, Şimali Azərbaycan torpaqlarına iddialarından əl çəkmir. İşğalçı Ermənistanla

müttəfiqlik etməklə Azərbaycanın müstəqilliyinin itirilməsinə çalışırlar.

Nəzarətimiz altında olmayan bütün əzəli Azərbaycan torpaqlarında Azərbaycan xalqına mənsub toponimlər dəyişdirilir, tarixi mənbələr məhv edilir və həmin ərazilər erməni-fars-gürcü-rus adlarına saxtalaşdırılır. Azərbaycan dünyanın yeganə dövlətdir ki, ancaq öz əzəli torpaqları ilə həmsərhəddir.

Azərbaycan xalqı bir bayraq altında Eldənizlər, Qaraqoyunlu və Ağqoyunlular dövlətləri kimi dünya tarixində möhtəşəm iz buraxmışdır. Səfəvilər dövlətinin dövründə isə vahid Azərbaycan dövləti yaradılmış və bütöv Azərbaycan torpaqları birləşdirilmişdir.

Tariximizin şanlı səhifələri hərb elminə yüksək diqqət, özünü tanıma və bir xalq kimi fərqliliyimizin qoruyub saxlamaq istəyi dövründə yazılmışdır.

Sonrakı dövrlərdən başlayaraq biz bir xalq və dövlət kimi torpaqlarımızı itirə-itirə gəlirik, bəs buna səbəb nədir? Biz nəyi düz etmirik axı?

Bu sualın cavabı çoxdur, ancaq hesab edirəm ki, başlıca problem bizim milli özünü tanımada, təfəkkürümüzdə, vətənpərvərliyimizdə, unutqanlığımızda nəhayət ki, milli ideologiyamızın olmamasındadır. İlk növbədə sadalananlar yetişən nəslin tərbiyəsində prioritet olmalıdır. Bütün bunların isə təbliği ilk növbədə ailələrdə, sonra da orta ixtisas məktəblərində lazımi qaydada effektiv şəkildə yetişən nəsilə aşılanmalıdır. Məktəblərin bu məsələlərdə məsuliyyəti daha genişdir. Sovet dönəmində "İbtidai hərbi hazırlıq" adlandırılan dərslərin müstəqillik dövrümüzdə məktəblərdə keçirilən, indi "Gənclərin çağırışa qədərki hazırlığı" adlandırılan dərslərə laqeyd münasibət göz qabağındadır, belə ki, dərslər axır saatlara salınmaqla əyani vəsaitlərin

olmaması və heç bir xüsusi şəraitin yaradılmaması fonunda aparılması dediklərimin təsdiqidir. Eyni zamanda dərs vəsaitlərinin "kasıblığı" çoxlu sual doğurur. Orta məktəblərdə hərb hazırlığının ilk dərs saatlarında keçirilməsinin vacibliyi, hərb tariximizin öyrənilməsi, qəhrəmanlarımızın, sərkərdələrimizin təbliği, dərs vəsaitlərinin zənginliyi, dolğunluğu və məktəblərin maddi təminatı strateji istiqamət olmalıdır. Orta məktəbin hər bir şagirdi: oğlanlar vətən əsgəri, qızlar isə tibb bacısı qismində cəmiyyətimizə hazırlanmalıdır.

Eyni zamanda milli fərqliliyimizin, ana dilimizin qorunub saxlanılması, tarixi ərazilərimizin bərpası, milli mənsubiyyətimiz, türkçülüyümüz, müstəqil dövlətçiliyimizin və milli ideologiyamızın əsası olmalıdır. Tariximizdən göründüyü kimi başımıza gələnlərin təkrarlanmaması üçün, torpaqlarımızın itirilməsinin qarşısını almaq üçün, xalqımızın qorunması üçün, dövlətçiliyimizin və müstəqilliyimizin daimi yaşamağı üçün hərb xalqına çevrilməyimiz tarixi zərurətdir.

## Müharibələr xalq birliyinin, dövlətçiliyin mayasıdır! Azərbaycanın "jus ad bellum" hüququ

"Müharibə! Bu anlayış barədə bildiklərimizi xatırlayaq. Ümumiyyətlə müharibə-siyasi birləşmələrin silahlı qarşıdurmasıdır. Karl fon Klauzeviçin fikrincə desək "müharibə-siyasətin digər yolla davamıdır". Müharibə demoqrafik və texnoloji dəyişikliklərin gözlənilən nəticəsi hesab olunur .

Akademik A. Kakoşinin fikrincə müharibə-dünya siyasətinin eləcə də ayrıca dövlət cəmiyyətin xüsusi vəziyyətinin fenomen halıdır.

İlk insan cəmiyyətinin qurluşundan başlayaraq müharibə insanlığın ayrılmaz tərkib hissəsinə çevrilib. Hələ eramızdan əvvəl 12-ci minillikdə insan cəmiyyətləri aralarında mütəşəkkil şəkilli müharibələr aparılıb. Müasir dövrümüzdə müharibənin birincilik və imperializm ideyalarından qaynaqlandığı məlumdur.

Azərbaycan Respublikasının beynəlxalq hüquqla tanınan ərazisinin 20%-i Ermənistan Respublikası tərəfindən təcavüz nəticəsində işğal edilmişdir. Ermənistan dövləti Rusiya Federasiyasının birbaşa köməyi və rəhbərliyi ilə ərazilərimizi etnik təmizlənməyə məruz qoymuş və azərbaycanlılara qarşı soyqırım törədilmişdir. Hal-hazırda işğal olunmuş ərazilərimizdən bir milyondan artıq məcburi köçkünümüz qovulmuşdur.

Beynəlxalq Ali orqan olan Birləşmiş Millətlər Təşkilatı Azərbaycan Respublikası ərazilərinin Ermənistan ordusu tərəfindən işğal faktını təsdiq edən 4(dörd) qətnamə də qəbul etmişdir.

BMT Təhlükəsizlik Şurasının

**30.04.1993-cü il 822 saylı** Qətnaməsində Ermənistan ordusunun işğal etdiyi Azərbaycan ərazilərindən və Kəlbəcər rayonundan dərhal geri çıxarılması;

**29.07.1993-c2 il 853 saylı** Qətnaməsində Ermənistan ordusunun işğal etdiyi Azərbaycan ərazilərindən, eləcə də Ağdam rayonundan dərhal geri çıxarılması və 822 saylı Qətnaməmin icrası;

**14.10.1993-cü il 874 saylı** Qətnaməsində Ermənistan ordusunun işğal etdiyi Azərbaycan ərazilərindən, eləcə də Fizuli, Qubadlı, Cəbrayıl rayonlarından dərhal geri çıxarılması və 822, 853 saylı Qətnamələrin icrası;

**12.11.1993-cü il 882 saylı** Qətnaməsində Ermənistan ordusunun işğal etdiyi Azərbaycan ərazilərindən, eləcə də Zəngilan rayonundan geri çıxarılması və 822,853, 874 saylı Qətnamələrin icrası tələb olunur.

BMT Təhlükəsizlik Şurasının sözü gedən Qətnamələri Ermənistan Respublikası tərəfindən bu günümüzə kimi icra edilməyib. Bu illər ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ konfliktinin sülh yolu ilə həlli üçün Minsk qrupu yaradılmış və üç ermənipərəst ABŞ, Fransa və Rusiya həmsədr dövlətlər müəyyən edilmişdir. Danışıqlar heç bir nəticə verməmişdir. Görünən və təkzib edilməz fakt odur ki, ermənipərəst dövlətlər danışıqları danışıqlar naminə aparır, Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərinə xaricdən, Suriya, İraq, Yəmən, Livan və sair ölkələrdən ermənilər gətirilir, məskunlaşdırılır və süni şəkildə etnik tərkib dəyişdirilir. Minsk qrupun məqsədi isə müəyyən vaxtdan sonra Azərbaycanı faktla üz-üzə qoyub ərazilərimizin işğalını rəsmiləşdirməkdir. Məlumdur ki, həmsədr dövlətlərin məqsədi heç də konflikti sülh yolu ilə həll etmək deyil, məqsəd-Azərbaycanı müharibə yolu ilə ərazilərinin azad edilməsinə yol verməməkdir!

Ümumiyyətlə, SSRİ-nin süqutundan sonra 90-cı illərdə Rusiyanın Qafqazı nəzarətdə saxlaması istəyi və Ermənistanın isə dənizdən-dənizə böyük Ermənistan yaratmaq arzusu Ermənistanla Rusiyanın maraqlarının üst-üstə düşməsi ilə əlaqədar olaraq Rusiyanın bir başa köməyi nəticəsində Ermənistan Azərbaycan ərazilərini işğal edə bildi. Həmin dövrdə iqtisadi vəziyyətin dözülməz olduğunu və dövlətçiliyimizin dağılma ehtimalını, suverenliyimizin təhlükədə olması halında Ermənistanla atəşkəs razılaşması Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə, iqtisadi vəziyyətin normallaşmasına və ordu quruculuğuna şə-

rait yaratdı. Hal-hazırda Azərbaycan faktiki donor ölkəsinə çevrilmiş, ordumuz dünyanın 50 ən güclü orduları sırasına qalxmış və hərbi potensialı ilə ən yüksək ordulardan sayılır.

Mən, bir hüquqşünas və 1-ci Qarabağ müharibəsi veteranı kimi danışıqlar prosesinin əleyhinəyəm. Əvvəla, bu danışıqlar uzandıqca bizim Qarabağımızı fiziki olaraq unutmağımıza səbəb olur. İkincisi, bu danışıqlar milli və etnik təfəkkürümüzə mənfi təsir edir, məsələ ondadır ki, silahla əlimizdən alınan doğma torpaqlarımızı sözlə geri almaq istəyi özümüzə hərb xalqı kimi baxmağımıza şübhə, inamsızlıq yaradır, bu da öz növbəsində bir xalq kimi tarixdən silinməyimizin əsasını qoyur və bizi əsarətə meylli xalqlardan birinə çevirir. Müharibə təkcə silahla vuruşmaq deyil-müharibə xalqın birliyinin, dövlətçiliyin möhkəmlənməsinin mayasıdır. Tarixdən bildiyimiz kimi bəzi müharibələr dağılmaqda olan dövlətlərin, həm xalqının həm də dövlətçiliyinin bərpasına səbəb olub. Zəifləmiş Çin dövlətinin ərazisinin Yaponiya işğalı çin xalqının dirçəlişinə və dövlətçiliyinin bərpasına xidmət etdi. Təcavüzkar qovuldu. Müharibələr xalqların milli təfəkkürünün bir millət-bir dövlət kimi formalaşmasına istiqamət verən siyasi prosesdir.

Yeri gəlmişkən dövrümüzün ən tanınmış yazıçısı, filosof Mixail Vellerin fikirlərini bölüşmək istərdim:

“Bir şəxs iki səviyyədə özünü müəyyənləşdirir - şəxsi və qrupda. Bir insana yalnız şəxsi rifahın idealına ehtiyac var – digərinə böyük bir dövlətin idealına ehtiyacı var. O, böyük bir ölkənin vətəndaşı olduğunu bilməsi lazımdır. Güclü, şərəfli, hörmətli dövlətin. Böyük bir ölkənin vətəndaşı olmaq arzusu, bu böyük ölkəyə malik olmaq istəyi”.

Əlbəttə ki, hər bir Azərbaycan vətəndaşının sahib olduğu dövlətin  güclü, şərəfli, hörmətli olması naminə tarixi sınaqdan üzü ağ çıxmağının mənbəyi məhz, müharibədir. Qələbə müharibəsi.

Dai Sun Tzı demişkən: “Müharibə dövlət üçün böyük bir şeydir, həyat və ölümün təməlidir, varlıq və məhv yoludur. Anlamaq lazımdır”.

Sun Tzının “Döyüş sənəti” əsərində qeyd etdiyi “Yenilməzlik öz-özlüyündə olan, qələbə isə düşməndən asılı zəfər ehtimalıdır” fikirləri mübahisəsizdir. Odur ki, müharibə ilə əldə edəcəyimiz qürur, dövlətimizi güclü, şərəfli və hörmətli etməklə vətəndaşlarımızı isə xüsusi bir hissin yenilməzlik, qürur, daxili rahatlıq, yüksək amal və məqsədlər sahibi edəcək. Başlıcası isə hər bir Azərbaycan vətəndaşının qəlbində sevinc və xoşbəxtlik hisslərinin əsaslı təməlini yaratmış olacağıq. Statistik məlumata görə dünyanın güclü və qüdrətli ölkələrinin vətəndaşlarında xoşbəxtlik hiss əmsalları digər ölkələrin vətəndaşlarının xoşbəxtlik hisslərindən yüksəkdir.

BMT Baş Assambleyasının 14.12.1974-cü il 3314 saylı Qətnaməsi ilə hərbi təcavüzün hüquqi mahiyyəti müəyyən edilmiş və hərbi təcavüz beynəlxalq cinayət kimi qiymətləndirilmişdir. Müvafiq olaraq BMT tərəfindən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü hüquqi və siyasi baxımdan təsdiqini tapmış və Beynəlxalq Ali orqan BMT-nın Təhlükəsizlik Şurası yuxarıda qeyd edilən Qətnamələri Azərbaycan ərazilərindən Ermənistan qoşunlarının dərhal çıxarılmasını tələb etmişdir.

Ermənistanla danışıqların əhəmiyyətsizliyi etiraf edilərək, fərdi yaddaşımıza və milli təfəkkürümüzə mənfi təsirini, BMT TŞ-nın 822, 853, 874, 882 Qətnamələrini, BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində göstərilmiş  “ərazi bütövlüyü” beynəlxalq hüquq prinsipinə əsasən Beynəlxalq hüququn

subyekti kimi Azərbaycan Respublikası müstəqil və suveren dövlət hüququndan istifadə etməklə Ermənistana müharibə etməli və öz ərazisindən təcavüzkarı qovmalıdır. Beynəlxalq münasibətlərdə bu hüquq **"jus ad bellum" adlanır.**

Bütün qonşu dövlətlər ərazilərini Azərbaycan xalqının torpaqları hesabına genişləndirib, regionda yeganə dövlət Azərbaycandır ki, ərazilərini itirə-itirə gəlib 410000 kv.km əraziyə malik Azərbaycan indi 86600 kv.km ərazi saxlayıb, bunun da 20%-i Ermənistan işğalındadır. Müharibə bizi bir xalq kimi təsdiqləyəcək, mənfur qonşularımızın ərazi iştahalarını vuracaq və şanlı türk tariximizi yaddaşlarımıza qaytaracaq. Müharibə Azərbaycanın xilasıdır.

Qarabağ və ətraf rayonlarımız hələ də işğaldadır. Ancaq elə bil ki, biz artıq bu faktla barışmışıq. İkinci dünya müharibəsində Fransanın Hitler Almaniyası tərəfindən işğalından sonra general Şarl de Qoll 1940-cı il 18 iyunda London radiosu ilə fransızlara müraciət edərək "Fransa döyüşü uduzmuşdur, müharibəni deyil" demiş, müqavimət hərəkatına başlamağa çağırmışdır və nəticə də hamıya məlumdur.

***P.S. Birinci Qarabağ müharibəsi iştirakçısı kimi, hərbi hissəmizin, döyüş yoldaşlarımın şücaətlərindən və qəhrəmanlıqlarından danışmıram, yazmıram. Çünki, torpaqlarımız hələ də işğaldadır-dədə, baba yurdu tapdaqda, qız-gəlinlərimiz əsirlikdə olduğu halda hansı qəhrəmanlıqdan söhbət gedə bilər?! Sinəmizi medallarla doldurmaq, Ali hərbi rütbələr daşımaq haramıza yaraşır?***

## Mündəricat

**1-ci fəsil. İnsan və siyasət. İlk ibtidai cəmiyyətlərdə dövlət anlayışı**............6
Hər bir dövlət idarə üsulu insan azadlıqlarını məhdudlaşdıran sistemdir............7
Demokratiya və insan azadlığı məhz xalqların, millətlərin müxtəlifliyidir............8
İnqilab və ya müharibə............9
Qərb demokratiyası............11
Qiymə demokratiya"nın fəsadları............12
Yalan və riyakarlıq xalqın izni ilə yaşayır............15
Qloballaşma-dövlətləri məhv edəcək, dünya hegemonluğunu yaradacaq............ 16
**2-ci fəsil. İslam və cəmiyyət.**............20
İslam mahiyyəti............20
Allah sözü............22
Dini Radikalizmin islamla bağlılığı yoxdur............23
Ərəb milli geyimlərinin İslamla heç bir bağlılığı yoxdur............26
İslamda sünnətin gizli məqsədi............27
İmam Əli ibn Hüseynin anası Şəhrəbanu xanım Cərcəmildən idi............30
İran dövlət siyasəti azəri türklərini farslaşdırmaqdır............31
**3-cü fəsil. Tanrı və Türkçülük**............33
Tanrı dağı............33
Tanrı və türkçülük............33
Tanrıçılığın qeyri türk xalqlara təsiri............35
Həzrəti Məhəmməd Peyğəmbərimiz türkdür............36
İmaməddin Nəsiminin fəlsəfəsi Tanrıçılıq inancına əsaslanırdı............47

Ana vətən hissi....................................................................50
Asiya və şərq xalqlarında Türk Təqviminin rolu......................52
Monqol-Tatar Xaqanlığının indiki monqollara
heç bir aidiyyəti yoxdur..........................................................54
Moskva Kremlin türk keçmişi niyə gizlədilir..........................56
Türk Babək islama qarşı deyil, Bütöv Azərbaycan uğrunda müharibə aparırdı.................................................................... 59
Türkləri və İtalyanlıları birləşdirən canavar............................64
Oğurlanmış qələbəmiz! Bakıya niyə "Qəhrəman şəhər" adı verilmədi?..................................................................................68
**4-ci fəsil. Rus təhlükəsi.**..........................................................73
Rus dilinin Azərbaycanda geniş təbliği müstəqilliyimizə, ərazi bütövlüyümüzə birbaşa təhlükədir!..........................................73
Rusiya Prezidenti V.V. Putinə ünvanlanmış məktub.................76
Rusiya Qarabağa görə məsuliyyət daşıyır............................... 81
KQB azəri türklərinin genetik kodunu mutasiya edib..............87
**5-cü Fəsil. Qarabağ**..............................................................107
SSRİ-nin dağılması ümumilikdə təbii proses idi....................107
Rusiyanı da ermənilər parçalayacaq......................................114
Ermənistan hərbçiləri Suriyada..............................................119
İraq Kürdüstanı, İspaniya Kataloniyası..................................121
Azərbaycan xalqlarının sülhə hazırlanması bizim gələcək
nəsillərimizə həlli mümkün olmayan problemi vərəsə
saxlamaqdır.............................................................................127
Azərbaycan dövlətinin ordusundan və xalqından başqa
müttəfiqi yoxdur......................................................................130
Hərb xalqına çevrilməyimiz tarixi zərurətdir..........................136
Müharibələr xalq birliyinin, dövlətçiliyin mayasıdır!
Azərbaycanın "jus ad bellum" hüququ...................................140
Mündəricat...............................................................................146

# QEYD

# Vüqar Dadaşov

# MƏNİM DÜŞÜNCƏM

Çapa imzalanmışdır: 21.10.2019
Kağız formatı: 60x84 1/16
"Zərdabi" Nəşr MMC
Tel: (012) 514-73-73
Sifariş№ 74
Sayı: 500 ədəd

Müəlliflə əlaqə: 070.712.18.44
051.408.26.16